# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 132-ci kitabı çapdan çıxıb

**“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 132-ci kitabı çapdan çıxıb.**




Çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin noyabr-dekabr aylarını əhatə edir.

Bu kitabda Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunmuş Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfərinə, eləcə də Dubayda BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşünə dair materiallar toplanıb. Dövlətimizin başçısının Serbiya Respublikasına işgüzar səfəri haqqında informasiya, Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışının mətni, Bolqarıstan Prezidenti Rumen Radev və Serbiya Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşləri barədə məlumatlar da bu kitaba daxil edilib.

Yeni kitabda Azərbaycan Prezidentinin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşünə dair material, bu təşkilata üzv dövlətlərin əmək nazirlərinin V konfransının iştirakçılarına müraciətinin mətni də yer alıb.

Xatırladaq ki, ötən ilin noyabrında Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilib. Oxucu bu kitabda Azərbaycan Prezidentinin Zirvə görüşündə çıxışının mətni, eləcə də bu tədbirdə iştirak etmək üçün ölkəmizə gəlmiş dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələri ilə görüşlərinə dair materiallarla tanış ola bilər.

Ötən ilin mühüm hadisələrindən biri də dekabr ayında ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumu olub. Azərbaycan Prezidenti Forumda çıxış edib və iştirakçıların çoxsaylı suallarını cavablandırıb. Dövlətimizin başçısı, həmçinin bu cavablarında Qarabağın yenidən qurulması ilə bağlı məsələlərə diqqət çəkib.

Sitat: Qarabağın yenidən qurulmasına gəldikdə, təbii ki, əsas maneə zaman və minalardır. Bizim rəqibimiz zamandır, çünki biz bu işləri ən qısa müddətdə həyata keçirmək niyyətindəyik. Bundan əlavə, Qarabağın yenidən qurulması üçün maliyyə vəsaiti toplamışıq və bu, investisiya proqramımızın əsas hissəsini təşkil edəcək. Müqayisə üçün deyim ki, Qarabağın yenidən qurulmasına daha çox vəsait xərcləyəcəyik, - mən dövlət investisiyalarını nəzərdə tuturam, - ölkənin qalan hissəsinə nisbətən daha çox. Bu, ölkənin qalan hissəsini diqqətdən kənar qoyduğumuz anlamına gəlmir. Uzun illər ərzində ölkənin qalan hissəsinə artıq milyardlarla manat investisiya yatırmış və əksər infrastruktur layihələrini başa çatdırmışıq. Lakin hazırda Qarabağ bizim əsas prioritetimizdir. Bölgənin özü və ən əhəmiyyətlisi, evlərinə dönməyi gözləyən insanlardır.

Forumda dövlətimizin başçısının verilən suallara geniş məzmunlu cavabları ilə 132-ci kitabda tanış olmaq mümkündür.

Kitabda Prezident İlham Əliyevin “Euronews” televiziyasına müsahibəsinin mətni də verilib.

2023-cü il dekabrın 15-də Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirə olub. Dövlətimizin başçısının müşavirədə çıxışının mətni də yeni kitaba daxil edilib.

Çoxcildliyin bu cildində Prezident İlham Əliyevin Qarabağa səfərinə, Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ”, Bakının MOİK komandalarının oyununa baxmasına, Xankəndi stadionunda çıxışına, oyunun fasiləsində 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşünə dair materiallar da yer alıb.

“Azərnəşr” tərəfindən buraxılan 132-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

**AZƏRTAC**

# Rusiyanın xüsusi tapşırıqlar səfiri XİN-də

**Martın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Pavel Knyazev ilə görüşüb.**



Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud münasibətlərin regional və beynəlxalq platformalarda əməkdaşlığın genişləndirilməsinə müsbət təsir göstərdiyini diqqətə çatdırıb. Həmçinin bir sıra beynəlxalq platformalarda əməkdaşlığın perspektivləri ətrafında müzakirə aparılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyətdən, Azərbaycanın regionda sülh və quruculuq səylərindən bəhs edən nazir Ceyhun Bayramov sülh prosesinin irəlilədilməsi istiqamətində yeni çağırışlar yaradan bir sıra addımların, o cümlədən regiondan uzaq yerləşən dövlətlərin öz birtərəfli mövqelərini bölgəyə proyeksiya etmək cəhdlərinin prosesə maneə törətdiyini bildirib.

Bu istiqamətdə aprelin 5-də keçiriləcək Aİ–Ermənistan–ABŞ müştərək konfransının bu cür qeyri-şəffaf və inklüziv olmayan mühitdə təşkili ilə bağlı ölkəmizin mövqeyinin, habelə bu kimi təşəbbüslərin revanşist əhvali-ruhiyyənin hökm sürdüyü Ermənistanı yeni təxribatlara təşviq edə biləcəyi ilə bağlı narahatlıqlarımızın aydın şəkildə ifadə olunduğu vurğulanıb.

**XQ**

# “Petel diplomatiyası” və Parisin İrəvana “dəstək nağılı”

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, sözügedən qətnamənin lakmus kağızından başqa bir şey olmadığı hər kəsə yaxşı məlumdur. Başlıca məqam isə ondadır ki, Patel və onun kimi ermənipərəstlər həmin lakmus kağızlarını ciddi gündəm mövzusu kimi sırıyırlar. Nəticədə rəsmi İrəvan, ümumən xəstə erməni cəmiyyəti illüziya bataqlığındakı yerini bir qədər də möhkəmləndirir. Əlbəttə, buna möhkəmləndirmək demək mümkündürsə.

Fransa-Ermənistan dostluq qrupunun sədrinin ölkəsinin artıq mövcud olmayan, tarixin arxivinə gömülmüş Qarabağ münaqişəsinin nizamlanmasında rol oynaya biləcəyinə dair fikirləri cəfəng mahiyyət daşıyır. Çünki Qarabağ münaqişəsinin sülhə əsaslanmış həllinin olmadığını gördük. Görəsən, xanım Petel hansı diplomatik yollardan danışır? O deyir ki, Parisin bu istiqamətdəki işləri göz qabağındadır. Mənasız kağız parçalarını qəbul etmək, birtərəfli mövqe tutmaq nə zamandan diplomatik məharət sayılıb? Söhbət Fransanın səylərinin göz qabağında olduğundan gedirsə, mövcud xüsusda ortada yalnız bir reallıq var – Paris İrəvanı silahlandırır və onu Bakı ilə yeni hərbi münaqişəyə təhrik edir.

Görünür, fransız deputat Ermənistanı Azərbaycana qarşı yeni müharibəyə sövq etməyi diplomatik yol adlandırır. Xəstə toplumu uçurumun kənarına gətirib onun özünü həmin uçurumdan aşağı atmasına tamaşa etmək məharət yox, qatı mazoxizmdir. Petel İrəvana məhz bu mazoxizmi yaymağa, yaxud onun təsir gücünü artırmağa gəlib. Yəni, normal məqsədi qətiyyən yoxdur. Hələ xanım parlamentari bir qədər də “irəli gedərək” deyir ki, Fransanın istəyi, ilk növbədə, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına kömək göstərməkdir və mövcud istiqamətdə üzərinə düşəni gerçəkləşdirir. Deyəsən, o, heç cür yuxudan ayıla bilmir...

Xanım parlamentari müsahibəsində onu da bildirib ki, son aylar, xüsusilə 2023-cü ilin sentyabrından, 2021 və 2022-ci illərdə Ermənistan ərazisində (?) baş vermiş insidentlərdən sonra İrəvanın müdafiə qabiliyyətinin və suverenliyinin gücləndirilməsi baxımından Fransanın görəcəyi işlər getdikcə daha aydın görünür. Bu yerdə Petel mövzunu Rusiyanın üzərinə gətirir. Çünki Bakı – İrəvan münasibətləri kontekstində anti-Rusiya ritorikası kollektiv Qərbin, sanki, qızıl qaydasına çevrilib.

Petel deyir ki, Rusiyanın Ermənistan üçün etibarlı müttəfiq olmadığı artıq hər kəsə məlumdur. Buna görə Fransa Ermənistanın əsas müdafiə tərəfdaşına çevrilib və bu, “təcavüzkar qonşusu” Azərbaycanla daha balanslı münasibət qurmağa imkan verir. Belə çıxır ki, Fransa olmasaydı, indi Azərbaycan Ermənistanı işğal etmişdi. Hər halda Peteldən başqa çox az ermənipərəst belə sərsəm düşüncəyə gələ bilər.

Baş nazir Nikol Paşinyan və komandası mürəkkəb cümlələrlə niyyətlərini ört-basdır etməyə cəhd göstərir. Maraqlıdır ki, xaricdəki ermənipərəstlər belə söz oyununa diqqət yetirmir, həqiqətləri çılpaqlığı ilə ortaya qoyurlar. Fərqinə varmırlar ki, söylədikləri Ermənistan hakimiyyətini, faktiki olaraq, məsuliyyətsiz tərəf kimi göstərir. Məsələn, Petel deyir ki, hazırda çox incə diplomatik oyun gedir. İrəvan Avropaya yaxınlaşmaq, Rusiyadan uzaqlaşmaq istəyini mütləq nümayiş etdirir. Görəsən, erməni iqtidarında təmsil olunan kimsə belə fikir işlədirmi və ya işlədibmi? Əlbəttə ki, yox! Göründüyü kimi, Petel Paşinyanı və komandasını, bir növ, peşka yerinə qoyur. Deməli, ikincilərin siyasi gediş anlamında nəyi dillərinə gətirmələrinin heç bir önəmi yoxdur. Bu da Fransanın Ermənistan hakimiyyətinə verdiyi fayda…

Faydadan söz düşmüşkən, “Armenpress”in müxbiri xanım Petelə deyir ki, Fransanın Ermənistana istənilən dəstək bəyanatı gərgin vəziyyət yaradır. O, belə bir durumda Parisin hansı önləyici addımlarının olduğunu soruşur. Sual yerindədir. Fransanın Rusiya ilə Ermənistan arasındakı hazırkı xoşagəlməz vəziyyətdə necə mövqe tutmalı olduğuna dair sual da həmçinin. Petel isə cavabında nağıl danışır. Deyir ki, ölkəsi Ermənistanı öz institutlarını gücləndirməkdə, demokratiya yolu ilə irəliləmək istəyini reallaşdırmaqda dəstəkləyir. Ona görə də birinci ikincinin tərəfdaşıdır. Sən demə, İrəvan daha böyük müstəqillik yolunu seçibmiş. Deyəsən, xanım Petel inqilabi romantizmə güc verir. Aydındır ki, belə yanaşma sərt reallıqlar qarşısında tam keçərsizdir. Yəni, Parisin İrəvana sınıq-salxaq döyüş maşınlarından başqa düz-əməlli dəstəyi yoxdur.

Digər tərəfdən, Petelin sualdan yayındığı da aşkardır. Məsələ burasındadır ki, o, Fransanın görəcəyi işləri bir kənara qoyub Rusiya üzərinə köklənməklə məşğuldur. Daha dəqiq desək, Rusiyanı Ermənistanın gözündən salmaqla. Məsələn, Petel Moskvanın Qarabağ məsələsində İrəvanı dəstəkləmədiyinə dair artıq çürüməkdə olan tezisi yenidən gündəmə gətirir. Bəs sonra? Sonra heç nə.

Əslində, Petelin, eləcə də digər ermənipərəstlərin yanaşma tərzləri, arqumentləri Ermənistanın gələcəkdə üzləşəcəyi problemlərə görə məsuliyyəti boyunlarından atmaqdan başqa bir şey deyil. Bir sözlə, Petel saxta romantizmə köklənərək, Paşinyan administrasiyasının, guya hansısa uzaqgörən hədəflərinin olduğu ab-havasını formalaşdırır. Digər yandan isə mənasız fikirləri ilə göstərir ki, ölkəsinin rəsmi İrəvanın siyasi inqilabçılığa hesablanmış romantizmini qorumaq üçün heç bir gerçək resursu yoxdur. Deməli, günün birində, obrazlı desək, erməni inqilabçısı küçədə aclıqdan ölsə, Fransa yalnız göz yaşları axıtmaqla kifayətlənəcək. Budurmu dəstək?

Digər bir yandan isə belə təəssürat yaranır ki, Petel, əslində, həm də nə dediyinin yaxşı fərqindədir. Baxın, bu xanım parlamentari bildirir ki, Fransa avropalı tərəfdaşlarının diqqətini Ermənistanla bağlı məsələlərə, ölkəyə yardım göstərməyə cəlb etmək istəyir. Deməli, neçə vaxtdır əlləşirlər, ortada real nəticə yoxdur. Fransız parlamentarinin sözlərinə görə, Avropa ölkələri təcavüzkarla mübarizədə Ermənistana kömək göstərməyə borcludurlar. Sual olunur: nə üçün? Avropaya əl boyda Ermənistan lazımdır, yoxsa qışda soyuqdan donmamaq? “Köhnə qitə” hansı səbəbdən erməni avantürizminin yaşadılması naminə qol çırmalamalıdır? Əlbəttə, sual ritorikdir. Çünki heç bir səbəb yoxdur. Bu durumda Fransanın və Qərbin dramatik təqdim edə biləcəyi yalnız bir motiv var ki, o da Rusiyadır. O zaman sual yaranır: kollektiv Qərb Rusiya ilə mübarizənin Ukrayna cəbhəsində hansı uğura nail ola bildi ki, Avropa ictimai rəyi Petel kimi ermənipərəstlərin İrəvanda anti-Rusiya qalası düzəltmək naminə çağırışlarına səs versin?

Əlbəttə, Fransanın istədiyi mümkünsüzdür. Çünki “köhnə qitə” anti-Rusiya təşəbbüsünü anti-Azərbaycan motivləri ilə çulğalaşdırmayacaq. Birincisi, Azərbaycan özü müstəqil xarici siyasət yürüdür, beynəlxalq hüququn norma və prinsiplərindən çıxış edir, ikincisi, ölkəmizin götürdüyü kurs balanslaşdırılmış xarakter daşıyır, bütün dünya yaxşı anlayır ki, rəsmi Bakı yalnız öz maraq və mənafelərini qoruyur, qlobal siyasi oyunlarda alətə çevrilmir. Üçüncüsü, az-çox Fransanı da tanıyanlar var, Ermənistanı da. Bu ikiliyin sırf avantürizmə kökləndiyinin fərqində olanların sayı yetərincədir. Deməli, Petel və onun düşüncəsini bölüşənlərin danışdıqları yalnız cəfəngiyyat olaraq qalacaq. Xanım parlamentari cəfəngiyyatı bəzəməklə erməni təəssübkeşliyini davam etdirmək niyyətindədirsə, buyursun. Necə deyərlər: can onların, cəhənnəm Tanrının!

**Ə.RÜSTƏMOV**
**XQ**

# “Odlar yurdu” “Asiya nəhəngi”nin “Phoenix” telekanalı ekranında

**Çinin “Phoenix” telekanalı Azərbaycana həsr olunmuş xüsusi veriliş yayımlayıb.**




Xüsusi verilişin qonağı olan Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev aparıcının Azərbaycanla Ermənistan arasında sülh danışıqları, “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində Çin-Azərbaycan əməkdaşlığı, Şərq-Qərb nəqliyyat dəhlizinin əhəmiyyəti, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq, Bakının evsahibliyi edəcəyi COP29 və digər mövzularda suallarını cavablandırıb.

Eyni zamanda, bu il Azərbaycanda keçiriləcək COP29 barədə məlumat verilib. Bildirilib ki, iqlimin maliyyələşdirilməsi Bakı konfransında əsas mövzu olacaq.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatçısı olduğu, bir çox Avropa ölkələrinə neft və təbii qaz ixrac etdiyi diqqətə çatdırılıb. Çinlə Azərbaycan arasında enerji sahəsində sıx əməkdaşlıq mövcud olduğunu, yaşıl keçidin Azərbaycan üçün prioritet sahəyə çevrildiyi diqqətə çatdırılıb.




Bildirilib ki, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən öz ərazi bütövlüyünü və suverenliyini təmin edib. İndi Ermənistan və Azərbaycan sülhə heç vaxt olmadığı qədər yaxındırlar. Son altı ayda Ermənistan-Azərbaycan sərhədində iki ölkə tarixində ən sakit dövrlərdən biri olub.

Vurğulanıb ki, Fransa və ABŞ-ın həmsədrlik etdikləri ATƏT-in Minsk qrupunun himayəsi ilə aparılan 30 illik danışıqlar praktiki olaraq heç bir nəticə verməyib. Amma indi sülh daha yaxındır, bölgədə de-fakto sülh hökm sürür. Azərbaycanın məqsədi Qafqaz regionunu sülh və əməkdaşlıq bölgəsinə çevirməkdir. Qeyd edilib ki, Azərbaycanın hərbi işğala məruz qalmasına baxmayaraq, məhz o, sülh müqaviləsinin təşəbbüskarı olub və onun mətnini hazırlayıb.

“Bir kəmər, bir yol” layihəsi ilə bağlı sualı cavablandıran Prezidentin köməkçisi deyib ki, Azərbaycan Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən irəli sürülən “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olub. Qeyd edilib ki, Asiya ilə Avropa arasında yükdaşımalarda ən qısa marşrut olan Şərq-Qərb Nəqliyyat Dəhlizi rəqabətədavamlı, eyni zamanda, təhlükəsiz və etibarlıdır. Avropa şirkətləri və qitənin ticarət institutları Çin və Mərkəzi Asiya bazarlarına çıxmaq üçün bu marşrutdan istifadə edə bilərlər.

İki ölkə arasında münasibətlərə toxunan Hikmət Hacıyev bildirib: “Çin və Azərbaycan ənənəvi dostlardır. Ölkəmizlə Çin arasında dərin tərəfdaşlıq əlaqələri mövcuddur. Azərbaycan müstəqillik əldə etdiyi vaxtdan hər zaman Çinin dəstəyinin və tərəfdaşlığının şahidi olub. Prezidentlərimiz arasında sıx dostluq münasibətləri var. 2019-cu ildə Prezident İlham Əliyevin Çinə səfəri zamanı ÇXR-in Sədri Si Cinpin dövlətimizin başçısını yaxşı dost kimi qiymətləndirdi. Bu parametrlərə əsaslanaraq biz Azərbaycan-Çin münasibətlərini inkişaf etdiririk. Çin və Azərbaycan siyasi səviyyədə çox yaxşı dostlardır. Biz bir-birimizin ərazi bütövlüyünü dəstəkləyirik. Azərbaycan həmişə “Vahid Çin” prinsipini rəhbər tutur. Azərbaycan və Çin beynəlxalq hüququn fundamental prinsiplərini dəstəkləyir”.

Həmçinin vurğulanıb ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edir. Qeyd olunub ki, Azərbaycan bu il COP29-a evsahibliyi edəcək və bu istiqamətdə də Çinlə əməkdaşlıq imkanları mövcuddur. İki ölkə arasında əməkdaşlığın digər istiqaməti isə iqtisadi sahədir. Bu xüsusda, Azərbaycanla Çinin ticarət əlaqələri davamlı olaraq genişlənir.

Sonda bildirilib ki, Azərbaycan inkişaf edən ölkədir və Çin ilə Orta Dəhliz boyu əməkdaşlıq potensialı mövcuddur.

**XQ**

# Azərbaycan–Çin: Şərqi Qərblə qovuşduran strateji tərəfdaşlıq

**(əvvəli 1-ci səhifədə)**

Təbii ki, Azərbaycan dəmir və avtomobil yollarının, hava limanlarının inkişafında da maraqlıdır. Ölkəmizin Dünya okeanına çıxışının olmamasına baxmayaraq, bu gün Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsü sayəsində beynəlxalq logistika və nəqliyyat mərkəzinə çevrilir. Bu təşəbbüsün “Böyük İpək Yolunun Bərpası” və “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” milli Azərbaycan strategiyaları ilə çoxlu təmas nöqtələri var. Bu, artıq Çin və Azərbaycan arasında iqtisadi əlaqələr üçün möhkəm zəmin yaratmaqla bərabər, əməkdaşlıq üçün yeni perspektivlər açır. Təbii ki, Azərbaycanın nəqliyyat sektorunda əldə etdiyi nailiyyətlər və imkanlar “Bir kəmər, bir yol” layihəsinin iştirakçıları tərəfindən yüksək qiymətləndirilir. Bu meqalayihə Prezident İlham Əliyevin dediyi kimi, sənayeyə yeni nəqliyyat imkanları və investisiyalar təqdim etməklə yanaşı, həm də xalqlar arasında ticarət, turizm və humanitar əlaqələri təşviq edir, eyni zamanda, Avrasiyada sabitlik, təhlükəsizlik və sülhün bərqərar olmasına xidmət edir.

Azərbaycan və Çin arasında intensiv siyasi dialoq da aparılır. Ölkələrimiz arasında 88 dövlətlərarası müqavilə bağlanmışdır. Bir çox məsələlərdə ölkələrimiz eyni mövqedən çıxış edirlər. Yəni Pekin ilə mehriban və yaxşı tərəfdaşa xas olan əlaqələr spektri var. Bu, həm də ölkələrimizin liderləri, hakim partiyalar və xalqlarımız arasında gözəl münasibətdir. Hakim Çin Kommunist Partiyası ilə hakim Yeni Azərbaycan Partiyası arasında çox gözəl əlaqələr mövcuddur. Partiyalararası bu fəal dialoq iki xalq arasında dostluq əlaqələrinin möhkəmlənməsinə, çoxvektorlu əməkdaşlığın dərinləşməsinə və ümumilikdə Azərbaycan-Çin əlaqələrinin inkişafına böyük töhfə verir. Azərbaycanda Çin dili və mədəniyyətinin öyrənildiyi Konfutsi Mərkəzi də fəaliyyət göstərir. Yəni münasibətlər bütün sahələrdə inkişaf edir.

Bununla yanaşı, Bakı Çinlə siyasi dialoqunu dərinləşdirmək və gücləndirmək istəyini hər zaman nümayiş etdirir. Azərbaycan hesab edir ki, ikitərəfli dialoqun keyfiyyəti yüksək səviyyədədir. İki ölkə liderləri arasında münasibətlərin yaxşı olması əməkdaşlığın keyfiyyətinə daha da müsbət təsir göstərir. Beynəlxalq münasibətlərdə mühüm rol oynayan Çinin BMT Təhlükəsizlik Şurasının daimi üzvü və Azərbaycana dost ölkə olması Bakının diqqət yetirdiyi xüsusi məqamlardır. Buna görə də, Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olan və qədim tarixə və xoş ənənələrə əsaslanan ikitərəfli münasibətlər yüksələn xətlə inkişaf edir və etibarlı tərəfdaşlıq hər keçən gün yeni məzmunla zənginləşir.

**S.ELAY**
**XQ**

# AMEA – müstəqil dövlətçiliyin xidmətində

II MƏQALƏ

**Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr vermişdir. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır. Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Qarşıda duran vəzifələr 3 blokun işığında

I məqalədə AMEA-nın yeni nümunə kimi "beynəlxalq əməkdaşlıq dördbucağı" adlandırdığımız əlaqələr şəbəkəsini yaratmasını göstərmişdik. Vurğulamışdıq ki, bu, həm ayrıca Azərbaycan miqyası üçün əhəmiyyətlidir, həm də Azərbaycan miqyasında fəaliyyətlə Türk Dövlətləri Təşkilatı miqyasında fəaliyyətin uyğunlaşdırılması baxımından xüsusi məna kəsb edir. Bu iki aspektin kökündə bir incə nəzəri və metodoloji məsələ dayanır. Həmin məsələnin ümumi formada qoyuluşunu ifadə edən tezisi də təqdim etmişdik. Yaradıcılığın sırf idraki aspekti ilə sosial, iqtisadi, energetik, ideoloji, idarəetmə və ya hüquqi legitimlik sferaları arasında nəticəverici bağlantıları nəzəri-konseptual müstəvidə müəyyən etmək zəruridir! Bu ümumi tezisdə yer almış "nəticəverici bağlantılar" ifadəsinin məzmunu qərar layihəsində əks olunmuş qarşıda duran vəzifələr bölməsində 3 blokda birləşdirilmişdir. Onlar aşağıdakılardır:

– Azərbaycançılıq ideologiyasının və multikulturalizm konsepsiyasının elmi-nəzəri əsaslarının tədqiqi və fundamental istiqamətlərinin müəyyənləşdirilməsi, sosial proseslərə tətbiqi ilə bağlı araşdırmalar daha da genişləndirilsin;

– ölkəmizin yeni nəsillərinin milli-mənəvi dəyərlərə bağlı və vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün Azərbaycan tarixinin, onun zəngin mədəniyyətinin, ədəbi-tarixi şəxsiyyətlərinin tədqiqi və təbliği prioritet fəaliyyət istiqamətlərindən biri hesab edilsin;

– texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi və s. kimi istiqamətlər üzrə elmi araşdırmaların daha da gücləndirilməsi, bu sahələr üzrə respublikada və xaricdə mütəxəssislərin hazırlanması üçün tədbirlər həyata keçirilsin.

Bu üç blokda cəmiyyətin elmi, texnoloji, təhlükəsizlik sferaları ilə toplumdaxili sosial-mədəni strukturlaşma (azərbaycançılıq və multikulturalizm) və cəmiyyətin inkişafında milli-mənəvi amillərin rolunun müəyyən edilməsi (yeni nəsillərinin milli-mənəvi dəyərlərə bağlı və vətənpərvərlik ruhunda tərbiyə edilməsi) üzvi surətdə cəmləşmişdir. AMEA bu maraqlı nəzəri yanaşmanın konkret elmi araşdırma proqramlarında reallaşmasını təmin etməlidir.

Eyni zamanda, burada iki vacib şərt nəzərə alınmalıdır. Birincisi, tədqiqatlarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimindəki nitqində yeni dövr üçün müəyyənləşdirdiyi prioritetlər rəhbər tutulmalıdır. İkincisi, Prezident İlham Əliyevin 3 noyabr 2023-cü il tarixli 2339 nömrəli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnaməsində müəyyən edildiyi kimi, AMEA "Azərbaycan Respublikasında elmin inkişafının təmin edilməsində və elm sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak edən dövlət ali elmi təşkilatı" hüquqi statusuna uyğun fəaliyyət göstərməlidir.

Deməli, müəyyən edilən hər üç blok və həm də onların qarşılıqlı əlaqəsində AMEA elmi yaradıcılığın təşkilində zəkavi, mənəvi, mədəni, ideoloji, texnoloji, sosial aspektlərin vəhdəti üçün strateji dövlət təşkilatı kimi xüsusi məsuliyyət daşıyır. Hansı mənada "məsuliyyət" deyirik?

Məlumdur ki, AMEA Avropada fəaliyyət göstərən Açıq elm platforması ilə əməkdaşlıq edir. Bu, perspektivli platforma sayılır və orada elmi tədqiqatlarda azadlıq və sərbəstliklə yanaşı, alim məsuliyyəti məsələsi də ciddi qoyulur. Bu məsuliyyət araşdırmacı olaraq hər bir yaradıcı insanın ölkəsi, xalqı və dünya qarşısında məsuliyyət daşıması kimi dərk edilir. Yəni, "məsuliyyət" dedikdə hər hansı hüquqi məqam deyil, elmi tədqiqatların aparılmasında qarşıya qoyulan məqsədə çatmaq öhdəliyini anlamaq nəzərdə tutulur.

AMEA rəhbərliyinin vurğulanan blokların reallaşması üçün göstərdikləri cəsarət və strateji addım buradan qaynaqlanır. AMEA real tədqiqat proqramlarında ölkənin strateji inkişafının sırf idraki (koqnitiv) aspekti ilə praktiki-tətbiqi aspektini sintez edən modeli yaratmalıdır! Bu, mümkündürmü? Tamamilə mümkündür!

AMEA bu istiqamətdə potensial gücünü nümayiş etdirəcəkdir! Bunu qərar layihəsinin müddəalarından görmək olar. Həmin sırada rast gəlinən maraqlı bir özəllik yuxarıda vurğuladığımız Azərbaycan miqyası ilə Türk dünyası arasında uyğunluq yarada biləcək araşdırma və təşviq proqramları ilə bağlıdır. Bu iki miqyasın uyğunlaşdırılması dünya səviyyəsində aparıcı elmi dairələrlə əlaqə qurmağa geniş imkanlar yaradacaqdır.



Qərar layihəsində yazılmışdır: "AMEA Rəyasət Heyətinin 22 fevral 2024-cü il tarixli iclasında akademiyanın prezidenti, akademik İsa Həbibbəylinin "Humanitar və ictimai elmlər sahəsində ədəbi-tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərinin tədqiq edilməsi vəziyyəti və müstəqillik dövrü Azərbaycan elminin vəzifələri" adlı məruzəsində irəli sürülən ideyalara uyğun olaraq, müxtəlif elmi-nəzəri problemlərin öyrənilməsi ilə bərabər, görkəmli tarixi şəxsiyyətlərin, elm və mədəniyyət xadimlərinin, yazıçı və şairlərin həyat və fəaliyyətlərinin, xidmətlərinin azərbaycançılıq baxımından tədqiqi, bu sahədə elmi konfransların təşkili, plan işlərinin, dissertasiya mövzularının yerinə yetirilməsi mühüm elmi istiqamətlərdən biri olaraq həyata keçirilsin".

Azərbaycanın tarixi şəxsiyyətlərinin, siyasi xadimlərinin, elm, mədəniyyət və təhsil üzrə böyük xidmətləri olan insanlarının, o cümlədən, böyük şair və yazıçılarının azərbaycançılıq baxımından həm elmi cəhətdən araşdırılması, həm də onlarla bağlı təşviq və təbliğ xarakterli tədbirlərin keçirilməsinin mühüm vəzifə kimi qarşıya qoyulmasının aktuallığı və əhəmiyyəti nədən ibarətdir? Burada dərin və çox əhəmiyyətli incə bir məqam mövcuddur!

Məsələ ondan ibarətdir ki, Ulu öndər dəfələrlə vurğulamışdır ki, Azərbaycan xalqı zəkidir, o, elm və təhsil üzərində özünü yaratmışdır və indi də yaradır. Azərbaycan toplum olaraq mədəniyyət əsasında özünü təşkil etmişdir, bu kökdə tərəqqidə olmuşdur və indi də olur! Azərbaycan dövlətçilik ənənəsi məhz bu amil üzərində tarixin sınaqlarından çıxmışdır və indi də çıxmaqdadır!

Bizim dövlət və millət kimi özünüyaratmağımız, təşkilatlanmağımız, mədəniyyət məkanı kimi mövcudluğumuz xalqın ziyalılığa, mənəvi-əxlaqi dəyərlərə üstünlük verməsinə və dövlət quruculuğunda bu məqamın aparıcı müəyyənedici yer tutmasına söykənir. Bu isə toplum miqyasında xalqın sosial, mədəni, əxlaqi, siyasi, mənəvi, tarixi, ideoloji enerjisini vahid hədəfə fokuslaşdırmaqla "yaradıcı sinerji" yaratmaq anlamına gəlir!

## Azərbaycan xalqının yaradıcı sinerjisi

"Xalqın yaradıcı sinerjisi" anlayışı abstrakt (mücərrəd) mənalı deyildir – hər bir tarixi mərhələdə konkret məzmun kəsb edir. Eyni zamanda, həmin sinerjini özündə akkumulyasiya edən (toplayan, daşıyan və bütün cəmiyyətlə paylaşan) sosial varlıqlar vardır. Onlar ziyalılar, yaradıcı adamlar, vətənpərvər şair və yazıçılardır!

Onlar filosoflar, konkret elm sahəsinin fədakar "savaşçıları"dır, onlar bəstəkarlar, musiqiçilər, özlərində indi ilə gələcəyin enerjisini daşıyan siyasi liderlər, dövlət xadimləridir.

Onlar Azərbaycan ziyalılarıdırlar ki, xalqı həm Türk dünyasında, həm də bütün dünyada layiqincə təmsil edirlər! Onlar "Azərbaycan" adlı müqəddəs mədəniyyət məkanının "sönməyən ocaqlarıdır"!

Kimlərdir? Tariximizə baxın – hər zirvədə bir "yanar ocaq", "sönməyən tonqal" görəcəksiniz! Bax, onlar Oğuz xanın, Tomrisin, Nizaminin, Nəsiminin, Füzulinin, Bəhmənyarın, Tusinin, Vaqifin, Rəsulzadənin, Cavidin, Zərdabinin, Nərimanovun, Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Tofiq Quliyevin, Sabirin, Vahabzadənin, Heydər Hüseynovun, Səməd Vurğunun, Lütfizadənin və adlarını saymaqla bitməyən minlərlə ruh, enerji və mənəviyyat sahiblərinin, müqəddəs şəhidlərimizin indi də yolumuza işıq saçan kimlikləridir!

Bir xalq olaraq yaşamaq istəyiriksə, bu şəxsiyyətləri yalnız yad etməməli, təkrar-təkrar öyrənməli, təşviq etməli, onları gənclərə nümunə kimi göstərməliyik. Bu yolda elmi araşdırmalar, müxtəlif yubileylər və başqa təşviq xarakterli tədbirlər arxivacibdir! Ulu öndər Heydər Əliyev fəaliyyəti boyu məsələnin bu tərəfini daim aktuallaşdırmış və praktiki reallaşdırmışdır! Heydər Əliyevin keçirdiyi yubileylər, təşkil etdiyi tədbirlər bu anlamda strateji xarakterli olmuşdur! Tarix göstərmişdir ki, Heydər Əliyev bununla həm Azərbaycanı mədəniyyət və mənəviyyat məkanı kimi qorumuşdur, həm də yeni inkişafı motive etmişdir!

AMEA-nın vurğuladığımız məsələni mühüm elmi işlərdən biri kimi qarşıya qoyması həmin səbəblərdən çox vacib strateji məqamdır! Yaradıcılıq və təşkilatçılıq təşəbbüskarlığının əhəmiyyəti buradan qaynaqlanır! Xalq, dövlət, millət və elm qarşısında məsuliyyət və vicdan hissi buradan güc alır!

Tanınmış və görkəmli insanlarımızın yaradıcılıqlarının araşdırılması ilə onlarla bağlı təşviqi xarakterli tədbirlərin keçirilməsinin vacib elmi vəzifə olaraq müəyyən edilməsi həm ortaq yaradıcılıq sinerjisini stimullaşdırır, həm də sırf elmi xarakterli araşdırmaların dövlətçilik maraqlarına uyğun aparılmasına güc verir.

Böyük yaradıcı insanlar özlərində həm birləşdirici, həm də aydınladırıcı keyfiyyətlər daşıyırlar. Bu mənada onların yaradıcılığı bir nümunə və mayakdır! Bu işığın və nurun şəfəqlərində Azərbaycan alimləri ənənə ilə müasirliyin vəhdətində tədqiqatlar apara bilərlər! Həmin fəaliyyətin konkret elmi təşkili aspekti isə fənlərarası kontekstdə araşdırmalar nəticəsində aydınlaşır və konkret məzmun alır. Bu proses gedir!

Əlbəttə, AMEA-nın bir baş elmi təşkilat kimi fəaliyyətini tam əhatə etmək üçün geniş araşdırma gərəkdir. Lakin bu qısa təhlil də göstərir ki, AMEA ölkə rəhbərinin elm camiyəsinin qarşısına qoyduğu vəzifələri sırf dövlətçilik mövqeyindən Azərbaycanın tərəqqisi naminə həyata keçirməkdə israrlıdır. Bunun üçün müasir elmi yanaşmalardan və idarəetmə mexanizmlərindən, struktur islahatlarından fəal istifadə etməkdədir! Ümid edirik ki, bu yolda yeni uğurlar qazanacaqdır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Lavrovun "İzvestiya" manifesti

(əvvəli 1-ci səhifədə)

Lavrovun müsahibəsində bildirdikləri isə onu deməyə əsas verir ki, Ermənistan rəhbərliyi Qərbdəki tərəfdaşlarının köməyi ilə tamam fərqli ssenari seçməyə üstünlük verib. Rusiyalı nazir müsahibəsində sözügedən ssenarini rəsmi İrəvanın, dəqiq desək, baş nazir Nikol Paşinyanın kompromissizliyi kimi dəyərləndirib. Diqqət çəkən məqam onun mövzunu Ermənistanın bilərəkdən Rusiya ilə münasibətləri korlamağa çalışması məntiqi ilə əsaslandırmasıdır. Mövcud arqumentasiya heç vaxt indiki qədər yüksək səviyyədə səslənməmişdi.

Bəli, Lavrov tam açıq şəkildə bildirir ki, Ermənistanla Rusiya arasında münasibətlərdəki vəziyyət nikbinlik yaratmır. "Ermənistan rəhbərliyi, açığını desəm, son üç-üç il yarımın tarixini təhrif edərək, uydurma bəhanələrlə, bilərəkdən işi Rusiya ilə münasibətləri pozmağa aparır", – deyən Rusiya XİN başçısı fikrinin təsdiqi üçün iki məqamın üzərində dayanır. Bunlardan birincisi Ermənistanda – Gümrüdə 102-ci rus hərbi bazası ətrafındakı məsələdirsə, ikincisi İrəvanın Kremlin hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə münasibətləridir. Paşinyan münasibətlərin dondurulduğunu bəyan edib. Dünən Ermənistan parlamentinin spikeri Alen Simonyan da eyni fikri, bir qədər izahlı şəkildə dilə gətirib...

Lavrov vurğulayıb ki, Ermənistanın anti-Rusiya kursu Gümrüdəki 102-ci hərbi bazada xidmət edən rus hərbçilərinə, sərhədçilərinə, eləcə də, bütövlükdə, KTMT-yə böhtan atmaqda özünü göstərir: "İrəvanda xatırlamırlar ki, məhz KTMT çətin vəziyyətlərdə Ermənistanın maraqlarını dəfələrlə müdafiə edib və 2021-ci ildə Azərbaycanla münasibətlərində gərginliyi azaltmaq üçün bu ölkəyə öz sülhməramlı missiyasını göndərməyə hazır olub".

Rusiyalı nazir haqqında söz açdığı missiyanın mandatının 2021-ci ilin payızında KTMT-nin XİN başçılarının İrəvanda keçirilmiş görüşündə tam razılaşdırıldığını, lakin sonra N.Paşinyanın Aİ-nin missiyasını Ermənistana çağırmağa üstünlük verdiyini xatırladıb. Nəticə isə məlumdur. Sayı ikiqat artırılmış, Lavrovun da vurğuladığı kimi, tərkibində Norveç, Kanada və ABŞ-dan olan hərbçilərin yer aldıqları struktur NATO missiyasına çevrilib.

S.Lavrov müsahibəsində Rusiya-Ermənistan münasibətlərindəki gərginliyin digər fazalarına da diqqət yetirib. Maraqlıdır ki, o, tarixə ekskurs edib və bildirib ki, müxalifətdə olarkən və yaratdığı hərəkata rəhbərlik edəndə N.Paşinyanın başlıca şüarı "Çıxış" idi. Yəni, İrəvanın KTMT-dən və Avrasiya İqtisadi İttifaqından uzaqlaşması. Rusiya XİN rəhbərinin dediklərindən belə qənaət formalaşır ki, Nikol vaxtilə şüar şəklində irəli sürdüklərini hazırda tam formada gerçəkləşdirməklə məşğuldur.

Lavrov, faktiki olaraq, 2018-ci ildən başlayaraq Rusiya rəhbərliyinin sözügedən uzaqlaşmanın yaşanmaması üçün çox tədbirlər gördüyünü, təmaslar reallaşdırdığını sadalayır. Lakin fəaliyyətin faydası olmayıb və hazırkı situasiya formalaşıb. Yəni, Paşinyan Rusiyanın, belə demək mümkünsə, erməni sevgisinə qarşılıq verməyib. Həmçinin Aİ nəinki Ermənistanı, elə Azərbaycanı da öz cərgəsinə daxil etmək istəyib. Erməni baş nazir Bakı ilə sülh danışıqları müstəvisində Qərb platformasına işləmək ideyasının əsas dəstəkçisinə çevrilib. Amma nəticə etibarilə onun ölkəsi uduzub. Necə uduzub? Lavrovun fikrincə, Qarabağ Azərbaycana güzəştə getməklə...

Rusiya XİN rəhbərinin müsahibəsinin tarixə ekskurs hissəsindəki az öncə vurğuladığımız məqama əvvəllər də rast gəlinib. Həm Lavrov, həm də Prezident Vladimir Putin Qarabağın Ermənistanın nəzarətindən çıxmasının səbəbi kimi İrəvanın Qərbə üz tutması amilini qabardıblar. Rusiya XİN rəhbəri eyni məntiqi bir daha ortaya atır. O, əslində, demək istəyir ki, Ermənistanın Qərb platformasına can atması ölkə üçün əhəmiyyət daşıyan məsələlərdə uğursuzluq formalaşdırıb. Yəni, subliminal mesaj budur ki, əgər İrəvan Moskva müstəvisini əsas götürsə idi, indi üzləşdiyi acınacaqlı durum yaşanmayacaqdı.

Lavrovun sözlərindən bu nəticə də hasil olur ki, Paşinyan bir yandan Rusiyadan Qarabağın statusunun həllini xahiş etdiyi halda, digər tərəfdən Moskvadan xəbərsiz bölgənin Azərbaycana məxsusluğunu tanımaqla səhvə yol verib. Rusiyanın baş diplomatı, həmçinin, ölkəsinin həmin vaxt status məsələsi ilə məşğul olduğunu da diqqətə çatdırıb. Deməli, Paşinyanın Qərbə üz tutması və Qarabağın Azərbaycan ərazisi olması ilə razılaşması onun səbrsiz davranışı və Moskvanın görəcəyi tədbirləri gözləməməsi imiş.

Bəli, Rusiyanın nəzərində Qarabağı Azərbaycana güzəştə gedən, daha doğrusu, İrəvanı güzəştə getməyə razı salan Qərb platformasıdır. Heç şübhəsiz, Nikol da deyə bilər ki, Moskvadan heç bir ümid görmədiyi üçün başqa danışıq müstəvisini seçib. Yəni, belə qənaətə gəlib ki, Rusiya Qarabağ məsələsində və ümumən Ermənistanın təhlükəsizliyinin təminatı ilə bağlı potensialı tükənmiş tərəfdir. Yeri gəlmişkən, rəsmi İrəvan sonuncu vurğuladığımız məqamı geniş siyasi ritorika halına gətirib.

Onu da bildirək ki, rəsmi İrəvan erməni avantürizminin davamı xüsusunda təminat axtarışındadır. Paşinyan hesab edir ki, Moskvanın təminatçı ampluasında olması mümkünsüzdür. Lavrov isə Nikolun hələ hakimiyyətə gəlməzdən əvvəl anti-Rusiya xəttindəki məqamları qabardırsa, bu, həm də o deməkdir ki, Moskva nə etsə də, Paşinyan yolundan dönməyəcəkdi, Kremlin orbitindən çıxmaq üçün bəhanə axtaracaqdı. Deməli, Rusiya ötən dörd-beş il ərzində mənasız yerə vaxt itirib. Suallar yaranır: Moskva nəyə görə İrəvana, loru dildə desək, sevgisini izhar etməkdə israrlı olub? Müsbət nəticənin mümkünsüzlüyünü görmürdümü? Kremldə anlamırdılar ki, Paşinyan onu hakimiyyətə gətirənlərin havasına qol qaldıracaq? Yəni, dərk etmirdilərmi ki, Nikolun Ermənistanın əvvəlki rəhbərliyi kimi Kremlə təzim yolu tutması müşkküldür?

Lavrovun müsahibəsində bildirdiklərinə bir qədər fərqli rakusdan yanaşaq. Əslində, müəyyən qədər gülməli durum yaranır. Belə düşünülə bilər ki, Paşinyan Rusiya ilə oyun oynayırmış. Yəni, bir tərəfdən Moskvadan xahiş edirmiş ki, Qarabağın statusunu həll etsin, eyni zamanda, başqa müstəvi axtarırmış. Daha dəqiq desək, onsuz da əvvəldən məlum olan müstəvini işə salmağa çalışırmış. Nəhayət, 2022-ci ilin Praqa Sammiti zamanı istəyinə çatıb. Ancaq demək olarmı ki, o, Rusiyadan tamamilə qurtulmaq üçün Qarabağın əldən çıxması ilə razılaşmışdı? Əlbəttə ki, yox!

Nikol, sadəcə, erməni avantürasını başqa platformaya daşımaq istəyib. Axı, rəsmi İrəvan Brüssel formatı çərçivəsində, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanımasına rəğmən, bölgədəki separatçı qurumu saxlayırdı. Qeyri-qanuni erməni hərbçilərini ərazidən çıxarmaq istəmirdi, üstəlik, Qarabağ ermənilərini üçün beynəlxalq təminatlar məsələsini qabardırdı. Təbii ki, Paşinyanın arxalandığı Qərb isə Qarabağdakı erməni avantürizmini qorumaq iqtidarında olmadı.



Rusiyanı haqlı edən cəhət də elə budur. Yəni, Lavrov, əslində, deyir ki, Nikol və komandası Qərbin Qarabağla bağlı gücsüzlüyünü zamanında görməli və nəzərə almalı idi. Deməli, sıravi ermənilər Qarabağı tərk etməyə başlayanda, Paşinyan Lavrovun təbirincə desək, Putinə "Vladimir Vladimiroviç, siz niyə Qarabağ xalqını öz taleyinə buraxdınız?" şəklində müraciət ünvanlamalı deyildi. Axı özü yıxılan ağlamaz. Amma, gərək Rusiya da ağlamasın. Çünki Ermənistan məsələsində yıxılan Rusiya da odur.

S.Lavrov müsahibəsində dolayısı ilə Ermənistanın yenə yıxılmağa doğru getdiyinin anonsunu verir. Deyir ki, müxtəlif görüşlərdə Paşinyanla da əlaqə saxlayıb: "Mənə elə gəlirdi ki, o, Rusiya Federasiyası ilə müttəfiqlik münasibətlərini davam etdirməyin, KTMT, Avrasiya İqtisadi İttifaqı çərçivəsində qarşılıqlı fəaliyyətin hələ də Ermənistana faydalı olduğunu başa düşür. Amma indi həm Ermənistanın Təhlükəsizlik Şurasında, həm də parlamentdə birbaşa deyirlər ki, biz Avropa İttifaqına daha çox güvənməliyik. KTMT, guya, respublika qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmir. Yəni, mahiyyət etibarilə dairə bağlanır və Ermənistan rəhbərliyi Paşinyanın "Çıxış" hərəkatını (KTMT-dən və Aİİ-dən çıxmaq – red.) formalaşdırdığı fikirlərə oxşar fikirlər söyləməyə başlayır. Əminəm ki, bu, həm ermənilərlə tarixi dostluq əlaqələri, həm Rusiyada yaşayan nəhəng erməni diasporu baxımından, həm də erməni xalqının maraqlarına və bizim maraqlarımıza cavab vermir. İndi Ermənistan rəhbərliyini Qərbə çəkənlərin məqsədi sadədir: Cənubi Qafqazda sabitliyin qarşısını almaq, bu regionu öz dominantlıq zonasına çevirməyə çalışmaq. Necə ki, Mərkəzi Asiyada və ümumi qitəmizin bir çox başqa hissələrində Qərb bunu etməyə çalışır".

Sonda bir məqamı da vurğulayaq ki, əslində, Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun "İzvestiya" qəzetinə müsahibəsində bildirdiklərində elə bir fövqəladəlik yoxdur. XİN başçısı hər kəsə bəlli olan həqiqətləri dilə gətirir. Başlıca məsələ onun şəxsində Rusiya dövlətinin həmin həqiqətlərin tirajlanmasında, siyasi ritorika predmetinə çevrilməsində daha çox maraqlı olmasıdır. İlk cümləmizdə dediyimiz kimi, Rusiya rəsmilərinin Ermənistana münasibətdəki fikirlərini tündləşdirmələri də elə budur.

Əvvəllər rəsmi Moskvanın təmsilçiləri Rusiya – Ermənistan münasibətlərinin ayrı-ayrı fraqmentlərinə diqqət yetirəndə ehtiyatlı davranmağa üstünlük verir, bəzi məsələlərin üzərindən keçirdilər. Çox güman ki, İrəvanın tutduğu yoldan geri dönəcəyinə ümid bəsləyirdilər. Görünür, hazırda ümidləri ölüb. Hərçənd Kremlin elə indinin özündə də Ermənistana yenidən qucaq açmaq istəmədiyini söyləmək doğru sayılmaz. Yəni, Rusiyanın erməni sevdası asanlıqla vaz keçilən şey deyil.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Tarix təkrarlansa da, təkəri geriyə fırlanmır

## Qərb "parçala və hökm sür" siyasətinə yeni nəfəs verməyə çalışır

**Tarixin təkrarlanmasına dair xeyli canlı nümunə və yaşanmış reallıqlar silsiləsi mövcuddur. Bəzən fərdlər, ayrı–ayrı dövlətlər, hətta birliklər eyni səhvləri iyirmi, əlli, hətta yüz il sonra təkrarlayıblar. Haqqın, ədalətin əleyhinə getməyə, zamanın çarxını geri döndərməyi düşünən ağılsızlar keçmişdə olanlardan ibrət götürmək əvəzinə, olanları yenidən təkrarlamağa, bir növ, axar suya ikinci dəfə girməyə faydasız cəhdlər göstərirlər. Əvvəlcədən son aqibətlərini bilsələr belə. Tarix geri dönmür, yeni forma və məzmunda təkrarlanır.**



* * *

Qərb Ermənistan vasitəsilə Cənubi Qafqazda möhkəmlənməyə can atır. Bu düşərgə öz məqsədinə çatmaq üçün Ermənistan üzərindən çeşidli siyasi gedişlər edir, birgə layihələri həyata keçirməyə çalışır. Aprelin 5-də Brüsseldə baş tutacaq Avropa İttifaqı–Ermənistan–-ABŞ birgə konfransını da məkrli məqsədlərinə çatmaq üçün düşünülən ssenari kimi qiymətləndirmək lazımdır. ABŞ Dövlət katibi Antoni Blinken, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və Ermənistan baş naziri Nikol Paşinyanın Brüssel görüşündə müzakirəyə çıxarılacaq mövzuların arasında hərbi xarakterli əməkdaşlığın yer alması xüsusi maraq doğurur. Bu, həm də onu göstərir ki, Azərbaycanın bugünədək Aİ-nin və Ağ evin Cənubi Qafqaz planlarına yanaşmada tutduğu prinsipial mövqe tamamilə düzgündür.

5 aprel görüşü ilə bağlı mediaya açıqlama verən ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Müller bildirib ki, Brüssel görüşündə "ticarət tərəfdaşlarını şaxələndirməyə çalışan Ermənistanın iqtisadi dayanıqlılığının təmin olunmasına və humanitar ehtiyaclarının ödənilməsinə diqqət yetiriləcək". Ağ ev rəsmisinin bu açıqlamasından sonra ortaya sual çıxır: Millerdən fərqli olaraq, rəsmi İrəvan ölkənin ticarət tərəfdaşlarının sayını artırmaqdan deyil, özünün xarici siyasətinin və təhlükəsizliyinin şaxələndirilməsi zərurətindən bəhs edir. Bunu necə başa düşək? Ermənistan beynəlxalq hüququn subyekti kimi mövcudluğunu qoruyub saxlaya bilməsi üçün "xarici siyasətin və təhlükəsizliyin şaxələndirilməsi" bəhanəsi ilə özünü fərqli qütblərin menyusuna təqdim etməyi bacarır. Əks–təqdirdə Ermənistan hansı ticarət potensialına malikdir ki, üstəlik, onu şaxələndirməyə də ehtiyac hiss eləsin?

M.Miller açıqlamasında onu da bəyan edib ki, Brüssel görüşü çərçivəsində aparılacaq müzakirələr zamanı Azərbaycanla bağlı məsələlər də müzakirə oluna bilər, amma bu, üçtərəfli görüşün hədəfi deyil. Əgər konfransın işgüzar planı onun dediyi kimidirsə, onda ortaya ikinci sual çıxır: Ermənistan mediası və siyasi dairələri "təhlükəsizliyə təminat"la bağlı iddiaları niyə tirajlayırlar? ABŞ və Aİ-nin Ermənistanın "təhlükəsizliyinə təminat verən", əslində, hərbi pakta bərabər tutulacaq sənədi imzalamağa hazırlaşdıqları məlumdur. Nədənsə Dövlət Departamentinin rəsmisi bu məsələyə aydınlıq gətirməyib. O, bunun əvəzində media mənsublarına "narahatlığa heç bir əsas yoxdur" deyib. Bunu deyərkən M.Millerin nə dərəcədə səmimi olduğunu müəyyənləşdirmək çətindir.

* * *

Qərbin Cənubi Qafqazla bağlı siyasətinin pərdə arxasında görünən odur ki, Vaşinqton və Brüsselin timsalında anti–Azərbaycan düşərgəsi bölgəni növbəti və daha qanlı müharibəyə sürükləməyi hədəfləyir. Elə 5 aprel görüşünün yekununda imzalanacağı gözlənilən pakt birbaşa regionda sabitliyin və sülhün bərqərar olmasının qaşısını almağa xidmət edəcək. "Üçlər"in belə bir taktikanı seçməsinin əsas səbəbi kimi ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanın Qərbin təsir dairəsindən uzaqlaşması, müstəqil xarici siyasət yeritməsini göstərmək olar. Məlum konfransdan sonra Ermənistanda revanşist meyillərin güclənəcəyi, real hərbi qarşıdurma təhlükəsinin yaranacağı təqdirdə, baş verənlərin bütün məsuliyyəti həm Aİ-nin, həm də ABŞ-ın boynunda qalacaq.

Bu məqamda tarixə qısa ekskurs yerinə düşər. Deyəsən, ABŞ Türkiyə və Qafqazla bağlı 106 il əvvəlki planını tarixin toz basmış rəfindən götürüb onu bir daha həyata keçirmək barədə düşünür. Söhbət 1918-ci ildə ortaya atılmış "Vilson planı"ndan gedir. Bəs, Vilsonun planı nədən ibarət idi? Plan 1918-ci il yanvarın 8-də ABŞ-ın 28-ci prezidenti V.Vilsonun təklifi ilə Konqres tərəfindən qəbul edilən 14 maddəlik sənəddə öz əksini tapıb. XX əsrin əvvəllərində beynəlxalq miqyasda söz sahibinə çevrilən ABŞ yeni dünya düzənini formalaşdırmaq məqsədilə özəl prinsiplərini ortaya qoymaq istəyində idi. Bu yolda onun qarşısını kəsən əsas maneə Türkiyə sayılırdı. Osmanlı imperiyasının idarəçiliyinin davam etdiyi Türkiyə Vaşinqtona sərbəst hərəkət etməyə imkan vermirdi. Mövcud geosiyasi panoramı dəyişməyin ən yaxşı üsulu isə "parçala – hökm sür!" siyasəti idi. Vudro Vilsonun 14 maddəlik prinsipləri məhz buna hesablanmışdı. "Sevr" müqaviləsindən sonra Osmanlı torpaqlarının "müttəfiqlər" arasında bölünməsi planını Vilson özü hazırlamışdı. Bu plana görə Türkiyənin Ərzurum, Trabzon, Van və Bitlis bölgələri Ermənistana verilməli idi. Trabzonun şərq hissəsi isə Gürcüstan və Ermənistan arasında bölünür və beləliklə, ermənilər Qara dənizə çıxış imkanı qazanırdılar. Tarixdən o da məlumdur ki, 1918-ci ildə Paris Sülh Konfransında Əlimərdan bəy Topçubaşovun Azərbaycan Xalq Cümhuriyyətini tanımaq təklifini rədd edən ABŞ prezidenti Vudro Vilson özünün "yeni dünya xəritəsi"nə Azərbaycanı daxil etməmişdi. Amma, necə deyərlər, sən saydığını say, gör fələk nə sayır. 1920-ci il martın 18-də ingilislər İstanbulu işğal edəndə "Serv" müqaviləsi ləğv olundu. Türkiyədə Mustafa Kamal Atatürkün başlatdığı Qurtuluş savaşı Vudro Vilsonun planını tarixin arxivinə göndərdi. 1923-cü il iyulun 24-də isə Türkiyə ilə Qərb dövlətləri arasında "Lozanna" sülh müqaviləsi imzalandı.

* * *

"Dənizdən–dənizə böyük Ermənistan" xəyalları ilə yaşayan ermənilər bu gün də "Vilson planı"nın xiffətini çəkirlər. Hayların bu "nostaljisindən" ABŞ-da və Avropa İttifaqında yaxşı xəbərdardırlar. Əslində, Avropa İttifaqı–Ermənistan–ABŞ müştərək konfransını İrəvan üçün cəlbedici edən "tarixi məqam" məhz budur.

Amma "üçlər" bir məsələni unudur ki, Azərbaycanın iştirakı olmadan aparılan belə müzakirələr Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasını yaratmağa deyil, tamamilə əksinə, indi mövcud olan kövrək sabitliyi pozmağa xidmət edir. Beləliklə, ABŞ, Fransa və ermənipərəst digər Qərb ölkələrinin məqsədi bölgədə qlobal münaqişə ocağını körükləməkdir. Bakı yaxşı bilir ki, Ermənistan onların hesabına, faktiki olaraq, heç bir vəsait ödəmədən hərbi potensialını genişləndirməklə məşğuldur. Amma Azərbaycan daha otuz il əvvəlki deyil. Tarixdən dərs almayan "üçlər"dən fərqli olaraq, biz işğal dövründə baş verənləri yaddaşımıza yazmışıq. Nə torpaqlarımız işğal altında olarkən ABŞ Konqresinin Azərbaycana qarşı tətbiq etdiyi 907-ci düzəlişi, nə də BMT Təhlükəsizlik Şurasının qəsbkar Ermənistana qarşı qəbul etdiyi 4 qətnaməsinin icra olunmamasını unudula bilərik. Vaşinqtonun və onun avropalı müttəfiqlərinin bu gün də davam etdirdikləri beynəlxalq hüquqa zidd davranışları, Ermənistanı silahlandırmaq siyasəti heç bir nəticə verməyəcək.

Aprelin 5-də Belçika paytaxtında, çox güman ki, bədnam "Vilson planı" yeni "aranjimanda" nəzərdən keçiriləcək. Doğrudanmı, ABŞ və Qərb müsəlman dünyasının mərkəzində, bütövlükdə isə iki qitənin strateji əhəmiyyətli kəsişmə nöqtəsində "böyük Ermənsitan" adlı psevdodövlət yaratmaq kimi 106 il əvvəlki iddiadan əl çəkməyiblər? İntəhası, onların unutduqları bir vacib məsələ var. Coğrafiya eyni olsa da, indi zaman tam başqadır. Tarix isə zamanın təkərinə çomaq salanları, onu əks istiqamətə yönəltməyə çalışanları arxiv müqəvvalarına döndərdiyini dəfələrlə sübuta yetirib...

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**

Artıq bir neçə ildir ki, Avropa İttifaqının, bütövlükdə, Qərbin Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmaq cəhdlərini müşahidə edirik. Xüsusilə, Rusiya–Ukrayna hərbi münaqişəsi fonunda bu cəhdlərin intensivləşdiyini görürük. Aydındır ki, Avropa İttifaqı ilə yaxınlaşıb-yaxınlaşmamaq Ermənistan hakimiyyətinin xarici siyasət seçimidir. Azərbaycanın da Avropa İttifaqı ilə müəyyən layihələri mövcuddur. Fəqət Ermənistanın nümunəsində əməkdaşlığın mahiyyəti fərqlidir.

Ötən əsrin 90-cı illərində Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qoşulmasını, Rusiya ilə əlaqələrinin inkişafını Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirmək məqsədilə alətə çevirmişdi. İndi də oxşar vəziyyətin şahidi oluruq. Əgər Ermənistan Avropa İttifaqı və Qərblə münasibətlərinin inkişafını daxili rifaha yönəldirsə, burada problem yoxdur. Amma İrəvanın məqsədi bu mərkəzlərlə əlaqələri daha da intensivləşdirərək Azərbaycana qarşı iddialar qaldırmaq və həmin əməkdaşlıqdan bizə qarşı alət kimi istifadə etməkdir. Bu isə qəbuledilməzdir. Təəssüf ki, Avropa İttifaqının Ermənistandakı missiyasının davranışları, "binokl diplomatiyası" və bir sıra digər elementlər onu göstərir ki, Ermənistanın niyyəti bölgədə gərginlik yaratmaqdır. Rəsmi İrəvan məhz bunu alətə çevirməyə çalışır.

Nümunə üçün qeyd edim ki, Gürcüstan Avropa İttifaqına namizəd ölkə statusu alıb. Azərbaycan Prezidenti İlham Əliyev bunu müsbət qarşılayıb. Bu, Tbilisinin öz siyasətidir. Əslində, Gürcüstanla olan iqtisadi, enerji və nəqliyyat layihələrimiz elə birbaşa Avropa İttifaqı ilə bağlıdır. Yəni, biz buna etiraz etmirik. Hətta, deyərdim ki, Gürcüstanın Avropa İttifaqı ilə yaxınlaşması bizim də maraqlarımıza uyğundur. Amma Ermənistanın Avropa İttifaqı və Qərb institutları ilə münasibətləri intensivləşdirməsi, təkrar edirəm, bir məqsədə xidmət edir – bu əlaqələrdən Azərbaycana qarşı alət kimi istifadə etməyə!

# "Pandora qutusu" açılacaqmı?

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, separatçılar bundan əvvəl də ara-sıra baş qaldırmağa çalışırdılar. Onlar fevral ayında İrəvanda yerləşən və işğalçı müharibədə ölənlərin dəfn edildikləri "Yerablur" qəbiristanlığına gələrək, Qarabağda separatizm hərəkatına başlanmaqlarının 35 illiyini qeyd etmişdilər. Yeri gəlmişkən, Şahramanyanın köməkçisi xunta rejiminin iş prinsiplərinə sadiq qalaraq orada olan jurnalistlərə qarşı kobudluq etmişdi. İctimai qınağın böyüdüyünü görən separatçı rejim rəhbəri iş işdən keçəndən sonra buna görə üzr istəməli olmuşdu.

Martın 8-də isə Ermənistanın "Joxovurd" qəzeti S.Şahramanyanın xarici ölkələrin Ermənistandakı səfirləri ilə görüşlər keçirdiyinə dair məlumat yaymışdı. Qəzet qeyd etmişdi ki, o, son aylarda təkcə ölkənin daxili siyasi qüvvələri və ayrı-ayrı siyasətçilərlə yox, həm də Ermənistanda akkreditasiya olunmuş bəzi ölkələrin diplomatları ilə fəal əlaqə saxlayır. "Şahramanyan bu yaxınlarda bir neçə ölkənin, o cümlədən Fransa, ABŞ və Rusiyanın Ermənistandakı səfirləri ilə görüşüb. Müzakirə olunan əsas məsələ ermənilərin Qarabağa qayıtması olub", – deyə məlumatda bildirilmişdi.

Separatçıların son addımlarından biri də ötən həftə İrəvanda mitinq keçirmələri olub.

Öz növbəsində Ermənistan hökuməti separatçıların İrəvanda hansısa "mühacirət hökuməti" yaratmasına, onların bəyanatlar verməsinə, ictimai tədbirlər keçirməsinə, müxtəlif məkanlarda peyda olmalarına mənfi münasibət bəsləyir. Hökumət başçısı, prezident və parlamentin sədri də daxil olmaqla yüksək çinli məmurlar bununla bağlı fikirlərini dəfələrlə dilə gətiriblər. Onlar dərk edirlər ki, "miatsum" planı fiaskoya uğrayıb və necə deyərlər, separatizmin kitabı birdəfəlik bağlanıb. O "kitabı" yenidən ələ götürmək, hətta vərəqləməyə çalışmaq Ermənistan üçün "Pandora qutusu"nu açmağa bərabər tutulur. "Pandora qutusu" barədə qədim yunan əsatirinə görə, qutu açılar-açılmaz içindəki xəstəliklər, qəm-qüssə, ağrı-acı, bir sözlə bütün bədbəxtliklər uçub dünyanı bürüyüb. İndi rəsmi İrəvan da məsələyə bu cür yanaşır. Düşünürlər ki, əgər onlar separatizmin baş qaldırmasına imkan versələr, ölkə Azərbaycanın qəzəbinə tuş gələrək yeni bəlalara düçar olar. Çünki Azərbaycan bununla bağlı qarşı tərəfə dəfələrlə aydın ismarıclar verib.

Ermənistan baş naziri sonuncu dəfə bu istiqamətdə fikirlərini martın 28-də açıqlayıb. N.Paşinyan hökumətin həmin



gün keçirilən iclasında bildirib ki, Qarabağı tərk edən bəzi dairələr və insanlar bilərəkdən, yaxud bilməyərəkdən Ermənistanın milli təhlükəsizliyinə təhdid yaradan hərəkətlər edir, addımlar atırlar. Baş nazir separatçıları nəzərdə tutaraq deyib ki, onların mühacirətdə hansısa hökumətinin olması barədə bəyanatları həqiqəti əks etdirmir: "Mən açıq şəkildə bildirmək istəyirəm ki, Ermənistanda bir hökumət var və həmin hökumət hazırda bu otaqda iclas keçirir. Bu mesajı hamımız çox aydın şəkildə dərk etməliyik. Lazım gələrsə, müvafiq addımlar atılmalı, müvafiq tədbirlər görülməlidir ki, müəyyən xarici qüvvələr bundan Ermənistanın təhlükəsizliyinə təhdid yaratmaq üçün istifadə etməsinlər. Mən açıq şəkildə bildirirəm ki, bizim ölkəmizdə Ermənistan hökumətindən başqa heç bir hakimiyyət yoxdur və ola bilməz".

Paşinyan qeyd edib ki, əgər Ermənistanda kimsə özünü mühacirətdə olan hökumət kimi tanıyırsa, bu, milli təhlükəsizlik problemidir: "Ümid edirəm ki, bu problemin olması bizim hakimiyyətin öz işində səhvə yol verdiyi anlamına gəlməyəcək. Bu mesajları verənlər, bu məsuliyyətlə danışmaq imkanı əldə etdilər və bu fürsətlə nə etdiklərini gördük".

"İravunk" qəzeti isə yazır ki, Nikol son günlərdə fəallaşan separatçılarla bağlı sərt göstəriş verib. Nəşr qeyd edib ki, Qarabağ erməniləri və ya separatçıların ötən həftə İrəvanda keçirdikləri mitinq Paşinyanı qəzəbləndirib: "Baş nazir bundan sonra müavini Tiqran Xaçatryanla ciddi söhbət edib, ona nəyin bahasına olur-olsun, Qarabağ ermənilərinin ağızlarını yummağı əmr edib. Paşinyan müavininə göstəriş verib ki, Qarabağ erməniləri ilə məcburi görüşlər keçirsin, onları sakitləşdirsin".

Qəzet onu da bildirib ki, Paşinyan keçmiş separatçı rejimi "mühacirətdəki hökumət" adlandıran S.Şahramanyanın da ünvanına sərt sözlər deyib. Belə bir "hökuməti" tanımadığını deyən baş nazir separatçını Ermənistan dövlətinə və hakimiyyətinə sayğısızlıqda ittiham edib.

Mövzu üzrə söhbətləşdiyimiz **politoloq İlyas Hüseynov** bildirdi ki, separatçı rejimin sonuncu rəhbərinin İrəvan küçələrində peyda olması, müxtəlif görüşlər keçirməsi, bəyanatlar verməsi bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına zərbə vurur. Onun sözlərinə görə, Ermənistanda elə insanlar var ki, Şahramanyanın fikirlərinə hakim kəsilir. Bu isə erməni cəmiyyətində revanşizmi gücləndirir: "Lakin Azərbaycan ərazisində separatizmin kökü birdəfəlik kəsilib və onun yenidən baş qaldırması mümkün deyil. Heç qondarma rejimin mövcud olduğu zamanlarda belə onu Ermənistan da daxil olmaqla BMT-nin üzvü olan heç bir dövlət tanımayıb".

İ.Hüseynov hesab edir ki, Ermənistan siyasi isteblişmenti Şahramanyanın və digər separatçıların cavablarını verməli və onun fəaliyyətini məhdudlaşdırmalıdır: "Biz Ermənistan polisinin nə qədər qəddar, amansız və nümayişləri yatırarkən repressiv metodlardan necə istifadə edən qüvvə olduğunu yaxşı bilirik. Bu qüvvə Şahramanyan təhlükəsini çox rahatlıqla əngəlləyə bilər. Eyni zamanda, istisna olunmur ki, Şahramanyanı aktuallaşdıran, ona müəyyən vədlər verən kənar qüvvələr var. Paşinyan isə yalnız özü və hakimiyyəti üçün təhlükə yarandığını hiss etdikdə Şahramanyana cavab verir. Paşinyan martın 28-də hakimiyyətin yalnız öz əlində cəmləşdiyini və legitim hökumətin iclas keçirilən otaqda əyləşdiyini bildirdi. Onun üçün önəmli olan hakimiyyətdir. Ancaq Ermənistan daxilində Şahramanyana meydan vermək gələcəkdə onun öz hakimiyyəti üçün problemlər yarada bilər. Bu baxımdan Nikol keçmiş separatçı rejim rəhbərinin fəaliyyətinin qarşısını birdəfəlik almalıdır".

Politoloq bildirdi ki, Şahramanyanın çıxdaş edilməsi, yaxud əngəllənməsi tez bir zamanda baş verməlidir: "Çünki hazırda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması və dövlətlərarası münasibətlərin qurulması, anklavlar və eksklavlar, nəqliyyat kommunikasiyalarının açılması prioritetdir. Bu istiqamətdə səy göstərməyə, fəaliyyəti əlaqələndirməyə ehtiyac duyulur. Təəssüf ki, keçmişə qayıdış və bu yolla müəyyən qazanc əldə etmək istəyən müəyyən elementlər hələ də qalmaqdadır. Buna görə də həmin elementləri prosesdən kənarlaşdırmaq hazırda əsas məqsəd olmalıdır. Ermənistan hakimiyyəti sülh əleyhinə baş qaldıran istənilən ünsürü əngəlləməyə çalışmalıdır".



Onu da qeyd edək ki, Şahramanyanın Yelisey sarayına yaxınlığı ilə seçilən "Fiqaro"da müsahibəsinin yayımlanmasını təşkil etməklə, Fransa prezidenti və hökuməti faktiki olaraq, N.Paşinyana qarşı çıxmış olub. Qəzetin müsahibəsi, yenidən bu məsələyə qayıdışı təsadüfi sayıla bilməz. Zənnimizcə, bütün bunlar ya Yelisey sarayının, yaxud da elə Makronun özünün göstərişi ilə baş verir. Görünür, Fransa hakimiyyəti Qarabağ məsələsini özünə xas formada gündəmdə saxlamağa çalışır. Bu məsələyə isə Ermənistan və Azərbaycan arasında gərginliyin qorunub saxlanılması üçün vasitə kimi yanaşır. İstənilən halda rəsmi Paris Şahramanyana "Fiqaro"da tribuna verməklə Paşinyanın siyasətinə zərbə vurmağa çalışdı. Buna Paris və İrəvan arasında gizli gərginliyin yaranmasının göstəricisi kimi də yanaşmaq olar. Güman etmək olar ki, Paşinyanın 4 kəndin Azərbaycana qaytarılması ilə bağlı açıqlaması Parisin xoşuna gəlməyib. Kəndlərin qaytarılması Fransanın planlarına daxil olmaya bilər.

Birmənalı şəkildə demək mümkündür ki, separatçıların fəaliyyətlərini davam etdirmək cəhdləri Qarabağ məsələsini, necə deyərlər, bağlamış İrəvana təzyiq xarakteri daşıyır. Pozucu prosesə rəhbərlik edənlərdən birinin keçmiş xarici işlər naziri Vardan Oksanyan olduğunu da unutmaq olmaz. Oskanyan bu yaxınlarda ABŞ və Avropa ölkələrində səfərdə olub. Görünür, Oskanyan Qərbdə özünə dəstəkçilər axtarmağa çalışır. Ən azı erməni diasporundan pul alacağına ümid edir. Əgər Paşinyan Şahramanyan, Oskanyan və bu kimi separatçı ünsürləri neytrallaşdırmasa, baş verənlər sülh prosesinə kölgə sala bilər. Sülhün əldə olunmaması Ermənistanda daxili siyasi qarşıdurmalara yol açacaq ki, bu da ilk növbədə Paşinyanın əyləşdiyi kürsünü laxlada bilər.

***Səxavət HƏMİD***
***XQ***

31 Mart Azərbaycanlıların Soyqırımı Günü

# Azərbaycan davamlı qırğınlar hədəfində

## *XX yüzillik erməni millətçilərinin xalqımıza qarşı soyqırımı və deportasiya cinayətləri əsridir*

**1918-1920-ci illərdə ermənilərin xalqımıza qarşı həyata keçirdiyi soyqırımla bağlı ən etibarlı mənbə 1918-ci ilin yayında Milli Hökumət tərəfindən yaradılan Fövqəladə Təhqiqat Komissiyasının sənədləridir.**

Təhqiqat komissiyasının sənədlərindən məlum olur ki, 1918-ci ilin Mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyiti tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər.

Sənədlərdən məlum olur ki, Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunmuşdur. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmişdir. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar.

Komissiyanın materiallarında bu vəhşiliklər barədə deyilir: "1918-ci il martın 18-də (köhnə təqvimlə-A.İ.) bir erməni zabiti, yanındakı üç erməni əsgəri ilə "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərəsində tüstü və alov göründü. Nəinki Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular". Həmin zabit "Daşnaksütyun" partiyasının görkəmli xadimi Tatevos Əmirov idi. Bu, həmin Tatevosdur ki, uzun illər ərzində tariximiz, sovet mətbuatımız onu "yenilməz inqilabçı", "xalqlar dostluğu uğrunda mətin mübariz" kimi təbliğ etmişdi.

Talançılar "Kaspi" qəzeti redaksiyasının və "Dağıstan" mehmanxanasının binalarını, "İsgəndəriyyə"ni, "İsmailiyyə"ni də yandırmışlar. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü.

Mart soyqırımında erməni hərbi hissələri ilə yanaşı, erməni ziyalıları, gəncləri də iştirak edirdilər. Təhqiqat komissiyasının materiallarında göstərilir ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdilər".

"Nikolay Buniatov" paraxodu komandirinin köməkçisi Kazım Axundov yazır: "Martın 25-dən Nikolayev küçəsindəki meyitlərin yığışdırılmasına başladıq. Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyaçısının, 11 gimnaziyaçı qızın, 1 rus qadının, 3-5 yaşlarında 3 müsəlman oğlan uşağının, 8 rus kişinin, 19 İran təbəəli müsəlman qadınının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların 6748 meyiti gətirilmişdi".

Axundov öz tanışı, texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdı. Burada, o, 3 fotoşəkil çəkmişdi. Birinci şəkildə başında güllə yarası, bədənində beş süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunmuşdur. Onun sağ sinəsi üstündə hələ sağ olan körpə uzanmışdır. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardı.

İkinci şəkildə iri mismarla divara vurulmuş 2 yaşlı uşaq təsvir edilmişdi. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə oradaca idi.

Üçüncü şəkildə 13-14 yaşlı qızın meyitidir. Biçarənin bədənindən görünür ki, onu bir dəstə kişi (əslində, bu alçaqlara "kişi" sözü yaraşmaz – A.İ.) zorlamışdır.

1918-ci ilin Mart günlərində Şamaxı şəhəri və Şamaxı qəzası dəhşətli talan və vəhşiliklərə məruz qalmışdır. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı. Burada bədnam S.Lalayevin başçılıq etdiyi əsgərlər və T.Əmirovun dəstəsi azğınlaşaraq müsəlmanları soyub-talayır və qırırdılar. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu. 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq – Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm bir qibləgah, həm də qədim abidə kimi əziz idi. Erməni quldurlar minlərlə dinc insanı qətlə yetirmişdi.

Şamaxıda böyük hörmət sahibi olan axund Cəfərquluya olmazın işgəncələr verilmişdi. Ermənilər məsciddə axundun saqqalının tüklərini yolmuş, dişlərini, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilər axunda pənah gətirmiş saysız-hesabsız qadın və uşağı da vəhşiliklə öldürmüşdülər. Axundun tamamilə yandırılmış evinin həyətində sonralar təhqiqat komissiyasının üzvləri tərəfindən çox miqdarda insan sümükləri aşkar edilmişdi. Qafqaz-İslam Ordusu 1918-ci ilin iyulunda Şamaxını ermənilərdən azad edərkən meyitlərin iri sümüklərini yığıb basdırmışdılar. Komissiya üzvləri 1918-ci ilin oktyabr və noyabrında bu barədə hazırladığı məruzədə qeyd edirdilər ki, həyətdə hələ də çürümüş meyitlərin qalıqları qalmaqdadır. Şamaxı qəzasının müsəlmanlar yaşayan təxminən 80 kəndinin taleyi də bu cür olmuşdur. Daşnakların törətdiyi vəhşiliklərin həddi-hüdudu yox idi.

1919-cu il martın 30-da "Azərbaycan" qəzetində Fövqəladə Təhqiqat Komissiyasının "Çağırış"ı dərc edilmişdir. Komissiyanın sədri Ə.Xasməmmədovun imzaladığı bu sənəddə deyilirdi: "Şamaxının yalnız xarabalıqları qalmışdır. Şəhərin müsəlman hissəsindəki bu xarabalıqlarda məscidlərin ən qədimi – 800 ildən çox tarixi olan Cümə məscidinin ancaq yanıb qaralmış minarələri görünür, şəhərin on beş minlik müsəlman əhalisindən sağ qalanlar isə bütün Zaqafqaziyaya dağılmış, əllərində qoltuq ağacı və bellərində torba qapı-qapı düşüb dilənirlər ki, acından ölməsinlər."

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, ermənilər Şamaxı şəhərində 8 min, qəzanın 53 kəndində isə 8027 azərbaycanlını qətlə yetirmişlər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi ziyan o dövrün qiymətləri ilə 339.5 milyon manat, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan orta hesabla bir milyard manatdan çox olmuşdur.

Quba qəzasında qırğınlar əvvəlcədən düşünülmüş və buna geniş hazırlıq işləri görülmüşdü. Çünki qırğına başlamaq üçün bəhanə milli münaqişə ola bilərdi. Erməni daşnak qüvvələri dünyanın hər yerinə ermənilərin, guya, müsəlmanlar tərəfindən sıxışdırıldığı barədə teleqramlar göndərirdilər. Orada yaşayan M.Kasparov, H.Hayrapetov, A.Mukanyans və A.Boqdanov tərəfindən göndərilmiş teleqramda iddia olunurdu ki, Qubada müsəlmanlar milli ədavət, milli qırğın törədir, erməni və rus kəndlərini dağıdır, kilsələrə od vurub yandırırlar.

Bakıdan böyük bir silahlı dəstə ilə Qubaya gələn Amazasp camaatı meydana yığaraq bildirdi: "Mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm. 200-dən çox türk kəndini yandırıb xaraba qoymuşam. Uzun müddət türklərlə vuruşmuşam, erməni xalqının mənafeyini müdafiə etmişəm. Buraya da ona görə gəlmişəm. Əgər müqavimət göstərsəniz, hamınızı bir nəfər kimi qıracağam".

Şahidlərdən biri yazır: "Amazasp daşnak dəstəsinə bələdçilik edən qubalı erməni Harun Hayrapetovu yanına çağırdı və ona nəsə dedi. Harun cibindən bir siyahı çıxarıb oxumağa başladı. Siyahıda Qubanın varlılarından 26 nəfərin adı var idi. Amazasp həmin adamların dalınca silahlı əsgərlərindən bir neçə nəfərini göndərdi. Silahlı əsgərlər həmin ailələrdən altı nəfərlə geri qayıdanda daşnak komandiri daha da əsəbləşdi. Gətirilənlərin 4-ü qadın, 2-si yeniyetmə idi. Amazaspın tapşırığı ilə yeniyetmələrin başlarını kəsdilər. Qadınları uşaqlarının qanını içməyə məcbur etdilər. Onlar şivən qoparıb daşnakların üstünə atılanda qarınlarını süngülərlə deşdilər. Sonra qılıncla bədənlərini tən ortadan ikiyə böldülər. Meydanda ah-nalə yüksələndə Amazasp əsgərləri cərgə ilə düzdürüb əliyalın, günahsız əhaliyə atəş açmağı onlara əmr etdi. Yüzlərlə adam qırıldı. İnanmaq olmurdu ki, insan-insana qarşı bu qədər vəhşilik törətsin".

"Mən sizin qanınızı içəcəyəm" – deyən Amazasp siyahıda adları çəkilən adamların mülklərini odlayıb külə döndərmək əmrini verdi. Bütün bu hərəkətləri ilə o, son dərəcə qəddar və qaniçən olduğunu sübuta yetirirdi.

Amazasp Bakıdan mənfur Şaumyan rejimindən belə bir tapşırıq almışdı: Quba qəzasında bütün müsəlmanları qırıb məhv etmək, onların yaşayış məntəqələrini dağıtmaq, sonra isə bu qırğını sünni və şiə məzhəbləri arasında toqquşma kimi qələmə verməklə cinayətin izini itirmək lazımdır.

Qırğının şahidlərindən olan Şahbalı oğlu xatırlayır: "Ermənilər o qədər adam qırmışdılar ki, Qubanın küçələri al qana boyanmışdı. Əllərinə keçən 2 mindən çox insanı meydana yığıb ucdantutma güllələmək istəyəndə bir nəfər onların başçısına yaxınlaşdı. Deyilənə görə, komissar idi. Bir qədər söhbət etdikdən sonra əsgərlərə təzədən əmr verildi ki, silahları aşağı salsınlar. Qadınlar və uşaqlar ağlayırdılar. Yekəpər bir erməni beş nəfərlə camaata yaxınlaşıb, cavan, gözəgəlimli qadınları seçməyə başladı. Əllidən çox qadını hara isə apardılar. Onlardan birinin qardaşı etirazını bildirəndə yerindəcə güllələdilər. Onun meyitini yerə sərib bıçaqla gözlərini çıxardılar. Əli qana batmış erməni ovcunda tutduğu gözləri camaatın üstünə tulladı. Kütlədən uğultu qopdu. Daşnaklar ermənicə söyə-söyə qabaqdakıları qundaqla döyməyə başladılar. Sonra irəli çıxmış bir yaşlı kişinin qarnını süngü ilə deşdilər. Bu, göz ilə baxılası müsibət deyildi".

Başqa bir şahid isə yazır: "Ermənilər dindarları Qubanın mərkəzinə gətirdilər. Bu, döyülən insanlar qəzanın ən hörmətli ağsaqqalları sayılırdılar. Amazasp hamının tanıdığı Quba ermənisi Harunu çağırdı. Harun azərbaycanca dedi ki, sünnilər və şiələr hərəsi bir tərəfə çəkilib üz-üzə dursunlar. Elə o cür də durdular. Aralarında 20-30 metr olardı. Sonra iki tüfəng gətirib dedilər ki, onsuz da sizin hamınızı qıracağıq. Kim sağ qalmaq istəyirsə, dediyimizə əməl etsin. Sünnilər və şiələr növbə ilə bir-birinə güllə atsın. Sağ qalanlarla işimiz olmayacaq. Birinci iki nəfəri irəli çıxarıb tüfəngləri onlara verdilər. Biri ləzgi Məhəmməd, o birisi isə şiələrin ağsaqqalı Məşədi Mirsadıq idi. Onların heç biri erməni silahını əlinə almaq istəmirdi. Qundaqla başlarını yarıb onları tüfəng götürməyə məcbur etdilər. İkisi də tüfənglərini qaldırıb bir-birlərini nişan aldı. Hamı məəttəl qalmışdı. Nisbətən cavan olan Məhəmməd heç kimin gözləmədiyi halda geri döndü və bir daşnakı yerə sərdi. Qarışıqlıqdan istifadə edən Məşədi Mirsadıq da bir ermənini öldürdü. Qaçmaq istəyən yüzlərlə adamı pulemyotlarla qırdılar. Ölənlərin çoxu qadınlar və uşaqlar idi. Əvvəlcə Məhəmmədin qollarını kəsdilər, sonra ayaqlarını. Başını kəsib süngüyə keçirdilər və hamı görsün – deyə yuxarı qaldırdılar. Məşədi Mirsadıqın gözlərini çıxarıb, qollarını sındırdılar və boynunu qırdılar. Həmin gün daşnaklar məscidi dağıdıb, həm sünnilərdən, həm də şiələrdən 20-dən çox din xadimini qətlə yetirdilər".

A.Novatski məsələni dəqiqləşdirmək üçün qeyd edir ki, müsəlmanların dini heysiyyətinə toxunaraq, məscidlərə od vuran daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar.

Müsəlmanların müqəddəs dini ocaqlarını yerlə-yeksan edən daşnaklar dinə, Şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabları da məhv etmişdilər. Qubanın mərkəzində Əbdürrəhim əfəndinin mədrəsəsini yandıran ermənilər buradakı 1300-ə yaxın kitabı tonqala atmışdılar. Hadisələrin canlı şahidlərindən olan nüfuzlu din xadimi İbrahim Aydəmirov xatırlayır ki, "Digah məscidində təxminən 600-700 il əvvələ aid alban və ərəb əlifbası ilə yazılmış kitablar var idi. Ermənilər həmin kitabları məhv etməklə yanaşı, kənd məscidinin təxminən bir kilometrliyində yerləşən müqəddəs pirin daşını da partlatmışdılar. Bu, üstündə alban yazıları olan nəhəng bir daş idi".

Qubada törətdiyi qırğınlardan quduzlaşan Amazasp əliyalın dinc əhaliyə meydan oxuyaraq deyirdi: "Mən erməni xalqının və onun mənafeyinin müdafiəçisiyəm. Mən cəza dəstəsi ilə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülmüş ermənilərə görə sizdən qisas alım. Mən bura qayda-qanun yaratmaq, sovet hakimiyyətini qurmaq üçün deyil, öldürülmüş ermənilərin qisasını almağa göndərilmişəm. Mənə əmr edilmişdir ki, Xəzər dənizindən Şahdağına kimi bu ərazidə yaşayan bütün müsəlmanları məhv edim…"

Amazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında üst-üstə 16 mindən çox insan məhv edilmişdir. 1918-ci ilin qırğınları zamanı daşnak bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyil.

Lənkəranda olan "Dikaya diviziya"-nı tərksilah etmək üçün dəniz vasitəsilə bolşevik dəstələri göndərilmişdi. Bunların hamısı Erməni Milli Şurasının göstərişi ilə edilirdi. Bolşevik əsgərləri yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayırdılar. Astara bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edildi, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur oldu. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasındakı müsəlman kəndləri "Aleksandr Candar" paroxodu tərəfindən top atəşinə tutuldu. Yanvarda başlanan bu qırğınlar martda daha da şiddətləndi".



1918-ci ilin yanvarından 1919-cu ilin avqustunda "Molokan qiyamı" yatırılana qədər bu bölgədə erməni-rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu.

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Erməni silahlı dəstələri tərəfindən 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Nəticədə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülmüş və ya şikəst edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşilikləri haqqında tam məlumat vermir. Belə ki, daha çox müsəlman erməni vəhşiliklərinin qurbanı olmuşdur. Ancaq o zamankı dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Qəzanın Vaqudu kəndində 400-dən yuxarı azərbaycanlı əhali məsciddə sığınacaq tapır və güman edirlər ki, ermənilər müqəddəs yerə toxunmazlar. Ancaq onları mühasirəyə alan erməni vandalları əvvəlcə məscidə əl bombaları atır, sonra isə od vuraraq insanlarla birlikdə yandırırlar.

Şəki kəndinin küçələrində iki yerə şaqqalanmış uşaq meyitləri atılıb qalmışdı. İrmişli kəndini talan edərkən ermənilər südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülən meyitləri tikə-tikə doğrayırdılar. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edir, bundan imtina edən qadınlara qarşı ən amansız cəza tədbirləri görürdülər.

Zəngəzur qəzasının 100-dən çox müsəlman kəndi dağıdılmış, on minlərlə qara mal və yüz minlərlə davar ermənilər tərəfindən aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılmış, dağıdılmış, bir sözlə qəzanın müsəlman əhalisinin dolanışığı dözülməz hala salınmışdı. Ermənilər tərəfindən qəzanın Azərbaycanın müxtəlif kəndlərinə qaçıb dağılmış əhalisinə 1 milyard manata yaxın maddi ziyan vurulmuşdur.

1918-ci ilin avqustunda İgdir və Eçmiədzin qəzalarında azərbaycanlıların qırğını Dronun rəhbərliyi altında həyata keçirilmişdi. Onun göstərişi ilə bu regionda azərbaycanlıların 60-dan çox kəndi dağıdılmış, yandırılmış, əhalisinə qarşı ən sərt tədbirlər görülmüşdü.

1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə yerlə-yeksan edilmişdir. 1919-cu ilin axırında isə Zəngibasarın bir neçə kəndi istisna olunmaqla, İrəvan qəzasının, o cümlədən, Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçmışlar. Əhali İran, Osmanlı və Azərbaycana pənah gətirmişlər.

Quqark rayonunun Vartanlı kəndində isə facie belə başlanmışdı: Aprel ayının ortalarında iclas keçirmək adı altında azərbaycanlıları bir yerə yığırlar. Təxminən 1200-1500 adam toplaşır. Keşiş Vahan iclası açır, bir neçə kəlmə ilə bu iki xalqın bir kənddə mehriban yaşaması haqqında fikirlər söyləyir. Bir qədər sonra silahlı ermənilər içəri daxil olub keşişi bayıra çıxarırlar. Sonra qapını bağlayaraq, damdan içəriyə saman qarışıq neft töküb camaatı yandırmağa başlayırlar. Uşaq, qoca, qadın qışqırtısı ərşə dirənir...

1918–1920-ci illərdə Andranikin silahlı dəstəsi tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı nəticəsində Qərbi Azərbaycan torpaqlarında təxminən 565 min nəfər türk-müsəlman öz dədə–baba torpaqlarından qovulmuş, didərgin salınmış və qətlə yetirilmişdir. Erməni tarixçisi Z.Korkodyan "Sovet Ermənistanının əhalisi (1831-1931-ci illər)" əsərində yazır ki, 1920-ci ildə Ermənistanda Sovet hökuməti qurularkən bu ərazidə 10 min nəfərdən bir qədər çox türk qalmışdı. 1918-ci ildə İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində (İrəvan) və onun çevrəsində 88 kənd dağılmış, 1920 ev yandırılmış, 132 min azərbyacanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir. 1920-ci il aprelin 27-də XI Qırmızı ordunun Bakını, sonra isə digər bölgələri işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan sovetləşən Zəngəzur qəzası da daxil olmaqla, həmin ərazilər Ermənistana bağışlandı.

Beləliklə, 1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını təsadüfi hadisə deyil, "Daşnaksütyun" partiyasının böyük Ermənistan yaratmaq planını həyata keçirmək üçün soyqırımı siyasəti olmuşdur.

Xalqımıza qarşı 1918-ci ildə törədilən mart soyqırımı kimi faciəli bir reallığın saxtalaşdırılması və ört-basdır edilməsini təkcə tarixi bir anın unudulması kimi qəbul etmək olmaz. Mart hadisələrinin saxtalaşdırılması xalqımıza qarşı tarixən düşmən münasibət bəsləyən erməni xislətinin gizlədilməsi oldu. Bu isə özlüyündə XX əsr tariximizdə yeni-yeni qanlı səhifələrin açılmasına gətirib çıxartdı ki, bunlardan aşağıdakılara diqqəti cəlb etmək yerinə düşər:

– 1920-ci ilin aprel işğalı ilə Azərbaycan Milli Hökuməti devrildi, bolşevik bayrağı altında ermənilər Azərbaycanda faktiki olaraq ikinci dəfə hakimiyyəti ələ keçirdilər. Nəticədə respublikada nəinki ziyalılara, hətta milli baxışlı kommunistlərə də divan tutuldu, milli adət-ənənələrimiz ayaq altına atıldı, bütün bu işlərin icraçıları ermənilər oldu.

– 2020-ci ildə 44 günlük Vətən müharibəsinə qədər Azərbaycanın ən ağır probleminə və xalqın dözülməz dərdinə çevrilən Qarabağ məsələsinin əsası həmin illərdə qoyuldu.

– Bolşevik cildinə girən daşnaklar Zəngəzur torpaqlarını zorla Azərbaycandan qoparmağa nail oldular.

– Otuzuncu illərin repressiyalarında ermənilər xalqımıza qarşı qırmızı terroru qəddarlıqla həyata keçirdilər.

– 1948–1953-cü illərdə yüz minlərlə soydaşımız öz ata-baba torpaqları olan Qərbi Azərbaycandan didərgin salındı.

– 1990-cı ilin Yanvar faciəsi, 1992-ci ilin fevralında Xocalı soyqırımı, 1992-ci ildən başlayaraq Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, ümumiyyətlə, 20 faiz torpaq itkisi erməni məkrinin, ən əsası isə Mart Soyqırımının unudulmasının bilavasitə nəticəsidir.

Nəhayət, Ü.Hacıbəyovun 1919-cu ildə Mart soyqırımının ildönümü ilə əlaqədar yazdığı "31 Mart" adlı məqaləsindən bu gün üçün də aktuallığını saxlayan bir fikri xatırlatmaq yerinə düşər: "Bugünkü vəzifəmiz o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hər şeyə hazır olmalıyıq. Borcumuz bu Vətəni gələcəkdə hər cür təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır". Bəli, düşmənin əsrlər boyu türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi soyqırımı siyasəti cavabsız qalmadı. Tarixdən ibrət götürən Azərbaycan xalqı heç bir zaman öz əzəli torpaqlarının düşmənin əsarətində qalması faktı ilə barışa bilməzdi və barışmadı.

2020-ci ilin sentyabrında müzəffər Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qarabağı düşmən işğalından azad etdi. Tarixə 44 günlük Vətən müharibəsi kimi daxil olan bu savaş düşmən işğalında olan torpaqlarımızın azad edilməsi və şəhidlərimizin intiqamının alınması ilə nəticələndi. Mart soyqırımı Azərbaycan tarixində ən ağrılı hadisələrdən biri olmaqla, həm də ibrətamiz tarixdir. Dövlət başçısı İlham Əliyevin dediyi kimi, gələcəkdə Ermənistanla qonşuluq münasibətləri bərpa oluna bilər, amma ermənilərin uzun illər xalqımıza qarşı həyata keçirdiyi qeyri-insani hərəkətləri heç vaxt unutmaq olmaz.

1923-cü ildə sovet Rusiyasının rəhbərliyi ermənilərin arzu və istəklərini nəzərə alaraq tarixi torpağımız olan Qarabağda muxtar qurum yaratdılar. Bu qurum yarandığı gündən Azərbaycan xalqına qarşı separatçı mövqeyi ilə tanındı.80-ci illərin sonlarında bu separatçı qurum dünya erməni lobbisinin və havadarlarının köməyindən istifadə edərək Azərbaycan torpaqlarının 20 faizini işğal etdi. Amma 44 günlük Vətən müharibəsindən sonra 2023-cü ildə həmin separatçı quruma son qoyuldu, Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Bir sözlə, 1905-1906-cı illər, 1918-1920-ci illər, 1988-2023-cü illərdə şəhid olan əsgər və zabitlərimizin, dinc əhalinin intiqamı alındı. Bu gün hər bir azərbaycanlı erməni məkrini unutmur, gənc nəslə düşməni tanıtmaq üçün soyqırımların tarixini dönə-dönə başa salır və yaddaşlara həkk edir.

***Anar İSGƏNDƏROV,***
***Milli Məclisin deputatı,***
***tarix elmləri doktoru, professor***

# Milli Məclisin iclasında

**Dünən spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyası üzrə növbəti plenar iclası keçirildi. Əvvəlcə parlament Sədrinin başçılıq etdiyi nümayəndə heyətinin İsveçrənin Cenevrə şəhərində işgüzar səfəri barədə məlumat verildi.**



S.Qafarova səfərdə məqsədin Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Üçüncü Konfransında və Asiya Parlament Assambleyasının koordinasiya iclasında iştirak etmək olduğunu bildirdi. O, həmçinin “Parlament diplomatiyası: sülh və qarşılıqlı anlaşma üçün körpülərin salınması” mözusunda müzakirələrin aparıldığını nəzərə çatdırdı.

Qeyd edildi ki, hazırda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə və Asiya Parlament Assambleyasına Azərbaycan Milli Məclisinin Sədri rəhbərlik edir. Cenevrədə Azərbaycanın sədrliyi ilə bu iki təşkilatın irimiqyaslı tədbirləri keçirilib. Tədbirdə QHPŞ-nin Üçüncü Konfransında üzv parlamentlər, habelə beynəlxalq təşkilatların 56 nümayəndə heyəti iştirak edib. “İqlim dəyişikliyi ilə mübarizədə parlament fəaliyyətinin canlandırılması” mövzusu ətrafında müzakirələr aparıldığı diqqətə çatdırılıb. QHPŞ yanında beynəlxalq təşkilatlara müşahidəçi statusunun verilməsi haqqında qərarlar və tədbirin yekunlarına dair Cenevrə Bəyannaməsi qəbul edilib. Bununla yanaşı, QHPŞ ilə Parlamentlərarası İttifaq arasında Anlaşma Memorandumu da imzalanıb.

Spiker, həmçinin Parlamentlərarası İttifaq çərçivəsində Azərbaycanın sədrliyi ilə keçirilən assambleyanın ilk koordinasiya iclası barədə də məlumat verdi. O, hər üç toplantıda bu ilin noyabrında Bakı şəhərində keçiriləcək COP29-a hazırlıq işlərindən danışdığını, ölkəmizdə 2024-cü il “Yaşıl Dünya Uğrunda Həmrəylik İli” kimi qeyd olunduğunu bildirdi. Eyni zamanda, Cenevrədə bir sıra ikitərəfli görüşlərin də keçirildiyini diqqətə çatdırdı.

S.Qafarova Parlamentlərarası İttifaqın təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycan və Ermənistan parlament sədrlərinin ikitərəfli görüşünün də baş tutduğu barədə məlumat verdi.

Parlamentin Sədri iki gündən sonra ölkəmizdə Azərbaycanlıların Soyqırımı Gününün qeyd ediləcəyini bildirdi. Xalqımız erməni şovinistlərinin vəhşiliyinin qurbanı olmuş on minlərlə günahsız insanın xatirəsini daim ehtiramla yad edir.

Sonra S.Qafarova gündəliyə 21 məsələnin və ilk 2 qanun layihəsinin Prezidentin məktubu ilə daxil edildiyini bildirdi.

Hər iki məsələ barəsində Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Qanun layihələri müzakirəsiz qəbul edildi.

Gündəlikdəki digər məsələlər – “Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” və “Bələdiyyələrin statusu haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini komitə sədri Siyavuş Novruzov təqdim etdi. O, “Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Qanunda nəzərdə tutulan dəyişiklikləri diqqətə çatdıraraq bildirdi ki, sənəd yerli özünüidarəetmədə səmərəliliyin artırılmasını təmin etmək məqsədi daşıyır. Qanun layihəsində ölkə üzrə sonuncu bələdiyyə seçkilərindən keçən 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin digər bələdiyyələrlə birləşdirilməsi nəzərdə tutulur.

“Əmək pensiyaları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim etdi. Qanuna təklif olunan dəyişikliklər ödənişinin elektronlaşması sahəsində güzəştli şərtlərlə pensiya alanlara elektron xidmətin tətbiq olunması ilə bağlıdır.

Bəzi deputatlar pensiya yaşının azaldılmasını təklif etdilər. Komitə sədri bu təkliflərə cavab olaraq bildirdi ki, dünyanın heç bir ölkəsində qanunvericilik çərçivəsində pensiya yaşının azaldılmasına baxılmır. Bu gün dünyada uzunömürlülük artır. Ona görə də dünyada pensiya yaşının azaldılması əvəzinə, artırılması müzakirə olunur. Deputat xatırlatdı ki, hazırda Azərbaycanda 1 milyon 100 min pensiyaçı var.

Sonra gündəliyə daxil edilən digər qanun layihələri də müzakirə edilərək müvafiq qərarlar qəbul olundu.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Pakistanın Milli Günü Bakıda qeyd edildi

**Pakistan İslam Respublikasının Milli Gününün 84-cü ildönümü münasibətilə martın 29-da Bakıda rəsmi qəbul təşkil edilib.**



Tədbir hər iki ölkənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Pakistanın ölkəmizdəki səfiri Bilal Haye Azərbaycan ilə Pakistan arasındakı çoxşaxəli münasibətlərdən, sıx dostluq əlaqələrindən danışıb. Diplomat bildirib ki, iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi-ticari, müdafiə, təhlükəsizlik, mədəniyyət, təhsil və digər sahələrdə uğurla davam etdirilir.

Ölkəsinin müstəqillik tarixindən danışan diplomat Pakistanın bundan sonra da davamlı inkişaf edərək güclənəcəyinə əminliyini bildirib. “Biz inanırıq ki, Azərbaycan Qarabağ problemini uğurla həll etdiyi kimi, Pakistan da Kəşmir məsələsini həll edəcək. Ölkələrimiz hər zaman bir-birini dəstəkləyib və bu dəstək bundan sonra davam etdiriləcək”, - deyə Bilal Haye vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev Pakistanın milli bayramı münasibətilə Prezident İlham Əliyevin təbriklərini çatdırıb. Qeyd edib ki, Azərbaycan ilə Pakistan arasında mövcud olan iqtisadi, siyasi və mədəni əlaqələr dostluq prinsiplərinə əsaslanır. Pakistanın Azərbaycan üçün çox mühüm bir ölkə olduğunu deyən nazir əlavə edib ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra onu tanıyan ilk dövlətlərdən biri də Pakistan olub. Bununla yanaşı, Pakistan Qarabağ məsələsi ilə bağlı Azərbaycanı beynəlxalq platformalarda hər zaman dəstəkləyir.

Nazirin sözlərinə görə, bu gün hər iki ölkəni möhkəm siyasi tellər bağlayır. Ölkələrimiz arasında əlaqələr hazırda strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Azərbaycan və Pakistan arasında əlaqələrin möhkəm əsasının Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə qurulduğunu diqqətə çatdıran V.Mustafayev iki ölkə arasında münasibətlərin hazırda yüksək səviyyədə uğurla davam etdirildiyini deyib.

O bildirib ki, Azərbaycan və Pakistan arasında ticarət dövriyyəsi ildən-ilə artır. Ölkələrimizin müxtəlif sahələrdə uğurlu əməkdaşlığından, xeyli sayda sənədlərin imzalandığından danışan nazir vurğulayıb: “Azərbaycan xalqı Pakistan dövlətinin və xalqının dəstəyini yüksək qiymətləndirir. Əminik ki, dostluğumuz, əlaqələrimiz bundan sonra daha da dərinləşəcək və möhkəmlənəcək”.

***XQ***

# Kəndlərimizin azad edilməsi gündəmdədir

**Sosial Tədqiqatlar Mərkəzi Azərbaycan ilə Ermənistan arasında sərhədlərin dəqiqləşməsi prosesi çərçivəsində hazırda Ermənistan işğalı altında olan kəndlərimizin təhvil verilməsi məsələsinin aktuallığını nəzərə alaraq, vətəndaşların bu barədə gözləntilərinin öyrənilməsi məqsədilə sorğular keçirib.**

Respondentlərin mütləq əksəriyyəti – 95,8 faizi Ermənistanın işğalı altındakı kəndlərin yaxın gələcəkdə azad ediləcəyinə inandığını, 3,6 faizi inanmadığını bildirib, 0,6 faizi bu barədə fikir bildirməkdə çətinlik çəkib.

Qeyd edək ki, Azərbaycanın Qazax rayonunun Sofulu, Bərxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrimli kəndləri və Naxçıvan MR Sədərək rayonunun Kərki kəndi Ermənistan tərəfindən 1990-1992-ci illərdə işğal edilib. İşğal altında olan bu 8 kəndin 4-ü Azərbaycanın eksklav əraziləridir.

Sorğular martın 15-18-də 18 yaşdan yuxarı 390 respondent arasında keçirilib.

**XQ**



# Qərbi Zəngəzur – babaların ulu yurdu

**Tarixi mənbələr göstərir ki, Qərbi Azərbaycan əraziləri 1157-ci ilə qədər Səlcuk imperiyasının tərkibinə daxil olub. Sonra bu ərazi 1194-cü ilə kimi İrak səlcuklarının hakimiyyəti altına keçir. Bundan sonra burada Xarəzmşahların hakimiyyəti bərqərar olur, onlardan sonra bu əraziyə Elxanilər nəzarət edir. Elxanilərin süqutundan sonra, yəni 1334-cü ildən burada Cəlairilərin hakimiyyəti başlayır, 1383-cü ildə bu ərazini Əmir Teymur işğal edir. Onun ölümündən sonra Orta əsrlərdə bu ərazidə Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövlətləri mövcud olur. Nadir şahın ölümündən sonra mərkəzdənqaçma meyilləri güclənir və Azərbaycanda xanlıqlar meydana gəlir. Burada İrəvan xanlığı yaradılır.**

Orta əsr mənbələrinin tədqiqi, əlalxüsus, Matenadaranda (Mətndəran, yəni əlyazması) qorunan və geniş tarixi dövrü əhatə edən XIV-XVII əsrlərə aid Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər hökmdarlarının fərmanlarının təhlili sübut edir ki, Orta əsrlərdə bu ərazidə erməni dövləti olmayıb və ilk erməni dövləti Cənubi Qafqazda rus bolşevikləri tərəfindən 1920-ci ildə Azərbaycan torpaqlarında yaradılıb.

Fərux Sumer yazırdı: “İranlı müəlliflərin Çuxur-Səəd adlandırdıqları məntəqə Ərivanın qərb və cənub hissəsində bir nahiyə idi ki, o, osmanlıların mənbələrində “Səd Çuxur” kimi qalmışdır. Bu nahiyə qərbdə Araz və Arpaçayın qovuşağında, cənubda isə Araza qədər uzanırdı. Məncə, bu kəlmə ilk dəfə “Diyarbekriyyə” kitabında işlənib. Çələbinin gündəliyində Yavuz Sultan Səlimin İranla müharibədən qayıdarkən köç saldığı mənzilgahlar arasında bu nahiyənin də adı çəkilmişdir”.

XVII əsrin mənbələrində bu ərazi Çuxur-Səəd adlanır. XVI-XVII-ci əsrlərdə Çuxur-Səəd vilayətini Türkman Rumlu, Ustaclı, Zülqədər, Qacar adlı qızılbaş-türk tayfa əsilzadələri idarə etmişdir.

Osmanlı tarixçisi Katib Çələbi “Gürcüstan və Qafqaz barəsində məlumatlar” kitabında İrəvan haqqında deyilir: “İrəvan ...Çuxursəəd bəylərbəyliyinin qəsəbə və taxt-tac şəhəridir. Zəngi çayı şəhərin qala barısının qərb tərəfindən axır. Qala bu sözügedən çayın qırağında, düz ərazidə salınıb. Cənub qapısını “Təbriz qapısı” şimal qapısını isə “Şirvan qapısı” adlandırırlar. Onun ətraflarında bağlar və üzümlüklər var. Bol, bəhrəli yerdir. Bu sözügedən qala barısının içində bazar, məscid və çay kənarında ucaldılmış qala var”.

Mənbələrin verdiyi məlumata görə, 1604-cü il Osmanlı–Səfəvi müharibəsi getdiyi zaman Çuxur-Səədin ərazisi dəhşətli dağıntılara məruz qalır. I Şah Abbas İrəvanın idarəolunmasını Əmirgünə xan Qacara həvalə edir. I Şah Abbasın saray tarixçisi İsgəndər Münşi yazırdı: “Əmirgünə xan həyatın, rahatlığın izi-tozu qalmayan bir yerə (İrəvan qalasına) getdi ki, orada bu dağıdılmış, ins-cins olmayan yerdə məskunlaşsın... Azərbaycanda olan bir çox el, ulus, tərəkəmə adamlarını inandırıb İrəvana gətirdi. Araqdan (fars İraqı belə adlandırır) ona qulluq etməyə gələn Ağca-Qoyunlu oymağına və Musa oğlu Bayat Qacar elinə İrəvanın və Şərurun ən yaxşı yerlərində yurd və qışlaqlar verdi”. I Şah Abbasın fərmanlarında Əmirgünə xan “hörmətli, xoşbəxt və yüksək rütbəli hakim, Çuxur-Səədin bəylərbəyi” adlanır.

I Şah Abbasın 1620-ci ildə verdiyi fərmanda deyilir: “ Məlik Aykaz qanuni şəkildə Azərbaycana tabe olan Qafan və Quştasif vilayətlərində müəyyən mülklərin bir qisminə sahib ola bilər və hər hansı bir şikayətini ŞeyxülIslam və qazi vasitəsilə həll edə bilər”. Beləliklə, tam əminliklə demək olar ki, Orta əsrlərdə bu ərazidə mövcud olan dövlətlər Azərbaycan dövlətləri olub və inzibati idarəetmə strukturu da Azərbaycan hakim dairələrinin əlində olub. Başqa sözlə desək, erməni dövləti Orta əsrlərdə sözü gedən coğrafiyada mövcud olmayıb.

II Şah Abbasın fərmanından məlum olur ki, erməni icmasına Azərbaycan hakimlərindən asılı olan kəndxuda başçılıq edirdi və erməni rəiyyəti tikinti və əkinçilik ilə məşğul olurdu. Fərmanda deyilir: “Azərbaycan bəylərbəyi sözügedən ermənilərə yardım etməlidir ki,... bu və digər vilayətlərin amil və hakimləri bunlardan heç nə ummasınlar. Ona görə ki, bu icmanın üzvləri cizyə ödəyən rəiyyətlər olduğundan onlara maneəsiz əkinçilik və tikinti ilə məşğul olmağa, sadə həyat tərzi sürmək üçün imkan yaratsınlar”.

Orta əsr mənbələrindən məlum olur ki, Üçkilsədə (sənədlərdə Üçmüəzzin ada da rast gəlinir, yəni indiki Eçmiadzin) yaşayan ermənilər şah Abbas tərəfindən Cənubi Azərbaycandan bu ərazilərə köçürülənlərdir. Erməni icmasının rəhbəri Filipposun Şah Abbasa ünvanladığı məktubda deyilir: “Bizim vilayətdə yaşayan ermənilərin bir çoxu Sizin sevgi və qayğınız nəticəsində hissə-hissə müxtəlif vilayətlərdən bura köçürülənlərdir. Üçkilsədə yaşayan və Allaha ibadətdə olan 300 bəndəsi gecə-gündüz dua edirik və yaşadığımız üçün, bütövlükdə, Zataliləri Sizin rəhminizə borcluyuq... Bu vilayətdə türklər hakim olan ildən bu günə kimi, mən və bütün erməni icması sizin müqəddəs ailənizə sadiq olmuşuq və heç vaxt nə mən, nə də erməni icması tərəfindən sizə qarşı itaətsizlik edilməyib və edilməyəcək”. Beləliklə, məlum olur ki, Orta əsrlərdə ermənilər bu əraziyə köçürülüb və çox az sayda kilsə icması şəklində yaşayıblar.

Erməni sovet tarixçiləri öz əsərlərində etiraf edirdilər ki, XIV-XVII əsrlərdə “Qərbi Azərbaycanın mərkəzi qəzalarında mülkədarların mülk kəndlərinin böyük əksəriyyəti müsəlman hakim dairələrinin yerli və köçəri nümayəndələrinə məxsus idi...Dövlət və ya “divani” kəndləri, “soyurqal” vəya “tiul” qismində dövlət məmurlarının, hərbçilərin və Ali müsəlman ruhanilərinin əlində idi. Sənədlərin böyük əksəriyyəti təsdiqləyir ki, böyük torpaq sahələri müsəlman hakim dairələrin əlində cəmləşirdi. Əmir Səədin varisləri, hakim Səədli tayfasının nümayəndələri çoxsaylı kəndlərə sahiblik edirdilər. Bu kəndlər onilliklər və yüzilliklər ərzində nəsildən–nəsilə keçir və onların istismarından əldə olunan gəlir bütün varislərin arasında bölünürdü”.

Çoxsaylı orta əsr sənədlərində bu ərazi Azərbaycan ölkəsinə daxildir və Çuxur-Səəd adlanır.

Cənubi Qafqazın tarixi konsepsiyası rus-sovet tarixçiləri tərəfindən XX-ci əsrin 40-cı illərində işlənmişdir. I.P.Petruşevski 1949-cu ildə işıq üzü görmüş “XVI-XIX əsrin əvvəllərində Azərbaycan Ermənistanda feodal münasibətlərinin oçerki” əsərində Cənubi Qafqazın tarixi konsepsiyasının əsasını qoyur və erməniləri bu regionun “köklü, aboriqen xalqı” kimi təqdim edir. XX əsrin əvvəlində ermənilərə yaratdıqları dövlətin tarixini yazırlar. Bu tarix təhrif olunmuş Azərbaycan tarixi idi. Azərbaycan tarixçiləri bu konsepsiyadan kənara çıxa bilmirdilər, ideoloji faktor buna yol vermirdi.

Azərbaycan tarixçilərindən yalnız A.Rəhmani “Azərbaycan XVI əsrin sonu XVII əsrdə” əsərində yazırdı “ XVII əsrdə Azərbaycan müstəqil Səfəvi imperiyasının bütün simalı-qərb hissəsini tuturdu. Şərqi Gürcustan istisna idi. Burada müstəqil idarəetməni qoruyub saxlayan Baqratidlər sülaləsindən olan padşahlar hakimiyyətdə idilər. Çuxur-Səəd bəylərbəyliyi adlandırılan və əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edən Şərqi Ermənistan Azərbaycana daxil idi”.

A.Rəhmani Ermənistanın o dövrdə və o ərazidə olmadığını açıq deyə bilmirdi, ona görə ki, bu fikir ümumi qəbul olunmuş elmi konsepsiyaya zidd idi. Lakin bu gün orta əsr mənbələrini tədqiq edərək biz tam əminliklə deyə bilərik ki, Ermənistan Respublikasının bu gün yerləşdiyi ərazi Azərbaycanın tarixi ərazisidir və 1920-ci ilə kimi burada heç bir erməni dövləti mövcud olmayıb.

Orta əsr mənbələrinin verdiyi məlumata görə, XVII əsrdə Azərbaycana 4 bəylərbəyi daxil idi – Təbriz, Çuxur-Səəd, Qarabağ, Şirvan.

Çuxur-Səəd bəylərbəyliyinə Naxçıvan, Maku (Arazın sağ sahilində, Ağrı dağının cənub-şərq ətəyində, Naxçıvanın cənub-qərbində yerləşən ərazi), Paşak (Makunun qonşuluğunda yerləşən kiçik bir ərazi və qala) daxil idi. XVI əsrdə Ustaclı Qızılbaşlar tayfasının əmirləri Çuxur-Səədə bəylərbəyi təyin olunurdular. Zəngəzur Qarabağ bəylərbəyliyinə daxil idi.

Orta əsr mənbələrində bu ərazidə çox sayda Azərbaycan-türk toponimlərinə rast gəlinir. Bir dənə də olsun erməni yer, kənd, çay, bulaq adı yoxdur. Bu da öz növbəsində bu ərazinin Azərbaycan türklərinə məxsus olduğunu bir daha təsdiqləyir. Toponim, yer adı ən tutarlı tarixi sənəddir. Toponimlər yüzilliklərlə formalaşır və konkret etnosun müəyyən coğrafi məkanda məskunlaşma prosesini göstərən dəqiq mənbədir. Hətta, bütün memarlıq abidələri dağıdılsa belə yer adları ərazinin hansı xalqa məxsus olduğu haqqında şahidlik edə bilər.

Çoxsaylı Orta əsr sənədlərində də – hökmdarların fərmanları, alqı-satqı çıxarışları (kupça) bu ərazidə mövcud olan Azərbaycan yer adları sadalanır: Ayıdərə, Zoğallı dərə, Həmid göl, Beş təpə, Daş xırman, Kölgə qaya, Yaşlı bulaq, Dəmirçi təpə, Çala, Çaxır çəmən, Kor çeşmə, Qızıl qaya, Keçi qayası, Qızıl təpə, Dərəçay, Qara göl, Çeşmə başı, Qızıl Teymur arxı və s.

Alqı-satqı çıxarışlarında Çuxur-Səəddə yaşayan hakim qızılbaş tayfalarının xırda tayfa birləşmələri nümayəndələrinin adı çəkilir. Səədli tayfası ilə yanaşı, digər Azərbaycan–türk tayfaları olan koylaxisarlı, alpout, xnuslu, bayburtlu tayfalarının da adlarına rast gəlinir. Bu tayfa birləşmələri XIV-XVII əsrlərdə Qərbi Azərbaycanın əsas əhalisini təşkil edirdi. Onların adlarının yanında çəkilən “ağa” və “xəlifə” titulları bu insanların varlı, zəngin, hakim sinfin nümayəndələri olduqları haqqında məlumat verir.

Sovet dövrü erməni tarixçilərinin də yazdığına görə, XIV əsrin sonu XVII əsrdə bu ərazidə, yəni Çuxur-Səəddə Azərbaycanın zəngin feodal nəsilləri hakimiyyətdə olmuş və nəsildən-nəsilə keçən iri torpaq sahələrinə sahiblik etmişlər. Sənədlərdə bir dənə də olsun erməni sahibkarının adına rast gəlinmir.

Beləliklə, fikirləri yekunlaşdıraraq belə qənaətə gəlmək olar ki, Ermənistan Respublikasının yerləşdiyi ərazi Azərbaycanın tarixi ərazisidir. Ermənilər orta əsrlərdə bu əraziyə köçürülüb və kiçik kilsə icması şəklində yaşayıblar. Cənubi Qafqazda ilk erməni dövləti sovet bolşevikləri tərəfindən 1920-ci ildə Azərbaycan torpaqlarında yaradılıb.

I Pyotrdan başlayaraq rus siyasəti ermənilərə qarşı isti münasibət bəsləyib. Bunun əvəzində ermənilər hərbi əməliyyatlar zamanı ruslara fəal qahmar çıxıblar. 1722-ci ildə Qarabağda və Zəngəzurda yaşayan erməni icmaları Kartli çarı VI Vaxtanqla gizli sazişə girərək, Hüseyn şahın əleyhinə üsyan qaldırıblar. Lakin bu üsyan Hüseyn şah tərəfindən yatırılıb.

Rus imperatoru Kiçik Asiya xristianlarına təsirini artırmaq məqsədi ilə Türkiyə, İran ermənilərinin Eçmiadzin patriarxının himayəsinə keçməsinə çalışıb. Bununla, o, Rusiyanın cənub dənizlərinə çıxışını təmin etmək istəyirdi. Erməniləri himayə etməklə Rusiya onların simasında özünə sadiq müttəfiq qazanmaq istəyirdi.

Azərbaycanın İrəvan xanlığının işğalında da ermənilər Rusiyaya böyük yardım etmişdilər. Sisianovun İrəvana yürüşü zamanı məlik və yüzbaşı Qavriil ona yazırdı: “Biz İrəvandan Qaraklisə Rusiya İmperatorunun himayəsi altına keçdik və özümüzlə 200 ailə xalqımızı gətirdik... Xəbər veririk ki, hal-hazırda İrəvanda çox az sayda ordu var, 3000-nə yaxın əsgər... Zati-aliləri göz yaşları ilə yalvarırıq ki, Siz orada qalan və ağır vəziyyətdə olan ermənilərin xilaskarı olasınız”. Həmin məktubda Qavriil “İrəvan xanının erməniləri əvvəl olduğu və tarixi kitablarda deyildiyi kimi İranın iç ərazilərinə köçürmək niyyətindən söz açır...”. 1803-cü ildə rus çarının Rusiyaya köçmək çağırışına cavab olaraq Bəyəzitdə yaşayan ermənilər yazırdılar: “Yalnız İrəvan rus ordusu tərəfindən alınandan sonra bütün ermənilər Rusiyanın himayəsi altına keçməyə və İrəvan vilayətində yaşamağa razıdırlar”.

“Erməni məsələsi” deyilən layihə ilk dəfə olaraq Rus imperiyası tərəfindən məqsədli şəkildə qaldırılmışdır ki, Osmanlı imperiyasını sarsıdıb və Qara dəniz, Bosfor, Dardanel boğazlarına sahib olsun. Bunu “xristianları Türkiyənin müsəlman zülmündən qurtarmaq” şüarı altında həyata keçirməyə nəzərdə tuturdu. Rusiyanın bu niyyəti İngiltərə, Fransa hakim dairələrinin istəyi ilə üst-üstə düşürdü.

**(ardı var)**

***Vəfa QULİYEVA,***
***tarix elmləri doktoru***

## MDB İqtisadi Şurasının 101-ci iclası



**Martın 29-da Moskvada MDB İqtisadi Şurasının 101-ci iclası keçirilib.**

Azərbaycanı iclasda Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib. Toplantı Rusiya Hökuməti sədrinin müavini Aleksey Overçukun sədrliyi ilə keçirilib.

Ermənistanı artıq ikinci dəfədir ki, ölkənin Belarusdakı səfiri Razmik Xumaryan təmsil edir.

*

**Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedev MDB-nin işində fəal iştirakına görə Azərbaycan rəhbərliyinə, müvafiq qurumlara, nazirliklərə və idarələrə təşəkkürünü bildirib.**

S.Lebedev qeyd edib: “Azərbaycan Baş nazirin birinci müavini Yaqub Eyyubovun qismində həm iqtisadi, həm də humanitar sahədə MDB-nin fəaliyyətində aktiv iştirak edir. Mayın əvvəlində Bakıda mühüm tədbir - “Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək.

MDB İcraiyyə Komitəsindən foruma nümayəndə heyəti yola düşəcək. MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurası (MDB İnformasiya Şurası) da Bakıda toplaşacaq. Mən həm Azərbaycan rəhbərliyinə, həm də aidiyyəti qurumlara, nazirliklərə və idarələrə MDB-nin işində fəal iştiraka görə çox minnətdaram”.

## Moskvada Beynəlxalq İqtisadi Forum



**Moskvada Müstəqil Dövlət Birliyinə üzv dövlətlərin Beynəlxalq İqtisadi Forumu keçirilib. Azərbaycanı tədbirdə iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov təmsil edib.**

İştirakçılar MDB ölkələrinin logistika, gömrük, tikinti, sənaye kooperasiyası, miqrasiya siyasəti, tibb, turizm, davamlı inkişaf və digər sahələr üzrə əməkdaşlığının aktual mövzularını müzakirə ediblər. Forumun “Dialoqdan birgə layihələrə” devizi MDB, Avrasiya İqtisadi İttifaqı, Şanxay Əməkdaşlıq Təşkilatının inteqrasiyasının dərinləşməsinə və əməkdaşlığının möhkəmlənməsinə, onların davamlı inkişafına və bu inteqrasiya birliklərinin xalqlarının rifahının təmin olunmasına töhfə verən çoxcəhətli prosesdir.

**XQ**

# COP29: Azərbaycanın “yaşıl iqtisadiyyat”a keçid strategiyası

**Hazırda Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınaraq Cənubi Qafqazın lider dövləti kimi çıxış edir, bölgənin siyasi-iqtisadi və humanitar məsələlərinin həllində önəmli rol oynayır. Bu həm də ölkəmizin beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində kifayət qədər təcrübə əldə etməsi ilə bağlıdır. “Formula 1” Azərbaycan Qran-Prisi, “Eurovision” mahnı müsabiqəsi, I Avropa və IV İslam Həmrəyliyi oyunları, Bakı Beynəlxalq Humanitar, Mədəniyyətlərarası Dialoq, Qlobal Bakı və Qlobal Media forumları, Qoşulmama Hərəkatının nazirlər görüşü və digər nüfuzlu tədbirlərin ölkəmizdə uğurla reallaşdırılması bunun bariz ifadəsidir. Bu, eyni zamanda Azərbaycanın COP29-a evsahibliyi missiyasını layiqincə gerçəkləşdirəcəyi əminliyini yaradır.**




Yeri gəlmişkən, BMT-nin qaz və alternativ enerji üzrə ekspertlər qrupunun üzvü Ayaz Salmanovun sözlərinə görə, COP29 Azərbaycanın evsahibliyi edəcəyi ilk beynəlxalq ekotədbir deyil. Bakı buna qədər bir sıra qlobal təşəbbüslərin gerçəkləşdirilməsi məqsədi daşıyan konfranslara, nəhayət, 2016-cı il BMT-nin 7-ci Enerji Forumuna evsahibliyi edib. Bu cür tədbirlərin ölkəmizdə keçirilməsi də təsdiqləyir ki, Azərbaycan digər sahələrdə olduğu kimi, ekotədbirləri və ekolayihələri həyata keçirən beynəlxalq oyunçudur. 2016-cı ildə paytaxtımızda reallaşdırılan 7-ci Beynəlxalq Enerji Forumu bu mənada yaddaqalan, mühüm tədbirlərdən biridir.

A.Salmanov qeyd edir ki, sözügedən tarixdə həyata keçirilən Bakı Forumunda davamlı inkişafın təmin olunması üçün “yaşıl enerji”, alternativ enerji və digər sahələrdə Azərbaycan öz imkanlarını və təcrübəsini dünyaya göstərdi. Məlum oldu ki, dünya ölkələrinin anoloji məsələdə Azərbaycandan öyrənəcəyi çox şey var. Nəzərə alaq ki, 7-ci Foruma həm BMT-nin, həm də dünya ölkələrinin yüksək çinli məmurları və ekologiya sahəsində dünyaca məşhur ekspertlər iştirak edirdi. Tədbir çərçivəsində iqlim dəyişikliklərinin vacib seqmentləri – karbon emissiyalarının azaldılması, “yaşıl enerji”yə keçid, “yaşıl enerji”dən istifadə olunmanın təmin edilməsi və digər məsələlər müzakirə edildi. Beləliklə, bu və digər tədbirlərə evsahibliyi etməklə Azərbaycan sübuta yetirdi ki, “yaşıl iqtisadiyyat”ın formalaşmasında çox maraqlıdır. Bu istiqamətdə Azərbaycan hazırda da uğurlu addımlar atır.

Yerli və beynəlxalq ekspertlər tərəfindən ölkəmizin COP29-a evsahibliyi bu ilin ən mühüm tarixi hadisəsi və respublikamızın “yaşıl iqtisadiyyat”a keçid strategiyasının məntiqi davamı kimi, eyni zamanda, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqi olaraq qiymətləndirilir.

Azərbaycan COP29-a evsahibliyi missiyasını üzərinə götürməklə müsbət ekoloji dəyişikliklə bağlı beynəlxalq aləmə böyük töhfə verməyi, habelə bu istiqamətdə çıxış edən ölkələr üçün model nümunəsi göstərməyi qarşıya mühüm vəzifə kimi qoyub. Başqa sözlə, respublikamız artıq “yaşıl enerji” iqtisadiyyatını əməli fəaliyyəti ilə yeni müstəvidə formalaşdırmaq qərarını qətiləşdirib. Belə ki, ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Yeri gəlmişkən, Azərbaycan dünyada bərpaolunan enerji potensialının zənginliyi ilə diqqət çəkir. Bu, mövcud sahədə aparılan hesablamalardan da aydın görünür. Belə ki, tədqiqatlara əsasən, qeyd edə bilərik ki, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji üzrə 380 meqavat, dağ çaylarının potensialı isə 520 meqavatdır.

Burada ekspertlərin bir məsələyə münasibətini də xatırlatmaq istərdik. Bu, tullantıların emalının iqlim dəyişikliyinə təsiri ilə bağlıdır. BMT-nin qaz və alternativ enerji üzrə ekspertlər qrupunun üzvü Ayaz Salmanovun fikrincə, istər neft-qaz, istərsə də digər sahələrdə “0” tullantı prinsipinin təmin olunması iqlim dəyişikliyinə təsir edən amillərdən biridir: “Hazırda biz istehsalat prosesində formalaşan hər hansı bir növ tullantını emal və yaxud utilizasiya etmiriksə və birbaşa təbiətə atırıqsa, bu, birbaşa ətraf mühitin çirklənməsinə və iqlim dəyişməsinə səbəb olur.

Unutmayaq ki, iqlim dəyişikliyi antopegen təsirlərdən qaynaqlanır. Bu gün emal sənayesi qurularkən tullantıların düzgün idarə olunması iqlim dəyişikliyinə çox müsbət təsir edir. Əgər biz tullantıların doğru çeşidlənməsini təmin ediriksə və daha sonra bunu doğru istiqamətdə utilizasiya və emal prosesindən keçiririksə, deməli, iqlim dəyişikliyinə qarşı mübarizədə böyük ölçüdə müsbət töhfə vermiş oluruq”.

A.Salmanov qeyd edir ki, bu gün tullantıların emalının iqlim dəyişikliyinə təsiri ilə bağlı trendlər də dəyişib. Hazırda bir sahədə tullantı sayılan məhsul digər sahə üçün unikal xammaldır. Bu, o deməkdir ki, tullantılar emal edilməklə əlavə əmtəə yaradılır. Məsələn, SOCAR uzun illərdir ki, çox gözəl və anoloqsuz bir layihə həyata keçirir. Bu da ondan ibarətdir ki, neft gölməçələrindən toplanan tullantılar əmtəə nefti səviyyəsində bərpa olunur. Bu layihənin daha bir uğuru isə özü özünü maliyyələşdirməsidir. Yəni bu işə heç bir əlavə vəsait xərclənmir. Beləliklə, bu tip layihələr həm iqtisadi dəyər yaradır, həm də ekoloji tarazlığın bərpasına xüsusi töhfə verilir.

BMT-nin qaz və alternativ enerji üzrə ekspertlər qrupunun üzvü söhbətində, həmçinin bildirdi ki, bu gün Azərbaycanda ekoloji problemlərdən biri plastik və polietilen qabların səmərəsiz istifadəsidir. Əvvəllər dünyanı qorumaq üçün kağızdan imtina etdik və polietilen materiallardan istifadəyə başladıq. Amma bu gün görürük ki, yeni seçimin fəsadları daha böyükdür. Belə ki, bu gün dənizlərin və okeanların dibində plastiklər tapılır ki, bu da bütünlükdə ekosistemin zəhərlənməsinə gətirib çıxarır. Son vaxtlar Azərbaycanda polietilen qablardan istifadənin azaldılması üçün müəyyən tədbirlər görülür.

Ötən ilin əvvəllərindən hətta polietilen torbaların bir qismi pullu oldu. Bu da polietilen torbalardan istifadəni bir qədər azaltdı. Amma problemin tam qarşısını almadı. Bu da ona görədir ki, problemin köklü həlli üçün alternativlər təklif olunmur. Polietilen torbalardan imtina edək, bəs əşyalarımızı nəylə daşıyaq?! Bu gün marketlərdə polietilen torbalardan başqa alıcılara heç bir alternativ torba təklif olunmur. Halbuki, alternativlər var. Ekotorbalar təklif edilə bilər. Amma edilmir.

Ekspert bildirir ki, ekoloji məsələlər bizi bir vətəndaş olaraq düşündürməlidir. Bunun üçün də ekoloji maarifləndirməyə məktəblərdən başlamalıyıq. Bəlkə də, bağçalarda biz körpələrin ekoloji savada yiyələnməsinə çalışmalıyıq. Amma biz təbliğatı və qadağanı istehlakçılar arasında tətbiq edirik. İstehlakçılar isə əsasən, 18 yaşdan yuxarı insanlardır. Onlarda bu yaşa qədər müəyyən vərdişlər formalaşıb. Formalaşmış stereotipləri isə dağıtmaq çox çətindir.

Müqayisə etsək görərik ki, ekoloji savadlılıq baxımından biz bəzi ölkələrdən geri qalırıq. Ona görə də gecikmədən konseptual işlərə başlamalıyıq. Evdə, təhsil müəssisələrində, işdə və hətta istirahət yerlərində məişət tullantılarına münasibəti dəyişməliyik. Məsələn, Bakı küçələrində müxtəlif növ məişət tullantıları qabları qoyulub. Amma çox zaman zibil atanda o qablara fikir verilmir. İlk rastımıza çıxan qaba zibil atırıq. Bu tip vərdişlərdən qurtulmasaq, ekoloji fəlakətlərdən də sığortalana bilməyəcəyik.

***Vaqif BAYRAMOV***
***XQ***

# Taksi can rahatlığıdır

## *Yeniliklər bu xidmətin kəm-kəsirlərini aradan qaldıracaq*

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Nazirlər Kabineti “Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər”i təsdiq edib. Bununla bağlı Baş nazir Əli Əsədov 2024-cü il martın 27-də qərar imzalayıb.**



“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun hazırlanan tələblər müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəricilərinin, o cümlədən onların daxili və xarici tərtibatına dair tələblərin hüquqi əsaslarını müəyyən edir.

Sənəddə qeyd olunur ki, müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtonəqliyyat vasitələri “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun texniki cəhətdən saz vəziyyətdə saxlanılmalıdır. Eyni zamanda dövri texniki baxışdan keçməmiş müntəzəm daşımalar yerinə yetirən avtonəqliyyat vasitələri sərnişindaşımada istifadə edilə bilməz. Yeni qərar, həmçinin dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 15 ildən artıq müddət keçən nəqliyyat vasitələri ilə taksi xidmətinin göstərilməsini qadağan edir.

Qərara əsasən, taksi minik avtomobillərinin daxilində sürücü və daşıyıcı barədə məlumatları əks etdirən lövhə, taksometr (gedişhaqqının tarifləri barədə məlumat lövhəsi ilə birgə) və ya taksometr funksiyalarını yerinə yetirən proqram təminatı olan mobil cihaz quraşdırılmalıdır. “Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər”ə əsasən, hüquqi şəxslərin və ya fərdi sahibkarların sərnişin daşımalarında istifadə etdikləri taksi minik avtomobillərində nağdsız ödəniş üçün POS-terminal olmalıdır. Bununla yanaşı, taksi minik avtomobilləri “ABS” əyləc sistemi, nəqliyyat vasitələrinin salonu normal işıqlandırma sistemi, tam hava tənzimləyicisi (sərinlətmə və isitmə funksiyalı), eləcə də sürücü və bütün sərnişinlər üçün təhlükəsizlik kəməri ilə təchiz edilməlidir.

“Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər”də Azərbaycanda taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin fərqləndirici nişanının və taksi fənərinin forması da müəyyənləşdirilib. Belə ki, taksilərin üzərində sarı-qara və ağ-qara damalı zolaq, həmçinin qara hərflərlə “Taksi” sözü yazılmış fənər quraşdırılacaq.

Əslində hazırda taksi kimi istifadə olunan nəqliyyat vasitələrinə qoyulmuş tələblər qanunvericilikdə bu günədək də mövcud olub. Yeni tələb isə taksi minik avtomobilinin bütün salonunu əhatə edən və qeydə aldığı məlumatları ən azı 15 gün müddətində saxlaya bilən yaddaş qurğusu ilə təchiz edilmiş videokameraların quraşdırılması ilə bağlıdır.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən verilən məlumata görə, tələblərə əsasən, buraxılış tarixindən 15 ildən artıq müddət keçməyən avtomobil nəqliyyatı vasitələri üçün 3 ay ərzində elektron qaydada müraciət edərək müvafiq icazələri alanlar taksi fəaliyyətlərini davam etdirə bilərlər. Eyni zamanda, taksi minik avtomobillərinin sürücüləri etik davranış və avtomobil nəqliyyatı ilə sərnişindaşımaları tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçməlidirlər. Yalnız təlimləri müvəffəqiyyətlə bitirənlər şəhadətnamə əldə edə bilərlər.

Nazirliyin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) isə hazırda taksi fəaliyyəti sahəsində çalışan və bu fəaliyyəti davam etdirmək istəyən şəxslərə qısa müddətdə buraxılış vəsiqəsi və buraxılış kartı almalarını tövsiyə edib. Qurumdan onu da bildiriblər ki, 1 iyul 2024-cü il tarixindən sonra buraxılış tarixindən 8 ildən artıq müddət keçmiş avtonəqliyyat vasitələrinə buraxılış kartı verilməyəcək. Bununla yanaşı, buraxılış kartı almaq üçün taksi minik avtomobilləri ən azı “Avro-5” ekoloji standartına uyğun olmalıdır.

Tələblərə əsasən, ölkə ərazisində müntəzəm sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin loqosu, qısaldılmış adı və Çağrı Mərkəzinin nömrəsi olmalıdır. Yeni tələblərdə, həmçinin taksilərin rəngləri ağ və ya qırmızı müəyyən edilib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, taksilərin rənglərinin ağ və ya qırmızı olması ilə bağlı tələb yalnız 2024-cü il iyulun 1-dən sonra sərnişindaşımalarında istifadə olunması üçün ölkə ərazisinə idxal edilən avtonəqliyyat vasitələrinə şamil ediləcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Eldəniz CƏFƏROV,**
**avtomobil nəqliyyatı üzrə ekspert**

**Taksilərlə bağlı tələblər, əslində, bu il yanvarın 1-dən elan olunmalı idi. Görünür, dövlət sosial yönümlü siyasətini davam etdirərək taksi fəaliyyəti ilə məşğul olan vətəndaşlara bir qədər möhlət verdi. Nəhayət, Novruz bayramından sonra hökumət “Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər”i təsdiq etdi.**

**Düşünürəm ki, bu, çox doğru addımdır. Qeyd etmək istəyirəm ki, hazırda Bakı şəhərində taksi fəaliyyətinə cəlb edilmiş nəqliyyat vasitələrinin sayı olduqca çoxdur. Bu da taksi xidməti sahəsində xaosa, eləcə də yollarda tıxacların yaranmasına, qəza hallarının artmasına gətirib çıxarır. Belə bir vəziyyət çox davam edə bilməzdi. Fikrimcə, taksi fəaliyyəti ilə peşəkarlar məşğul olmalıdır. Taksi fəaliyyətinə əyləncə, eləcə də digər məqsədlər kimi baxılmamalıdır.**

**Hökumətin yeni qərarı, müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər bu sahəyə bir sıra yeniliklər gətirəcək. Hər şeydən əvvəl, taksi xidməti sahəsində peşəkarların fəaliyyət göstərməsinə imkan yaranacaq. Bununla da, Bakıda, eləcə də ölkənin digər şəhərlərində taksi xidməti peşəkarların fəaliyyət sahəsi kimi yenidən dirçəldiləcək. Çünki taksi ictimai nəqliyyatın bir istiqaməti, spesifik sahəsidir. Düşünürəm ki, ictimai nəqliyyatın avtobus seqmentində çalışan sürücülər səliqə-sahmana, sərnişindaşıma ilə bağlı qaydalara əməl etdikləri kimi taksi xidməti ilə məşğul olanlar da eyni tələblər əsasında fəaliyyət göstərməlidirlər.**

Günün söhbəti

# Təbii və təsirli müalicə üsulu – fizioterapiya və reabilitasiya

**Əsas məqsədi xəstənin patologiyasına əsaslanaraq fiziki sağlamlığı bərpa edib onun normal həyat keçirməsinə imkan yaradan, tibbin ən təhlükəsiz müalicə vasitələrindən biri fizioterapiya və reabilitasiyadır. Bu müalicə üsullarından hələ qədim dövrlərdən istifadə edilir. Oynaq, baş, sümük, əzələ ağrılarında, bir qayda olaraq, fizioterapevtlərə müraciət edir, dərdimizə dəva axtarırıq. Belə müalicələrin 100 faiz ağrıları götürdüyünə çoxumuz şahidik.**



Bu müalicənin təsiri və qalıcılığı həmişəlikmi, yoxsa müvəqqətidirmi? Yaşından asılı olmayaraq hamıya tətbiq edilə bilərmi? Bu suallarla Azərbaycan Tibb Universitetinin Travmatologiya və ortopediya kafedrasının tədris işləri üzrə müdir müavini, Tədris Cərrahiyə Klinikasının fizioterapiya və reabilitasiya şöbəsinin müdiri, dosent Nurlana Əliyevadan müsahibə aldıq.

**– Doktor, fizioterapiya və reabilitasiya nədir, orqanizmin sağlamlığını bərpa etmək üçün hansı üsullar daha uyğun və mükəmməldir? Bu müalicə hansı xəstələrə və nə zaman tətbiq edilir?**

– Fizioterapiya çox geniş bir məfhumdur. Bu müalicə üsulu reabilitasiya ilə bağlı olan, əksər hallarda birgə tətbiq edilən böyük qollardır. Yəni fizioterapiyanı reabilitasiyasız, reabilitasiyanı fizioterapiyasız düşünmək olmaz. Soruşa bilərsiniz: – Niyə? – Çünki bütün nevroloji, neyrocərrahiyə, travmatoloji xəstəliklərin hər birində əməliyyatdan öncə və əməliyyatdan sonra fizioterapiyaya çox böyük ehtiyac var. Hətta, doğuşdan sonrakı mərhələdə qadınlara bəzən fizioterapiyaya göstəriş olur. Doğuş zamanı yaranan hər hansı fəsad, yaxud qeysəriyyə əməliyyatından sonrakı mərhələdə çox cüzi də olsa patologiyanın olması xəstənin sonrakı normal həyata dönüşünə təsir göstərir.

Nevroloji xəstələrin hər biri, keçirdikləri hemoragik və işemik insultdan, hər hansı nevritdən, nevralgiyalardan sonra onlara nə qədər konservativ müalicə aparılsa da, fizioterapiyasız istənilən nəticəni almaq mümkün olmur. Ona görə də xəstə mütləq fizioterapevtə müraciət etməlidir və orada elektroterapiyadan, maqnitoterapiyadan və fizioterapiyanın digər müxtəlif üsullarından istifadə edilərək müalicə almalıdır.

**– Fizioterapiya və reabilitasiya hansı üsullarla aparılır?**

– Orqanizmin sağlamlığını bərpa etmək yolları hava vannaları, adi su ilə, mineral sularla, süni günəş işığı vasitəsilə, isti və ya soyuqla müalicə, elektriklə, elektromaqnitlə, təzyiqlə (baroterapiya), mexaniki təsirlərlə, massaj, banka qoyma, müalicəvi bədən tərbiyəsi, buğa vermə ilə müalicə üsullarıdır. Fizioterapiyanın lazerlə müalicə, diadinamoterapiya, amplipulsterapiya, transkranial və mikropolyarizasiya, miostimulyasiya, müxtəlif mexaniki təsirlərlə qızdırıcı şüalanma, krioterapiya bölmələri vardır. Müalicə lazeroterapiya, elektrofarez, inhalasiya, aerozol terapiyası, elektrostimulyasiya, vaporizasiya, ultrabənövşəyi, həmçinin infraqırmızı şüalarla, maqnitoterapiya, elektosonoqrafiya, refleksoterapiya, darsanvalla, qısa dalğalı diatermiya (UVÇ aparatı) ilə aparılır.

Fizioterapiya ilə xəstədə ağırlaşma dərəcəsi götürüldükdən sonra müalicənin reabilitasiya hissəsi başlayır. O reabilitasiyanın içərisində masaj da var, müalicəvi idman hərəkətləri də. Reabilitasiya da çox geniş sahəni əhatə edir. Osteoxondroz, spinal protruziya, yırtıqlar, skolioz, lordoz, kifoz, ətraf əzələlərin asteniyası, onurğa sütununu bərpa etmək, post travmatik reabilitasiyalar (sınıqlar, menisk yırtıqları, çapıqlar və s.), Lor xəstəlikləri (tonzilitlər, allerqik rinitlər, haymorit və s.) və Ağ ciyər xəstəliklərində (bronxial astma, xroniki bronxitlər, pnevmoniya) reabilitasiyanın böyük rolu var.



**– Müalicə müddəti nədən asılıdır?**

– Təbii üsulların hər birindən və ayrı-ayrı mərhələlərdən keçməklə xəstənin müalicəsi aparılır. Gün keçdikcə, vəziyyətinə uyğun olaraq ona dəyişik müalicə təyin edilir. Məsələn, yataq xəstəsində fizioterapiya aparılır, amma passiv reabilitasiya tətbiq edilir. Müalicə müddətində xəstədə nisbətən aktivlik göründükdə xəstənin öz köməyindən istifadə etməklə, fizioterapevtin iştirakı ilə müalicə davam edir. Nəhayət, xəstə oturmuş vəziyyətə gəlirsə, ayağa qalxa bilirsə, bundan sonra reabilitasiyanın başqa üsullarından istifadə olunur. Bunlar sayca çoxdur və geniş məfhumdur.

Bir kurs müalicə tamam olanda gedişata baxılır. Elə xəstə olur ki, biz 10 gün müddətində nəticə ala bilirik. Xəstə olur ki, 20 gün, 1 ay prosedur aparılır. Elə xəstələr də olur ki, 1 ay proseduralar aparıldıqdan sonra, arada fasilələr verməklə, onlara vəziyyətlərinə uyğun 1 ay, 3 ay, ən geci 6 ay sonra təkrarən fizioterapiya müalicəsi təyin olunur. Amma reabilitasiya başqadır. Belə ki, fasilələr verməklə, həftədə 2 dəfə, 15 gündən bir, yaxud ayda 2–3 dəfə xəstələr gəlib məsləhətlər alır və klinikada olmasa da, evdə verilən lazımi tapşırıqları yerinə yetirməlidir. Sonra biz onlara baxıb yenidən prosedurları, yəni reabilitasiyanın növlərini dəyişməklə istədiyimiz lazımi nəticəni əldə edirik.

**– Hansı hallarda bu təbii müalicə üsulları tətbiq edilir?**

– Saydıqlarımızdan əlavə travmatoloji xəstələr, zədə alanlar konservativ müalicə alırsa, onlara ilk günlərdən reabilitasiya aparılır. Tutaq ki, aşağı ətrafda sınıq, çıxıq, əzikdən sonra mobilizasiya (yumşaq toxuma xəsarətləri) olunub, gips sarğısındadır, yaxud, onlara müvafiq langet və ya başqa sarğı qoyulubdur. Belə olan halda aşağı ətrafın digər tərəfləri passiv olmasın deyə o hissələrdə fizioterapiya aparılır. Konservativ müalicədən sonra, yəni gips sarğısı açıldıqdan sonra o xəstələrə fərqli fizioterapiya və reabilitasiya tətbiq edilir. Çünki əzələ atrofiya olmamalıdır, dərinin turqoru (elastikliyi) qayıtmalıdır, innervasiya (bədənin və ya toxumanın qeyri-bərabər elementlərlə təchizi) bərpa olunmalıdır və atrofiyaların qarşısı alınmalıdır.

Bundan əlavə insanların yaşlandıqca oynaqlarında kontrakturalar (yumşaq toxumanın bərkiməsi) başlayır, sonra artrozlar yaranır. Bu kontrakturaları aradan götürmək, yəni onların dərinləşməsinə imkan verməmək üçün hökmən həmin xəstədə fizioterapiya və reabilitasiya başlanmalıdır.

Bəzi neyrocərrahiyə xəstələrində əməliyyata götürülməzdən öncə də fizioterapiya təyin olunur. Belə xəstələrdə reabilitasiya birbaşa göstərişdir. Baş beyində onkoloji şiş aşkarlanan, əməliyyat olunan xəstələrə reabilitasiya – fizioterapiya əks göstərişdir. Bəzi ekstremal hallarda isə həyati göstərişlə periferiya da aparmaq mümkündür. Yəni, baş beyində əməliyyat aparılır, aşağı ətraflar işləmir. Belə olanda xəstə əməliyyat olunduqdan sonra, elə ilk gündən neyrocərrahın məsləhəti ilə bir yerdə o xəstələrin böyük əksəriyyətinə fizioterapiya və reabilitasiya təyin olunur. Reabilitasiya fizioterapiyadan fərqli olaraq əməliyyat olunan xəstələrin hamısına tətbiq edilir. Reabilitasiya olmadan xəstənin əvvəlki həyatını bərpa etmək, fizionomiyasını düzəltmək, onu sağlamlığına qovuşdurmaq mümkün deyildir.

Onu da qeyd edim ki, fizioterapiyanın yuxarıda sadalanan bütün bölmələrinin hərəsinin özünəməxsus müalicə üsulları vardır. Fizioterapevtik müalicə xəstənin sağalmasını sürətləndirir və onun nadir hallarda fəsadları meydana gəlir. Müalicəvi bədən tərbiyəsi xəstələrin sağalmasına müxtəlif idman hərəkətlərinin tətbiqi ilə fayda verir. Geniş istifadə edilən elektrofarez və fonofarez müalicəsi isə fizioterapiya və farmakologiya sahələri arasında qalan müalicə vasitəsidir. Belə ki, bu müalicə zamanı dərman preparatları insan orqanizminə elektriklə dəridən ötürülür. Dərialtı toxumalara ultrasəs və ya elektriklə dərman preparatlarının ötürülməsi dərman preparatlarının orqanizmin istənilən sahəsinə yerli olaraq tətbiq edilir. Massaj bədənin istənilən nahiyəsinə tətbiq edilməklə sağalmanı sürətləndirir. Müalicə məqsədilə müxtəlif massaj növlərindən (vibrasiyalı, vakkumla, dairəvi, döyəcləmə və s.) istifadə edilir.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Heç kim darda qalmasın!

# Sosial müdafiə sistemi yeni mərhələdə

**Ölkəmizdə sosial müdafiə sahəsində aparılan məqsədyönlü islahatlar, həyata keçirilən sosial proqramlar, icra edilən layihələr uğurla davam etdirilir. İstər işğaldan azad edilmiş ərazilərə qayıdışla bağlı Qarabağda sakinlər üçün icra olunan məşğulluq proqramları, istərsə də ayrı ayrı-ayrı bölgələrdə əhalinin məşğuliyyəti, şəhid ailələrinin və qazilərin qayğıları diqqətdə saxlanır.**

Azərbaycan sosial sahədə həm də beynəlxalq əməkdaşlığa önəm verir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən XQ-yə verilən məlumata görə, qurumda BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvo ilə keçirilən görüş də məhz sosial müdafiə sisteminin inkişafı üçün görülən tədbirlərə həsr olunub.

Mərasimdə Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qurumla BMT İnkişaf Proqramı arasında uğurlu əməkdaşlıq təcrübəsini diqqətə çatdırıb. Ölkəmizdə aparılan sosial islahatlar, DOST Konsepsiyası barədə məlumat verilib. Bu islahatların uğurlarının beynəlxalq səviyyədə də yüksək dəyərləndirilərək xüsusi mükafatlara layiq görüldüyü bildirilib. Sosial müdafiə sisteminin gücləndirilməsi üçün görülən işlər və əldə olunan nailiyyətlər vurğulanıb.




BMT İnkişaf Proqramı ilə ötən dövrdə icra olunan “Əlilliyi olan qadınların və müharibə veteranlarının hüquqlarının və rifahının təmin edilməsi”, “Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması”, “İşçi Qüvvəsinin Bərpası Təşəbbüsü” və s. kimi birgə layihələrin əlilliyi olan şəxslər və digər həssas qrupların sosial dəstəklə əhatə olunması, onların məşğulluğunun və özünüməşğulluğunun dəstəklənməsində əhəmiyyəti qeyd olunub.

A.Rokkasalvo həssas qrupların sosial müdafiəsi, onların əmək bazarına, habelə kiçik biznesə çıxış imkanlarının artırılması işlərində birgə fəaliyyət təcrübəsindən məmnunluğunu ifadə edib. Mərasimdə qeyd edilən layihələrin nəticələrinə və gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Ölkəmizdə sosial sahədə əldə olunan rəqəmsal nailiyyətlərə beynəlxalq səviyyədə də yüksək qiymət verilir. Bunun növbəti təzahürü kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Sinqapurun “GovInsider” təşkilatı tərəfindən “İnnovasiyalar Konfransı–2024” tədbiri çərçivəsində keçirilən “İnnovasiya Mükafatları–2024” müsabiqəsində uğur qazanaraq “Rəqəmsal Cəmiyyət Mükafatı” kateqoriyası üzrə xüsusi mükafatla təltif olunub.

Qeyd etməliyik ki, qurum münsiflər heyəti tərəfindən əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin geniş tətbiqinə görə bu mükafata layiq görülüb.

“GovInsider” təşkilatı dövlət sektorunda innovasiyaları təşviq etmək üçün fəaliyyət göstərən geniş platformadır. Təşkilatın keçirdiyi “İnnovasiyalar Konfransı-2024”-də 27 ölkədən dövlət sektorunda çalışan 1600-dan çox mütəxəssis iştirak edib. Tədbirdə məqsəd dövlət sektorunda transformasiyaları bir platformadan təqdim etməklə bu sahədə qabaqcıl təcrübələrin beynəlxalq səviyyədə tanıdılması və onların geniş tətbiqinin təşviq edilməsi olub.

Konfransda iştirakçılar üçün maraqlı müzakirələr, təqdimatlar və ictimai sektorun transformasiyası sahəsində əsas problemlər və imkanlardan bəhs olunan interaktiv sessiyalar təşkil edilib. Qeyd edək ki, nazirliyin vətəndaşlara təqdim etdiyi 159 xidmətin 140-dan və ya 90 faizindən çoxu elektronlaşdırılıb, e-sistem üzərindən 50-dən çox proaktiv xidmət yaradılıb.

Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisələri və ixtisaslaşmış sosial xidmət mərkəzləri fəaliyyət göstərir. Məqsəd reabilitasiyaya, sosial dəstəyə ehtiyacı olanların qayğılarını həll etməkdir. Həmin müəssisələr və mərkəzlər vasitəsilə yanvar–fevral aylarında 500-dən çox uşağa reabilitasiya yönümlü sosial xidmətlər göstərilib.

Onlardan 356 uşaq agentliyin müəssisələrində stasionar və yarımstasionar şəraitdə sosial xidmətlərlə təmin edilib. Əlilliyi olan 149 uşaq isə qurumun ixtisaslaşmış sosial xidmət mərkəzlərində yarımstasionar sosial xidmətlərə cəlb edilib. Son iki ayda həmçinin qurumun sosial sifarişləri əsasında 2 min 600 nəfər əlilliyi olan uşağın asudə vaxtının səmərəli təşkili məqsədilə tədbirlər də təşkil olunub.

Onu da qeyd edək ki, ehtiyacı olanların reabilitasiya vasitələri ilə evlərdə təminatı davam edir. Bu ilin 2 ayında nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi yaşayış yerini tərk etməkdə çətinlik çəkən 369 nəfər əlilliyi olan şəxsi evlərində (səyyar) reabilitasiya xidmətləri ilə təmin edib.




Əlillərə 900-dən çox reabilitasiya xidməti göstərilib. Qeyd edək ki, səyyar xidmətlərdən yararlanmaq istəyən əlilliyi olan şəxs (və ya onun qanuni nümayəndəsi) nazirliyin “142” Çağrı mərkəzinə, eləcə də DOST mərkəzləri və ya ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyasına müraciət etməlidir. Bundan sonra müraciətə əsasən agentliyin müvafiq reabilitasiya mərkəzinin həkim və psixoloqlarından ibarət səyyar briqadası əlilin yaşadığı ünvana gedərək, onun ilkin müayinə və qiymətləndirməsini aparır. Daha sonra əlilliyi olan şəxslə bağlı fərdi plan tərtib olunaraq bu plan əsasında ona müəyyən olunmuş müddət ərzində həkim və psixoloq müayinəsi, loqoped seansı, müalicəvi masaj, müalicəvi bədən tərbiyəsi, əmək terapiyası və s. üzrə reabilitasiya xidmətləri göstərilir.




Onu da qeyd edək ki, hazırda ölkəmizdə 1800-ə yaxın daun sindromlu əlilliyi olan şəxs də var. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində daun sindromlu əlillər də reabilitasiya xidmətləri ilə təmin edilirlər. Bu xidmətlərə sosial-psixoloji reabilitasiya, yoqa, ippoterapiya, dance ability (rəqs terapiyası) və s. daxildir.

Mərkəzlərdə daun sindromlu əlillər stasionar və ambulator xidmətlərlə yanaşı, icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətlərlə təmin olunurlar. Daun sindromlu əlillər agentlik tərəfindən həftədə bir dəfə ippoterapiya (atlarla terapiya) xidmətlərinə də cəlb edilir. Beynəxalq təcrübəyə əsaslanan bu terapiya üsulu daun sindromlu əlilliyi olan şəxslərlə yanaşı, eyni zamanda autizm spektr pozuntusu, serebral iflic, nitq qüsurları və s. olan uşaqların sosial-psixoloji və fizioterapevtik reabilitasiyasına müsbət təsir göstərir.

Son olaraq bir xəbəri də çatdırmaq yerinə düşər ki, aprelin 2-dən Azərbaycanda ilk sosial televiziya nümunəsi olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni layihəsi DOST TV – internet televiziyası fəaliyyətə başlayacaq. Nazirliyin internet resursu olan DOST TV yayım konsepsiyasında əsasən əmək, məşğulluq, sosial müdafiə və sosial təminat mövzuları əhatə olunacaq.

DOST TV izləyicilərinə sosial yenilikləri, islahatlar, yeni layihələr, qanunvericilik və sosial hüquqlar, dövlət sosial xidmətləri barədə dolğun məlumatları çatdıracaq. Yeni TV izləyiciləri ilə birbaşa təmasda, canlı yayım rejimində çalışacaq. Profilinə uyğun informativ xarakterli verilişləri yayımlamaqla yanaşı, sosial şəbəkə istifadəçilərinin sosial məsələlərlə bağlı sualları da nazirlik rəsmilərinin iştirakı ilə birbaşa cavablandırılacaq. Digər dövlət qurumları, vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıqda fəaliyyət göstərəcək DOST TV həmin qurumların, QHT nümayəndələrinin, ekspertlərin iştirakı ilə sosial mövzularda təhlil və diskussiyalara, müzakirələrə də daim açıq olacaq.

***Z.BƏŞİRQIZI***
***XQ***

## Nobel Sülh mükafatçısı Azərbaycan rektorunun müşaviridir

**Nobel Sülh mükafatı laureatı, UNEC-in fəxri professoru Muhammad Yunus Azərbaycan Dövlət İqtisad Universitetinin rektoruna müraciət edib.**



Alim UNEC rektorunun müşaviri kimi universitetin missiyasına töhvə vermək istəyini bildirib. Müraciəti nəzərə alaraq, rektor prof. Ədalət Muradov Nobel mükafatı laureatı, professor Muhammad Yunusu müşavir təyin edib.

Xatırladaq ki, Muhammad Yunus 2017-ci ildə UNEC-də keçirilən “Sosial biznes – inkişafa gedən yol” mövzusunda beynəlxalq konfransda çıxış etmiş və ona ali məktəbin Fəxri professoru diplomu təqdim olunmuşdur.

Bu il martın 16-da isə Muhammad Yunusun iştirakı ilə UNEC-də Yunus Sosial Biznes Mərkəzinin (YSBM) açılışı olub və Nobel mükafatçısı burada ilk mühazirəsini sosial biznes sahəsinin problemlərinə həsr edib.

***XQ***

## Sığorta bazarı böyüyür

**Mərkəzi Bankın məlumatına görə, cari ilin yanvar–fevral aylarında respublikamızdakı 17 sığorta şirkətinin xətti 239 milyon 719 min manat sığorta haqqı toplanılıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 8,4 faiz çoxdur.**

Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 97 milyon 434 min manat təşkil edib. Bu isə illik müqayisədə 38,2 faiz çoxdur.

Ötən 2 ayda sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 40,6 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə bu göstərici 31,9 manat olub.

***XQ***

Yaddaşlarda yaşayanlar

# Səhnə şəhidi Ərəblinski

## *Onun adı teatr tariximizə qızıl həfrlərlə yazılıb*

**Haqqında söhbət açmaq istədiyimiz aktyor və rejissor, Azərbaycan peşəkar teatr sənətinin banilərindən sayılan Hüseyn Ərəblinski cəmi 38 il yaşamasına baxmayaraq, mədəniyyətimiz üçün böyük işlər görüb. O 1905-1919-cu illərdə dövrün bütün çətinliklərinə sinə gərərək əsl fədakarlıq nümunəsi göstərib.**

Düz 55 il əvvəl Hüseyn Ərəblinskinin xatirəsini əbədiləşdirmək üçün yeni yaranan Sumqayıt Dövlət Dram Teatrına onun adı verilib. O vaxtdan görkəmli sənətkara aid olan bütün məlumatları maraqla izləmiş, haqqında daha çox bilgi əldə etmək istəmişik. Onun ruhunun dolaşdığı bu sənət məbədində bir sıra uğurlu premyeraların, çeşidli mədəniyyət tədbirlərinin şahidi olmuşuq…

Dənizçi ailəsində doğulan Hüseyn XIX və XX əsrlərin hərəsində 19 il yaşayıb. İlk təhsilini mollaxanada alıb. Həbib bəy Mahmudbəyovun açdığı dünyəvi "Üçüncü rus-tatar" məktəbində təhsilini davam etdirib. O, ilk dəfə 16 yaşında – 1897-ci ildə səhnəyə çıxıb və sənət yoluna epizodik rolların ifası ilə başlayıb. Artıq 1904-cü ildə təşkil olunan "Müsəlman artistləri cəmiyyəti"nin fəal üzvü olub.



Onun böyük səhnəyə gəlişi 1905-ci ilə təsadüf edib. Teatr tariximizdə ilk qastrol sayılan Lənkəranda Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində əvəzedici kimi baş rolu ifa etməsi gənc aktyor üçün düşərli olub. Beləcə, ona etimad getdikcə artıb. Tezliklə teatr ictimaiyyətində aktyor kimi parlayan Hüseyn Ərəblinski "Nicat" teatr cəmiyyətinə baş rejissor və aktyor kimi dəvət alıb.

Teatr aləmində aparıcı simalardan olan Hüseyn yalnız özünün sənət yüksəlişi ilə kifayətlənməyərək, teatr mühitində bir sıra dəyişikliklər edib. Məsələn, əldə bilet satmağa, qapı-qapı gəzib tamaşaçı toplamağa qadağa qoyub və aktyorlara məvacib müəyyənləşdirib. Eyni zamanda rus dramaturgiyasının gözəl nümunələrinin Azərbaycan səhnəsində tamaşaya qoyulmasında mühüm rol oynayıb. Teatr fədaisinin belə "ilk"ləri çox olub.

O, 1907-ci ildən etibarən tarixi obrazları məharətlə canlandırmağa başlayıb. Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" əsərində baş rolu xüsusilə möhtəşəm ifa edib. Dövrünün mətbu mənbələri Hüseyn Ərəblinskinin Qacarı realist tərzdə oynadığını vurğulayıb. Teatrşünas Məsməxanım Qubadovanın "Ərəblinski teatrı" kitabında göstərilir ki, Ərəblinskini baş rola böyük mütəfəkkir Əli bəy Hüseynzadə məsləhət görüb.

Ərəblinskinin görkəmli rejissor kimi sənətə bələdliyini Xalq artisti Sidqi Ruhulla məxsusi qeyd edib: "1906-cı ildə "Müsibəti-Fəxrəddin" tamaşasını hazırlamaq istəyirdik. Hüseyni bir rejissor kimi dəvət etməyi qərara aldıq. Biz öz rollarımızı yazıb Hüseyni dəvət elədik. Hüseyn gəlib rolları bölmək üçün kitabı istədi. Ona "öz rollarımızı yazmışıq", – deyə cavab verdik. Ərəblinski məğrur baxışı ilə üzümüzə baxdı və birdən ayağa qalxıb paltosunu götürdü və dedi: "Qayda budur ki, hazırlanan əsərin rol bölgüsünü aparım. Əgər belə olmasa, mən gedərəm!"

Görkəmli sənətkar, bax, belə prinsipial xarakterin sahibi olub. Xalq artisti Mustafa Mərdanov Hüseyn Ərəblinskinin insani keyfiyyətlərini xatırlayaraq yazıb: "Tiflisdə tamaşa verməli idik. Afişada Ərəblinskinin adı rejissor kimi yazılmışdı. Etiraz edib adını pozdurdu və Tiflis səhnəsinin aktyoru Mirzəli Abbasovun adını afişaya yazdırdı". Bu hadisədən sonra o Tiflis teatr mühitində də sevgi qazanıb.

Teatr aləmində yayılan şöhrəti sənətkarın filmə də çəkilməsinə səbəb olub. Kinorejissor Boris Svetlov 1916-cı ildə İbrahim bəy Musabəyovun eyni adlı povesti əsasında "Neft və milyonlar səltənətində" tammetrajlı filmini ekranlaşdıranda Lütfəli bəy roluna Hüseyn Ərəblinskini dəvət edib.

Sənətkara xalq sevgisi tükənməz olub. Elə onun izdihamlı dəfn mərasimi bu barədə çox şey deyir. Yazıçı, Əməkdar incəsənət xadimi Manaf Süleymanlı özünün məşhur "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında dəfn günü milliyyətindən asılı olmayaraq minlərlə insanın Bakı küçələrinə töküldüyünü yazıb. Jurnalist Elnur Aslanbəylinin araşdırmasına görə, ölümünün ilk günlərində əksəriyyət onun qətlini aktyorluğu seçdiyinə, qadın rolunu oynamaq üçün bığını qırxdırdığına görə yaxınlarının və mühafizəkar dairələrin qəzəbinə düçar olması ilə əlaqələndirib.

Hüseyn Ərəblinskinin matəm mitinqində orkestr musiqilər ifa edib. Tabut Quberniski (indiki Nizami) küçəsinə gətirilib. Burada və yolüstü "Müqəddəs Nina" məktəbinin qarşısında böyük bəstəkar və publisist Üzeyir Hacıbəyli aktyor haqqında alovlu nitq söyləyib, ardınca Məhəmmədəli Sidqi, həmin vaxt Bakı texniki məktəbində təhsil alan Cəfər Cabbarlı, Xəlil İbrahim, şair-ədəbiyyatşünas Salman Mümtaz, Hənəfi Zeynallı, qocaman aktyor Mirzə Muxtar danışıblar.

Ərəblinskinin dəfninə xeyli cümhuriyyətçi də qatılıb, onların önündə isə Məhəmməd Əmin Rəsulzadə gedib. "Azərbaycan" qəzetinin 9 mart 1919-cu il tarixli sayında bu barədə məlumat və Rəsulzadənin nitqinin məzmunu verilib. Oradan aydın olur ki, Məhəmməd Əmin aktyorun vətən və millət qarşısındakı xidmətlərini xüsusi vurğulayıb, müqtədir sənətkarın qətlindən acı təəssüfünü dilə gətirib.

Bəli, Hüseyn Ərəblinski fədakarlıq nümunəsi idi. Azərbaycan teatrının tarixinə onun adı qızılı hərflərlə yazılmışdır.

***Ceyhun MİRZƏLİ,***
***Əli NƏCƏFXANLI***
***XQ***

Bir şəklin tarixçəsi

**Dünya ədəbiyyatının bənzərsiz örnəklərini yaratmış Çingiz Aytmatov haqqında kitab üzərində işləyərkən mütəfəkkir yazıçı barədə eşitdiklərimi də yazıya aldım.**

...1985-ci il oktyabrın 23-ü idi. Həmim gün atamla (dövrünün tanınmış ədəbiyyatşünası İmamverdi Əbilovla – red.) Bakıda idik. Atamın nəsə işi var idi. Telefonla Bəxtiyar müəllimlə – Xalq şairi Bəxtiyar Vahabzadə ilə danışdı və Bəxtiyar müəllim atamı evlərinə dəvət etdi. Axşam onlara gəldik. Bəxtiyar müəllim Çingiz Aytmatovdan danışırdı:

# Çingiz Aytmatov uzaqgörənliyi

## O, SSRİ-nin süqut edəcəyini 6 il öncə Bəxtiyar Vahabzadəyə söyləmişdi

– Çingizə zəng etmişdim. Mənimlə görüşmək istədiyini dedi. Frunzeyə getdim. Onunla görüşərkən məlum oldu ki, Çingiz bir gündən sonra təçili Moskvaya getməlidir. Əvvəlcədən planlaşdırılmayan xariçi səfəri var imiş. Bütün gecəni yatmayıb Çingizlə söhbət etdik...





Bəxtiyar Vahabzadəni tanıyanlar, görənlər bilir. Həyəçanlananda qəfil, ani çəkən əsməsi, titrəməsi olardı. Bütün varlığı bir anlıq titrəyərdi. Bir də qəribə siqaret çəkməyi vardı. Həyəcanlı olanda yandırdlğı siqareti 2-3 nəfəs alandan sonra külqabında söndürər, az keçməmiş yenisini yandırardı. Əgər həyəcanı keçməyibsə, həmin siqareti də bir neçə nəfəs alandan sonra külqabında söndürərdi.

Çingiz Aytmatovla görüşündən danışan Bəxtiyar müəllim həyəcanlı idi. Az keçməmiş onun həyəcanının səbəbi bizə də məlum oldu. Bəxtiyar müəllim atama müraciətlə:

– Çingiz Sovet dövlətinin tezliklə çökəcəyini deyir, – söyləyib təzə siqaret yandırdı. – Cingiz deyirsə, demək, o hadisə baş verəcək... Bunu Çingiz deyirsə, demək nə isə bilir ki, deyir... O heç vaxt boşuna söz deməz... Bir də onlarla (Sovet rəhbərlərini nəzərdı tututdu) yaxındı axı...

Təsəvvür edin. 1985-çi il. Sovet dövlətinin mənəm-mənəm vaxtları. Azərbayçanın böyük şairi Bəxtiyar Vahabzadə o vaxt üçün ağla batmayan söhbət edir. Və o, bu sözü ölkənin, yəni SSRİ-nin ən böyük mədəniyyət xadimlərindən biri olan, dünyanın ən böyük yazıçılarından biri kimi dəyərləndirilən Çingiz Aytmatovdan eşidib. Və bu təhlükəli söhbəti ən yaxın dostlarından biri hesab etdiyi atama danışır.

...Bəxtiyar müəllim nə qədər həyəcanlıdırsa, bir o qədər də ruhən, qəlbən məmnundur. Nifrət etdiyi bir quruluşun tezliklə məhv olacağına tam inanır. Hardasa, əvvəlcədən o günün xöşbəxtliyini yaşayan kimi görünür.

...Yenə də Cingiz Aytmatovdan danışır. Kitab dolabının qarşısına Çingizlə Frunzedə çəkdirdiyi şəklini qoyub. Mən şəkli Bəxtiyar müəllimdən istəyirəm. Şəkli götürüb mənə verir. İmzalamasını xahiş edirəm. Onu da edir... İndi olsaydı, elə etməzdim, amma o vaxt gənc idim. Bəzən iştəklərim sərhədi keçirdi. Bunu ona görə yazıram ki, Bəxtiyar müəllimdən xahiş edirəm, bu nadir şəklin arxasına adlı (yəni mənim adıma) avtoqraf yazsın. Bəxtiyar müəllim yazır. Amma mənim adımdan əvvəl, özünün dediyi kimi, əqidə dostu olan atamın adını yazır...

***Etibar ƏBİLOV,***
***yazıçı-publisist***

# Soyqırımı qurbanları anılıblar

**1918-ci ilin martın sonunda Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə daşnak erməni silahlı dəstələrinin törətdikləri qətliamlar əsl terror aktları kimi tarixə düşüb. Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb.**

Azərbaycan Milli Kitabxanasında soyqırımı qurbanları anılıb. Tədbiri açan Milli Kitabxananın direktoru, professor Kərim Tahirov qeyd edib ki, Ulu öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Həmin vaxt erməni millətçiləri mifik ideyalarını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə və soyqırımlar həyata keçiriblər. Daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş qırğınlar zamanı Azərbaycanın müxtəlif ərazilərindən 30 mindən çox azərbaycanlı qətlə yetirilib, 10 minlərlə insan öz torpaqlarından qovulub. Natiq əlavə edib ki, bu gün biz 31 mart soyqırımına dair daha çox kitablar yazmalı, müxtəlif dillərə tərcümə etməli və erməni daşnakları tərəfindən azərbaycanlıların başına gətirilən bəlaları, faciələri geniş təbliğ etməliyik.

Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "31 Mart Azərbaycanlıların soyqırımı günü" adlı elektron məlumat bazası, "31 Mart Tarixi yaddaşımızdan silinməyən soyqırımı" adlı virtual sərgi onlayn rejimdə, eləcə də "31 Mart Azərbaycanlıların soyqırımı günüdür" adlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim edilib. Elektron Məlumat bazasında "Rəsmi sənədlər", "Görkəmli şəxslər Mart soyqırımı haqqında", "Kitablar", "Məqalələr", "Filmoqrafiya", "Soyqırım yaddaşlarda" və s. özündə əks etdirən materiallar nümayiş olunur.

Ənənəvi kitab sərgisində 31 Mart soyqırımı, eləcə də, tarix boyu erməni millətçilərinin xalqımıza qarşı törətdiyi qətliamlar haqqında həqiqətləri dünyaya çatdıran Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar oxuculara təqdim edilir.

***XQ***

# Çingiz Abdullayev Milli Konservatoriyada



**Dünən Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Xalq yazıçısı Çingiz Abdullayevlə Milli Konservatoriyada tələbə və müəllim heyətinin görüşü olub.**

Konservatoriyanın rektoru, professor, Xalq artisti Siyavuş Kərimi, hörmətli qonağı səmimi salamlayıb.

Çingiz Abdullayev cəmiyyətdə oxu mədəniyyətinin formalaşmasının önəmindən bəhs edərək bildirib ki, insanları işıqlı sabahlara aparan vasitələrdən biri də mütaliədir. Kitablarla dost olanların həyat yollarında mənəvi kompasa ehtiyacı olmur. Təsadüfi deyil ki, qələm sahiblərinin peşəkarlığına da mütaliə fəal təsir göstərir.

Görüşdə Çingiz Abdullayevin yaradıcılığından ətraflı bəhs edilib. Onun "Mavi mələklər", "Bakı bulvarı", "Alçağın üslubu", "Qanın üç rəngi", "Mənim gözəl alibim" və sair əsərləriilə bağlı fikir mübadiləsi aparılıb. Xalq yazıçısı tələbə və müəllimlərin suallarını cavablandırıb.

Sonda yazıçı kitablarını avtoqrafla oxucularına təqdim edib.

***Fuad CƏFƏRLİ***
***XQ***

# Muxtar Naxçıvanın ədəbi mühiti

**Cəlil Məmmədquluzadə adına Naxçıvan Ədəbiyyat Muzeyində muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş "Muxtariyyət dövründə Naxçıvan ədəbi mühiti" mövzusunda toplantı keçirilib.**



Məclisi giriş sözü ilə açan muzeyin direktoru Aləmzər İbrahimova bildirib ki, Naxçıvan Azərbaycanın çoxəsrlik keçmişində layiqli yer tutub, xalqımızın ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynayıb. Qədim türk yurdunun ədəbi-bədii irsi və söz yaradıcılığı ənənələri milli ədəbiyyatımıza mövzu əlvanlığı, ideya-məfkurə siqləti gətirib.

Naxçıvan ədəbi mühitinin ölkəmizin ədəbiyyatına parlaq ədəbi simalar, qiymətli əsərlər bəxş etdiyindən danışan Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Asim Əliyev muxtariyyət dövründə diyarın qələm sahiblərinin yaradıcılığından ətraflı bəhs edib, ünlü sənətkarların həyat yolundan söz açıb.

Azərbaycan Yazıçılar Birliyinin üzvlərindən Elxan Yurdoğlu, Təranə Arifqızı, Kəmalə Nəsrin, Məftunə Nur, Əzizə Həsənova, Gulsadə İbrahimli Naxçıvan ədəbi mühitinin özünəməxsusluğunu qeyd ediblər, parlaq nümayəndələrini xatırlayıblar. Şairlər Səbinə Əlincəli, Alməmməd Eldaroğlu, Aytəkin Səfərəliyeva, Sevinc Səbzəliyeva Naxçıvana, onun insanlarına həsr edilmiş şeirlərini söyləyiblər.

Sonda iştirakçılar ədəbiyyat Muzeyini ziyarət edib, "Naxçıvan Muxtar Respublikası–100" sərgisi ilə tanış olublar.

***XQ***

# Mədəniyyət xəbərləri



### Anev Türk mədəniyyətinin paytaxtı oldu

**TÜRKSOY-un Türkmənistanın Anev şəhərinin 2024-cü il üçün "Türk dünyası mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar açılış mərasimi keçirilib.**

Xatırladaq ki, ötən il Azərbaycanın Şuşa şəhəri "Türk dünyası mədəniyyət paytaxtı" seçilmişdi. Dekabr ayında isə ilin bağlanış mərasimi çərçivəsində Şuşada Türk Dünyası Mədəniyyət Paytaxtları Birliyinin ilk təsis konfransı olub və paytaxtlıq estafeti Anev şəhərinə verilib.

Anevdə tədbirin açılışında Türkmənistanın Baş nazirinin müavini Mahricemal Mamedova Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun tədbir iştirakçılarına ünvanladığı məktubunu oxuyub. Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova iştirak etdiyi mərasimdə daha sonra TÜRKSOY-un Baş katibi Sultan Raev nitq söyləyərək, Anev şəhərinin və bu torpaqların türkmən xalqının müqəddəs vətəni, böyük türkmən tarixinin və bənzərsiz mədəni irsinin mərkəzi olduğunu vurğulayıb. O bildirib ki, bu il TÜRKSOY tərəfindən yaranmasının 300 illiyi münasibətilə Türk dünyasında milli türkmən ədəbiyyatının klassiki, böyük şair Məhdimqulu Fəraqi ili elan olunub.

Daha sonra türk coğrafiyasından olan 9 ölkədən 650-dən çox sənətçi türk xalqlarının rəngarəng rəqslərini və musiqisini ifa ediblər.

### Oyun tərtibatçılarımız ABŞ-da

**Mədəniyyət Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) birgə əməkdaşlığı çərçivəsində Azərbaycanı təmsil edən komanda ABŞ-da keçirilən Oyun Tərtibatçıları Konfransına qatılıblar.**



Oyun sənayesi sahəsi mədəniyyət və yaradıcı sənayelərin önəmli klasterlərindəndir. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın müvafiq bəndinin icrası ilə əlaqədar Mədəniyyət Nazirliyi də sözügedən konfransda layiqincə təmsil olunub.

Qeyd edək ki, bu ilin mart ayında San Fransisko şəhərində keçirilən (Game Developers Conference) konfransda 4 ədəd oyun studiyası ("Dynamic Box", "Cool Bears", "Darts Games", "AzDimension") və 1 oyun inkubasiya mərkəzi ("Gamepons") iştirak edib.

"Gametech" Azərbaycanda yeni investisiyaları cəlb etməyə, hekayələr, qrafik dizayn və animasiya kimi sahələrdə çalışan mütəxəssislərin təkmilləşməsinə, mədəni irsin tanıdılmasına və qeyri-neft sektorunun şaxələndirilməsinə təkan verir.

### Ankarada Azərbaycan Evi



**Ankarada Keçiören Bələdiyyəsinin nəzdində yerləşən Esterqon Muzeyində Azərbaycan Evi açılıb.**

Azərbaycanın Türkiyədəki səfirliyinin dəstəyi ilə qurulan məkanda ölkəni tanıdan bir sıra nümunələr təqdim edilib. Azərbaycan və Türkiyə qardaşlığının simvolları, iki ölkənin bayraqları, dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın, Ümummilli lider Heydər Əliyevin fotoşəkillərinin yer aldığı Azərbaycan Evində digər nümunələr də diqqət çəkib. Burada Azərbaycan xalçaları, milli geyimləri, seramik və çini qablarda ölkəni simvolizə edən suvenirlər, rəsm əsərləri, musiqi sənətini əks etdirən tar, kaman, saz, qaval, balaban və ölkə haqqında məlumat lövhələri, kitablar yer alıb.

***Ə.DOSTƏLİ***
***XQ***

**Vaşinqton 20 ildən artıqdır ki, davam edən büdcə kəsirini ödəmək üçün borc pul alır. Bu da dövlət borcunun ildən-ilə və daha sürətlə artmasına gətirib çıxarır. Son vaxtlar Birləşmiş Ştatların tanınmış iqtisadçıları, maliyyə ekspertləri, politoloqları və iqtisadi mövzuda şərhlər yazan jurnalistləri ölkənin dövlət borcunun sürətlə artmasından ciddi narahatlıqlarını bildirirlər. Məsələn, "Fox News" qəzeti bu günlərdə dərc etdyi məqalədə bildirir ki, ABŞ-ın dövlət borcu kəskin sıçrayışlarla artır və bu, ölkənin iqtisadi gələcəyinin qaranlığa düşdüyündən xəbər verir. Nəşrin qeyd etdiyinə görə, dövlət xərclərinə diqqətin artmasına baxmayaraq, dövlət borcunun artım sürətini aşağı salmaq perspektivi yoxdur.**

# ABŞ-ın dövlət borcu sürətlə artır

## Belə getsə, bu "qayçı" ölkənin gəlirlərini "doğrayacaq"



Xəzinədarlıq Departamentinin nümayəndələri bildiriblər ki, martın 20-də günorta saatlarına kimi Amerikanın kreditorlara borcu 34 trilyon dollara yüksəlib. Bu, bir gün əvvəl açıqlanan rəqəmdən təxminən 21,1 milyard azdır. Müqayisə üçün qeyd edək ki, cəmi 40 il əvvəl ABŞ-ın dövlət borcu 907 milyard dollar səviyyəsində olub.

Xatırlayırsınızsa, 2021-ci ildə ABŞ hökuməti borc tavanını (hökumətin toplaya biləcəyi borcun ümumi məbləğinin qanunvericiliklə təsdiq edilmiş limiti) 31,4 trilyon dollar səviyyəsində müəyyən etdi. Amma bir il keçər-keçməz ölkənin borcu bu həddə çatdı. Belə olanda ABŞ-ın Maliyyə Nazirliyi limitin qaldırılmadığı təqdirdə defolt təhlükəsi ilə bağlı xəbərdarlıq etdi. Prezident Cozef Bayden və demokratlar heç bir şərt irəli sürmədən Konqresi borc tavanını qaldırmağa çağırdılar. Respublikaçılar isə öz növbəsində limitin artırılması müqabilində büdcə xərclərinin azaldılmasında israr etdilər. Nəticədə kompromis əldə olundu və yayda Bayden qanun imzaladı, ona görə də dövlət borcunun tavanı 2025-ci ilin yanvarına qədər ləğv edildi. Elə hər şey də bundan sonra başladı.

Bu gün iqtisadçılar Konqres və Ağ evin xərcləri ilə bağlı həyəcan təbili çalaraq gələcəyə dair çox bədbin proqnozlar verirlər. Büdcə idarəsinin son məlumatları göstərir ki, əhalinin qocalması və səhiyyə xərcləri fonunda növbəti onillikdə dövlət borcu heyrətamiz dərəcədə artaraq 54 trilyon dollara yüksələcək. Bu vəziyyət faiz dərəcələrinin artması ilə daha da ağırlaşır.

Mütəxəssislər bildirirlər ki, əgər bu borc maddiləşərsə, Amerikanın dünyadakı iqtisadi mövqeyi risk altına düşəcək. "Vəziyyət nəzarətdən çıxır və artıq Konqresin oyanma vaxtıdır", – deyə ekspertlər xəbərdarlıq edirlər.

Federal kəsirin azaldılmasının tərəfdarı olan "Peter Peterson Fondu"nun baş direktoru Maykl Peterson bəyan edib ki, "Amerikanın büdcə perspektivləri həmişəkindən daha təhlükəli və qorxuncdur. Bizim iqtisadiyyatımız və gələcək nəsillərin həyatı risk altındadır. Bu, bizim hər birimizin istədiyi gələcək və bizim ölkəmiz kimi böyük bir dövləti idarə etmək yolu deyil".

ABŞ-ın dövlət borcunun bu sürətlə artması gözlənilmədən "Fitch Ratings" agentliyinin hələ 2023-cü ilin ortalarında ölkənin uzunmüddətli kredit reytinqini aşağı salmağa vadar etmişdi. Agentlik ABŞ-ı AA+ səviyyəsinə endirərək ən yüksək AAA pilləsindən məhrum etmişdi. "Fitch" ölkənin getdikcə pisləşən maliyyə vəziyyəti və hökumətin kəskin siyasi fikir ayrılıqları fonunda artan borc yükünün öhdəsindən gələ biləcəyindən narahatlığını ifadə edirdi.

Bu narahatlığa əsas göz qabağında idi və elə ona görə də Mərkəzi Florida Universitetinin iqtisadçısı Şon Sneyt açıqlamasında bildirmişdi: "Bu, Amerika hökumətinə maliyyə vəziyyətini düzəltməli olduğu barədə xəbərdarlıq atəşidir. Siz hər il trilyonlarla dollar daha çox gəliri xərcləyib hər şeyin yaxşı olacağına ümid edə bilməzsiniz".

Maliyyəçilər qeyd edirlər ki, dövlət borcunun artması prezident Co Baydenin və demokrat qanunvericilərin xərcləri artırmağa uyandan sonra baş verib. Büdcə defisitinin azaldılması təklifləri ilə çıxış edən Federal Büdcə Məsələlərində Məsuliyyətli Yanaşma Komitəsinin (CRFB) məlumatına əsasən, 2022-ci ilin sentyabr ayına olan vəziyyətə görə, Bayden artıq 4,8 trilyon dollar, o cümlədən, "Amerikanın xilası planı" adı altında COVID-lə mübarizə tədbirləri üçün 1,85 trilyon dollar və hər iki partiyanın təsdiq etdiyi infrastruktur qanun layihəsi üçün 370 milyon dollar borc almağı təsdiqləyib.

Bu, keçmiş prezident Donald Trampın hakimiyyətdə olarkən kəsirə əlavə etdiyi 7,5 trilyon dolların təxminən yarısına bərabər olsa da, o vaxt eks-prezidentin təsdiqlədiyi 2,5 trilyon dollardan daha çoxdur. Ekspertlər açıq bildirirlər ki, Bayden öz administrasiyasının xərclərinə haqq qazandırmaq üçün hər cür səy göstərir və hətta kəsiri azaltmaqla öyünür. Məsələn, Ağ evin sahibi öyünərək deyir: "Yeri gəlmişkən, qeyd edə bilərəm ki, ilk iki ildə mən dövlət borcunu 1,7 trilyon dollar azaltdım. Heç bir prezident bunu etməyib".

Lakin bu rəqəm 2020-2022-ci maliyyə illəri arasında dövlət borc kəsirinin azalmasına aiddir. Həmin dövrdə borc, həqiqətən, azaldı, lakin bu, əsasən, COVID-19 pandemiyası zamanı tətbiq edilən fövqəladə tədbirlərin müddətinin başa çatması ilə əlaqədar idi. Demokratlar hakimiyyəti, həmçinin borcun yüksək artımında respublikaçıları günahlandırmağa çalışırdı. Məsələn, Ağ evin mətbuat katibinin köməkçisi Maykl Kikukava borcun 34 trilyon dolları ötməsindən sonra deyib: "Bu, daha çox respublikaçıların böyük korporasiyalara və varlılara hədiyyələrindən yaranıb".

Daha həyəcanlı fakt ondan ibarətdir ki, son bir il yarım ərzində faiz dərəcələrinin artması səbəbindən dövlət borcuna xidmət bahalaşıb. Təbii ki, onun artmasına uyğun olaraq federal hökumətin borclara olan xərcləri də artıb. "CRFB"in proqnozlarından aydın olur ki, növbəti 30 il ərzində dövlət borcları üzrə faiz ödənişləri federal büdcənin ən sürətlə böyüyən hissəsinə çevriləcək.

Belə ki, 2022-ci maliyyə ilində 475 milyard dollar olan ödənişlərin 2032-ci ildə təxminən üç dəfə artaraq 1,4 trilyon dollara çatacağı gözlənilir. Amma bu da son olmaya bilər. Çünki proqnozlar göstərir ki, artıq 2053-cü ilə qədər faiz ödənişləri 5,4 trilyon dollara qədər artacaq. Müqayisələrdən görünür ki, bu, ABŞ-ın Sosial Təminat, "Medicare", "Medicaid" və bütün digər məcburi və könüllü proqramlara xərclədiyindən daha çoxdur.

"CRFB" prezidenti Maya MakQineas deyir: "Biz açıq şəkildə dayanıqlı olmayan maliyyə yolundayıq. İndi daha çox işlər görməliyik".

Dövlət borcu siyasətçilər və büdcə "qırğıları" arasında narahatlıq mənbəyinə çevrilsə də, ölkəni borcların sürətli artmı narahat edirmi? Ekspertlər deyirlər ki, borc nə qədər çox olarsa, ABŞ bir o qədər çox illik faiz ödəyir. Bu xərclər təhsil, tədqiqat və infrastrukturun inkişafı kimi sahələrdə iqtisadi artıma təkan verən mühüm dövlət investisiyalarını kölgədə qoya bilər. Elə burdan çıxış edərək Peter Peterson Fondu deyir ki, "borcu olan bir ölkə gələcəyə daha az sərmayə qoya biləcək".

"Pew Research Center" agentliyinin hələ 2023-cü il üçün apardığı sorğu nəticəsində məlum olub ki, amerikalıların 57 faizi büdcə kəsirinin azaldılmasının prezident və Konqres üçün prioritetlər siyahısında birinci yeri tutacağına inanır. Amma hələ ki, belə bir tendensiya müşahidə edilmir. Əksinə, ekspertlər daha bədbin proqnozlar verirlər. Analitiklər hesab edirlər ki, ABŞ federal hökumətinin maliyyə siyasəti ciddi iqtisadi, sosial və təhlükəsizlik çətinlikləri yarada bilər. ABŞ-ın dövlət borcunun iqtisadiyyatdan daha sürətlə artacağı və 2028-ci ilə qədər ÜDM-in 106 faizi ilə rekord həddə çatacağı proqnozlaşdırılır. Amma bu da son deyil. Məsələn, Konqresin audit orqanının ekspertlərinin ABŞ-ın Baş Mühasibat İdarəsinin saytında dərc olunmuş hesabatında bildirilir ki, ABŞ-ın dövlət borcu 2050-ci ilə qədər ÜDM-ə nisbətən 200 faizə qədər arta bilər.

ABŞ-ın ümumi dövlət borcu ilk dəfə 29 dekabr 2023-cü ildə 34 trilyon dolları ötüb. 28 dekabrdan bəri ödənilməmiş ümumi dövlət borcu 33,911 trilyon dollardan 34,001 trilyon dollara yüksəlib. "Reuters" qeyd edib ki, sentyabrdan bəri borcun artması vergi gəlirlərinin azalması və federal xərclərin artması fonunda baş verib. Ekspertlər hesab edirlər ki, dövlət borcunun artmasına təsir edən əsas amillərdən biri ABŞ-ın federal büdcəsindəki böyük kəsirdir.

"Fox Business" xəbər verir ki, "JP-Morgan"ın baş icraçı direktoru Ceymi Daymon İkipartiyalı Siyasət Mərkəzində keçirilən müzakirə zamanı bildirib ki, ölkənin milli borcu rekord həddə - 34 trilyon dollara çatdıqdan sonra böyüməyə davam edir və Birləşmiş Ştatlar sürətlə uçurumun kənarına yaxınlaşır.

O əlavə edib ki, indi dövlət borcunun ÜDM-ə nisbəti 100 faizi ötür və proqnozlara görə 2035-ci ilə qədər 130 faizə çatacaq. Daymon borcun qrafikdəki artımını "xokkey çubuğuna" bənzədərək, 1982-ci ildə ölkənin borcunun ÜDM-in 35 faizi, inflyasiyanın 12 faiz, baza dərəcəsinin təxminən 21,5 faiz və işsizlik nisbətinin təxminən 10 faiz olduğunu bildirib və əlavə edib ki, "bu, uçurumdur, biz uçurum görürük. Təxminən on ildən sonra biz ora saatda 60 mil sürətlə çatacağıq".

"CNBC" telekanalı isə xəbər verir ki, ABŞ-ın borc yükü son aylarda sürətlə artaraq, demək olar ki, hər 100 gündə təxminən 1 trilyon dollar artır. "Bank of America"nın eksperti Maykl Hartnett hesab edir ki, ABŞ dövlət borcunun 34 trilyon dollardan 35 trilyon dollara keçməsində 100 günlük model dəyişməz qalacaq. Onun fikrincə, bunun fonunda qızıl və "Bitcoin" kimi aktivlər özlərinin maksimumuna yaxınlaşırlar.

Amerikalı milyarder İlon Mask da dövlət borcunun artmasına kəskin münasibət bildirib. Dünyanın ən varlı adamı vurğulayıb ki, ABŞ-ın federal büdcəsi gələcəkdə borcun faizlərini ödəməkdən başqa bir şey ödəməyə kifayət etməyəcək. O, "Şibetoshi Nakamoto" ictimai platformasının məlumatına rişxəndlə münasibətini belə ifadə edib ki, dövlət borcu ilə bağlı problemlərə baxmayaraq, ABŞ hökuməti hələ də Maskı əsas problem hesab edir. "Mənim günahım aydındır, amma lənətə gəlmiş bu məsələ ilə bağlı bir şey etməliyik, əks halda, bütün federal büdcə faiz ödənişlərindən ibarət olacaq və başqa heç nəyə yetməyəcək!"

***İlqar RÜSTƏMOV***
***XQ***

# "Marş Sığorta və Təkrar Sığorta üzrə Broker" Məhdud Məsuliyyətli Cəmiyyətinin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**manatla**

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Broker haqqı | 2,052 | 1,683 |
| Əməliyyat xərcləri | (1,060) | (1,195) |
| Ticarət debitor borclarının dəyərsizləşməsindən yaranan ləğvetmə / (xərc) | 152 | (9) |
| Əməliyyat mənfəəti | **1,144** | **479** |
| İcarə öhdəliyi üzrə faiz xərci | (2) | (6) |
| Məzənnə fərqindən yaranan gəlir | 95 | 240 |
| Məzənnə fərqindən yaranan xərc | (97) | (236) |
| **Vergidən əvvəl mənfəət** | **1,140** | **477** |
| Mənfəət vergisi xərci | (187) | (114) |
| İL ÜZRƏ MƏNFƏƏT VƏ CƏMİ MƏCMU GƏLİR | **953** | **363** |

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

| **AKTİVLƏR** | | |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Əmlak və avadanlıq | 12 | 52 |
| Qeyri-maddi aktivlər | 25 | 26 |
| Təxirə salınmış vergi aktivi | 42 | 47 |
| **Cəmi uzunmüddətli aktivlər** | **79** | **125** |
| **Qısamüddətli aktivlər** | | |
| Ödənilmiş avanslar | 25 | 21 |
| Ticarət debitor borcları | 3,801 | 2,649 |
| Pul vəsaitləri | 2,524 | 2,174 |
| Qısamüddətli mənfəət vergisi aktivi | - | 69 |
| **Cəmi qısamüddətli aktivlər** | **6,350** | **4,913** |
| **Cəmi aktivlər** | **6,429** | **5,038** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital və ehtiyatlar** | | |
| Nizamnamə kapitalı | 10 | 10 |
| Bölüşdürülməmiş mənfəət | 1,416 | 963 |
| **Cəmi kapital** | **1,426** | **973** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Ticarət və digər kreditor borcları | 4,902 | 3,967 |
| Vergi kreditor borcları | 37 | 62 |
| Qısamüddətli mənfəət vergisi öhdəliyi | 64 | - |
| İcarə öhdəlikləri | - | 36 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **5,003** | **4,065** |
| **Cəmi öhdəliklər** | **5,003** | **4,065** |
| **Cəmi kapital və öhdəliklər** | **6,429** | **5,038** |

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | **10** | **1,300** | **1,310** |
| Elan olunmuş və ödənilmiş dividendlər | - | (700) | (700) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | - | 363 | 363 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **10** | **963** | **973** |
| Elan olunmuş və ödənilmiş dividendlər | - | (500) | (500) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | - | 953 | 953 |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **10** | **1,416** | **1,426** |

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

| ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ: | | |
|---|---|---|
| İl üzrə mənfəət | 953 | 363 |
| Düzəlişlər: | | |
| Mənfəət vergisi xərci | 187 | 114 |
| Köhnəlmə və amortizasiya | 49 | 74 |
| İcarə öhdəlikləri üzrə faiz xərci | 2 | 6 |
| Məzənnə fərqindən yaranan xərc / (gəlir), xalis | 2 | (4) |
| Ticarət debitor borclarının dəyərsizləşməsindən yaranan (ləğvetmə) / xərc | (152) | 9 |
| Hesablanmış ehtiyatda dəyişiklik | (42) | 50 |
| Vergi debitor borclarının ləğvi | - | 14 |
| **Dövriyyə kapitalında hərəkətlərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə pul vəsaitləri** | **999** | **626** |
| Ödənilmiş avanslarda artım | (4) | (4) |
| Vergi debitor borclarında azalma | - | 2 |
| Ticarət debitor borclarında (artım) / azalma | (1,005) | 1,517 |
| Vergi kreditor borclarında (azalma) / artım | (25) | 28 |
| Ticarət və digər kreditor borclarında artım / (azalma) | 984 | (1,295) |
| Əməliyyatlar üzrə yaranan pul vəsaitləri | **949** | **874** |
| Ödənilmiş mənfəət vergisi | (49) | (202) |
| Əməliyyat fəaliyyətləri üzrə əldə olunan xalis pul vəsaitləri | **900** | **672** |
| İNVESTİSİYA FƏALİYYƏTLƏRİ: | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | (8) | - |
| İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri | **(8)** | **-** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ:** | | |
| İcarə öhdəliklərinin ödənilməsi | (37) | (75) |
| Ödənilmiş dividendlər | (500) | (700) |
| **Maliyyə fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | **(537)** | **(775)** |
| **Pul vəsaitlərində xalis artım / (azalma)** | **355** | **(103)** |
| **Pul vəsaitləri, ilin əvvəlinə** | **2,174** | **2,295** |
| Valyuta məzənnəsindəki dəyişikliklərin xarici valyutada saxlanılan pul vəsaitlərinə təsiri | (5) | (18) |
| **Pul vəsaitləri, ilin sonuna** | **2,524** | **2,174** |

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**Müstəqil auditorun hesabatı**
**"Marş Sığorta və Təkrar Sığorta üzrə Broker" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarına**

**Rəy**

Biz "Marş Sığorta və Təkrar Sığorta üzrə Broker" Məhdud Məsuliyyətli Cəmiyyətinin (Şirkət) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət, zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı daxil olmaqla qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardıq.

Bizcə, əlavə edilən maliyyə hesabatları şirkətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

**Rəyin əsasları**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti* bölməsində təsvir olunur. Biz, *Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə ("MBESŞ Məcəlləsi")* uyğun şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və etika ilə bağlı digər öhdəliklərimizi MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Olan Şəxslərin Məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin şirkəti ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi yaranmadığı hallar istisna olmaqla, rəhbərlik şirkətin fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti olan şəxslər şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək əhəmiyyətli təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun aparılan audit nəticəsində hər zaman mövcud olan bütün əhəmiyyətli təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürülməklə, istifadəçilərin hazırkı maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi qoruyub saxlayırıq. Biz həmçinin maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış olanların aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.

Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman şirkətin daxili nəzarət mexanizminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.

Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu siyasətlərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.

Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə önəmli şübhə doğura biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.

Açıqlamalar daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar daxil olmaqla mühüm audit tapıntıları barədə məlumat veririk.

**29 mart 2024-cü il**

## "Xalq Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətinə dair hesabatı

*manatla*

| AKTİVLƏR | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 701 753 | 216 761 |
| Qeyri-maddi aktivlər | 237 791 | 258 396 |
| Uzunmüddətli maliyyə aktivləri | 19 974 400 | 17 930 400 |
| | ***20 913 944*** | ***18 405 557*** |
| *Qısamüddətli aktivlər* | | |
| Birbaşa sığorta üzrə qısamüddətli debitor borcları | 1 353 158 | 736 986 |
| Vergi və sair məcburi ödənişlər üzrə qısamüddətli debitor borcları | | - |
| Sair qısamüddətli debitor borcları | 3 129 | 1 456 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 038 402 | 8 096 239 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 356 501 | 235 794 |
| Sair qısamüddətli aktivlər | - | - |
| | ***10 751 190*** | ***9 070 475*** |
| ***CƏMİ AKTİVLƏR*** | **31 665 134** | **27 476 032** |
| **KAPİTAL** | | |
| Nizamnamə (səhmdar) kapitalı | 15 000 000 | 15 000 000 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 4 259 631 | 2 276 836 |
| **CƏMİ KAPİTAL** | **19 259 631** | **17 276 836** |
| ÖHDƏLİKLƏR | | |
| *Uzunmüddətli* öhdəliklər | | |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər | 224 338 | 128 697 |
| Sığorta ehtiyatları | 10 200 592 | 8 698 608 |
| Qarşısıalınma tədbirləri fondu | - | - |
| | ***10 424 930*** | ***8 827 305*** |
| *Qısamüddətli* öhdəliklər | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 547 104 | 352 509 |
| Qısamüddətli kreditor borcları | 42 408 | 258 |
| Sair qısamüddətli öhdəliklər | 1 391 061 | 1 019 124 |
| | ***1 980 573*** | ***1 371 891*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **12 405 503** | **10 199 196** |
| ***CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR*** | **31 665 134** | **27 476 032** |

**Mənfəət, zərər və digər məcmu gəlirlər haqqında hesabat**

| | | |
|---|---|---|
| **GƏLİRLƏR** | | |
| Əsas əməliyyat gəlirləri: | | |
| Birbaşa sığorta üzrə sığorta haqları | 10 195 441 | 8 375 299 |
| Təkrarsığorta üzrə təkrarsığorta haqları | - | - |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 5 000 | 5 000 |
| Təkrarsığortaya verilmiş müqavilələr üzrə komisyon muzdlar | - | - |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi** | (1 381 277) | (3 581 257) |
| İnvestisiya gəlirləri | 1 868 300 | 1 721 473 |
| | **10 687 464** | **6 520 515** |
| **XƏRCLƏR** | | |
| Əsas əməliyyat xərcləri | | |
| Verilmiş sığorta ödənişləri | (3 841 928) | (420 239) |
| Qaytarılan sığorta haqları | (562 574) | (560 880) |
| Təkrarsığortaya verilmiş sığorta haqları | (458 967) | (376 851) |
| Sair əməliyyat xərcləri | (135 473) | (147 732) |
| İşlərin aparılması xərcləri | (3 096 584) | (2 742 144) |
| | **(8 095 526)** | **(4 247 846)** |
| ƏMƏLİYYAT MƏNFƏƏTİ (ZƏRƏRİ) | **2 591 938** | **2 272 669** |
| Fövqəladə gəlirlər | 10 919 | 6 995 |
| Fövqəladə xərclər | - | - |
| | **2 602 857** | **2 279 664** |
| **VERGİTUTMADAN ƏVVƏL MƏNFƏƏT (ZƏRƏR)** | **2 602 857** | **2 279 664** |
| **Mənfəət vergisi** | (620 062) | (455 933) |
| **HESABAT DÖVRÜNDƏ XALİS MƏNFƏƏT (ZƏRƏR)** | **1 982 795** | **1 823 731** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | **1 982 795** | **1 823 731** |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| bir səhmin əsas mənfəəti | **1.32** | **1.22** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Xalq Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarına**

**Rəy**

Biz, "Xalq Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra cəmiyyət) 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətinə dair hesabatından, mənfəət, zərər və digər məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

***Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatıın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər, ayrılıqda, yaxud məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**"ANR Audit" MMC-nin direktor-auditoru Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası**
**28 mart 2024-cü il**

# Göyçayın işıqları daha gur yanacaq



**"Azərişıq" ASC Göyçayda da əsaslı təmir və yenidənqurma işləri aparır. Rayon ərazisində istismar müddəti bitmiş dayaqlar yenilənir, izolyasiyalı kabel xətləri çəkilir.**

"Azərişıq"dan verilən məlumata görə, şəhərlə yanaşı, Göyçayın kəndlərinin daha keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi məqsədilə Mırtı kəndində 35/10 kV-luq yeni yarımstansiyanın tikintisi davam etdirilir. Bu yarımstansiyaya 35 kV-luq 7,5 kilometr uzunluğunda hava xətti çəkilir.

Mırtı yarımstansiyası rayonun 12 kəndini – Ləkçılpaq, Yalman, Qaraxıdır, Mırtı, Alıkənd, Cırqurd, Şəkər, Veysəlli, Çaxırlı, Alpout, Bəydövül və Qaraman kəndlərinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılmasına xidmət edəcək. Yarımstansiya tikilib istismara verildikdən sonra 5 min abonent fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunacaq.

Hazırda 110/35/10 kV-luq Göyçay yarımstansiyasından qidalanan 10 kV-luq 5-ci şəhər hava xəttini əhatə edən küçə və məhəllələrdə işlər davam etdirilir. Həmçinin, 0.4 kV-luq elektrik veriliş xətlərində köhnə tipli naqillər, dayaqlar və sayğaclar yeniləri ilə əvəzlənir. Ümumilikdə, İnvestisiya Proqramına uyğun olaraq ölkənin bütün regionlarında bir sıra kənd və qəsəbələrin elektrik şəbəkəsi yenilənir.

***XQ***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

aşağıdakı kafedralar üzrə kafedra müdiri və professor-müəllim vəzifələrinə

## MÜSABİQƏ ELAN EDİR

**BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN NƏZƏRİYYƏSİ VƏ METODİKASI KAFEDRASI**
Kafedra müdiri – 1 ştat

**FİZİKİ HAZIRLIQ KAFEDRASI**
Kafedra müdiri – 1 ştat

**İDMAN TİBBİ VƏ REABİLİTASİYA KAFEDRASI**
Kafedra müdiri – 1 ştat

**İDMANIN TƏKMÜBARİZLİK NÖVLƏRİ KAFEDRASI**
Yunan-Roma güləşi idman növünün tədrisi üzrə dosent – 1 ştat
Yunan-Roma güləşi idman növünün tədrisi üzrə baş müəllim – 1 ştat
Cüdo idman növünün tədrisi üzrə baş müəllim – 1 ştat

**KÜTLƏVİ-SAĞLAMLIQ İDMAN NÖVLƏRİ KAFEDRASI**
Gimnastika idman növünün tədrisi üzrə professor – 1 ştat
Atletika idman növünün tədrisi üzrə baş müəllim – 1 ştat

**SOSİAL ELMLƏR KAFEDRASI**
İngilis dili fənni üzrə baş müəllim – 1 ştat

**İDMAN MENECMENTİ VƏ KOMMUNİKASİYA KAFEDRASI**
İqtisadiyyat fənni üzrə baş müəllim – 1 ştat

Sənədlər müsabiqə elan edildiyi gündən bir ay ərzində təqdim oluna bilər. Məlumat telefonu: 012-564-33-75

***Rektorluq***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələr üçün mismar, bolt, qayka, sancaq, şrup, şayba, dəmir kələpçə, pərçim və vintlərin satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 4-ü saat 15.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1047.
Ünvan – Bakı, M.Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ZIĞ Gəmi Təmiri və Tikintisi Zavodu üçün abraziv qumun satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 4-ü saat 15.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1047.
Ünvan – Bakı, M.Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

balansındakı idarələr üçün əlvan metalların satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 5-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1047.
Ünvan – Bakı, M.Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabebliyindəki idarələr və gəmilər üçün polad təbəqələrin satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 8-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1047.
Ünvan – Bakı, M.Useynov küçəsi 2.

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

foto, video çəkilişlərinin aparılması və bununla əlaqədar digər xidmətlərin satın alınması üçün

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 16 aprel 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- +994 12 599 00 03 (daxili 3704).
Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## "Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

23 may 2024-cü il saat 12.00-da Bakı şəhəri, S. Rüstəm küçəsi 11 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin maliyyə nəticələri barədə kənar auditin hesabatı üzrə müzakirə.
2. Mühüm iştirak payı ilə bağlı müzakirə.
3. Müşahidə şurasının tərkibi barədə müzakirə.
4. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu – (+994 12) 440-56-15.
E-mail – info@finexkredit.az.
Ünvan – Bakı şəhəri, S.Rüstəm küçəsi 11.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 65 (30469) 30 mart 2024-cü il, şənbə

# Təbiətin yaz süfrəsi

**Yazda torpağın sinəsindən təzə cücərtilər dənzərən kimi kənd yerlərində deyirlər ki, kasıbın çörəyi çıxdı. Köhnə kişilər danışırdılar ki, aclıq-qıtlıq vaxtı çox adam çöldə-düzdə bitən ot-pencəri yeyə-yeyə xilas oldu.**

Torpaq qar yorğanını üstündən atan kimi, bənövşə çıxan vaxtlarda ilkin olaraq incələn qoz ağızları dada gətirir. Onun dalınca da hər birinin öz dadı-tamı olan digər bitkilər çıxmağa başlayır: quşəppəyi, qazayağı, quzuqulağı, qırxbuğum, qulançar, bağayarpağı, qanqal, əvəlik, yemlik, katəsaqqalı, pərpətöyün, cincilim, dağ keşnişi, yarpız, nanə, qıcı, şüyüd, vəzəri, cəfəri... Obrazlı desək, elə bil ana təbiət nəhəng bir göy-göyərti süfrəsi açır.

Tənəyin, böyürtkənin təzə çıxan zoğları, fındığın təzə açılan yarpaqları da kənddə yaşayanların yaz azuqəsidir. Yal-yamacda bitən qanqalın özəyini tikandan təmizləyib yemək, yəqin ki, hər kəs üçün əvəzolunmaz təamdır. Axı yüz illər boyu indiki iynə-dərmanlar olmayanda babalarımız bu bitkilərlə müalicə alır, sağlamlıqlarını onların vasitəsi ilə qoruyurdular. Elə bil onda insanlar həkimin, dava-dərmanın nə olduğunu da xatırlamırdılar. Bəlkə də, indi həb kimi, iynə kimi qəbul etdiyimiz vitaminlər elə həmin nemətlərin tərkibində olduğuna görə ağrı-acının nə olduğunu bilmirdik.

Təbiətin bu gözəl nemətləri mətbəxə də gəlib çıxdı. Yaz gələndən nənələrimizin dovğa qazanı ocağın üstündən düşməzdi. Sacın üstündə çiriş kətəsini o yan-bu yana çevirər, qazanda buğlanan göy-göyərtinin xoş ətri aləmi başına götürərdi.



Bitkilərdən, göy-göyərtidən hazırlanan yeməklərin adını saysaq, yəqin ki, uzun bir siyahı alınar: qatıqlı aş, çiriş kətəsi, kükü, çoban dürməyi, şüyüdlü aş, şüyüd dolması, buğlama, ispanaq qovurması, kömək qaynatması, əvəlikli umac, səbzi qovurma, qutab, dovğa, ayranlı aş...

Süfrədə hər xörəyin öz dadı, öz ləzzəti var. Amma ana təbiətin açdığı süfrədəki orqanik nemət və yeməklərin yerini heç nə verə bilməz…

*Süleyman QARADAĞLI*

# Cabbar Qaryağdıoğlu sənətinə ehtiramla

**Mədəniyyət Nazirliyinin dəstəyi, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası, Gəncə–Daşkəsən və Mərkəzi Aran Regional Mədəniyyət idarələrinin təşkilatçılığı ilə "Xalqın mədəni sərvəti" layihəsinin ikinci günü Mingəçevir Dövlət Dram Teatrında maraqlı proqramla davam edib.**



Filarmoniyadan bildirilib ki, görkəmli xanəndə Cabbar Qaryağdıoğlunun xatirəsinə həsr olunmuş konsertdə Mingəçevir şəhər musiqi məktəblərinin, Kürdəmir, Ucar, Zərdab və Göyçay şəhər uşaq incəsənət məktəblərinin şagirdləri iştirak ediblər. Konsert zamanı xalq mahnıları, muğam və təsniflər səsləndirilib.

*XQ*

## İdman

# "Qarabağ" 11-ci Azərbaycan çempionluğunu qazanıb




**Dünən Azərbaycan Premyer Liqasında dördüncü dövrəyə start verilib.**

XXVIII turun açılış matçında "Qəbələ" və "Neftçi" komandaları üz-üzə gəlib. Qəbələ şəhər stadionunda oynanılan görüşdə "Neftçi" meydan sahibini 1:0 hesabı ilə məğlub edib. Bununla da, "Neftçi" xallarının sayını 43-ə çatdıraraq, turnir cədvəlində ikinci pilləyə yüksəlib. Qarşılaşmada yeganə qolu 42-ci dəqiqədə Kilan Lebon qapıdan keçirib.

Günün ikinci oyununda Tofiq Bəhramov adına Respublika stadionunda "Qarabağ" "Kəpəz" qarşılaşması baş tutub. Rəqibi 6-1 hesabla məğlub edən Ağdam təmsilçisi 11-ci Azərbaycan çempionluğunu qazanıb. Matçda Julio Romao (21-ci dəqiqə), Olavio Juninyo (52, 56), Abbas Hüseynov (64), Elvin Cəfərquliyev (69) və Redon Cicanın (88) vurduğu qollar sayəsində 6:1 hesablı qələbə qazanan "Qarabağ" 2023/2024 mövsümünün sonuna 8 tur qalmış xallarının sayını 69-a yüksəldərək rəqibləri üçün əlçatmaz olub.

"Kəpəz"in təsəlli qolunu 90-cı dəqiqədə Latir Fal vurub. Digər qarşılaşmalar martın 30-31-də keçiriləcək.

# "Böyük İpək Yolu": medalların sayı 21-ə çatdı

**Bakıda kişi boksçular arasında ənənəvi "Böyük İpək Yolu" beynəlxalq turnirinin qalibləri müəyyənləşib.**



Millimiz 5 qızıl, 6 gümüş və 10 bürünc medalla komanda hesabında ikinci yeri tutub. Birinci yerdə Özbəkistan (5-7-6) qərarlaşıb, "üçlüy"ü isə Qazaxıstan (3-2-1) qapayıb.

Turnirdə Şamil Əsgərov (Azərbaycan) ən yaxşı boksçu, Nəsrəddin Məmmədov (Azərbaycan) ən yaxşı hakim seçilib.

Qeyd edək ki, 5 gün davam edən yarışda 11 ölkənin 121 idmançısı qüvvəsini sınayıb.

# Ağırlıqqaldıranlarımız antidopinq seminarında

**Azərbaycan Ağırlıqqaldırma Federasiyası (AAF) və Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) birgə təşkilatçılığı ilə antidopinq seminarı keçirilib.**

Tədbirdə bütün yaş qrupları üzrə yığma komandaların idmançı və məşqçi heyəti iştirak edib. Seminarı AMADA-nın Təhsil proqramları üzrə meneceri Qüdrət Səfərov aparıb.

İştirakçılara qadağan olunmuş maddələrdən istifadənin fəsadları, onların qəbuluna görə tətbiq olunan cəzalar, qadağan olunmuş siyahı və onun tərtib olunma meyarları barədə məlumat verilib. Həmçinin yarış vaxtı və ondan kənarda test götürülmə qaydaları, idmançıların məkan məlumatları, ADAMS sistemi, terapevtik istifadə üçün İstisnalar və digər vacib məqamlar izah olunub.

Sonda idmançılar anonim antidopinq sorğusunda iştirak ediblər.

*Leyla SABİRQIZI*
*XQ*




# Naxçıvan şəhidlərinin ailə üzvləri Şuşada

**Dünən Qarabağ bölgəsinə səfər edən Naxçıvandan gəlmiş şəhid ailələrinin üzvləri Şuşa şəhərində olublar.**

Bu barədə KİV-də dərc olunan xəbərlərdə deyilir ki, şəhid ailələrinin üzvləri Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın zəngin tarixi, mədəni irsi, şəhərdə aparılan quruculuq və bərpa işləri ilə tanış olub, Cıdır düzünə gediblər.

Onlar, həmçinin Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini, Şuşanın tarixi-mədəni abidələrini, Yuxarı Gövhər Ağa məscidini, Şuşa qalasını ziyarət ediblər.

Şəhid ailələri Xocavənd rayonuna da səfər edəcək. Səfər Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən təşkil olunub.

*XQ*

## Hava

# Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən martın 30-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı, gecəyə doğru ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Səhər arabir güclənən cənub-qərb küləyi, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-10°, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 75-85, gündüz 55-65 faiz olacaq.

Azərbaycanın rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Lakin səhər şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, axşama doğru yağıntıların intensivləşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Bəzi yerlərdə arabir duman olacaq. Havanın temperaturu gecə 4-9°, gündüz 20-25° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# İstiləşmə ömrümüzdən 1 saniyə aparır

**Yaxın bir neçə ildə dünyada hər kəs vaxtının bir saniyəsini itirəcək. Buna səbəb qütb buzlarının əriməsidir. Bu, Yer kürəsinin fırlanması vaxtını dəyişir.**



Günlərimizi təyin edən saatlar və dəqiqələr Yerin fırlanması ilə müəyyən edilir. Lakin bu fırlanma sabit deyil. O, Yerin səthində və onun nüvəsində baş verənlərdən asılı olaraq, bir qədər dəyişə bilər. Bu dəyişikliklər dünyada saatların artıq saniyələrlə müəyyən edilməsini göstərir.

İllər keçdikcə zamana çoxlu saniyələr əlavə olunub. Lakin uzun müddət davam edən yavaşlama prosesindən sonra Yerin fırlanması onun nüvəsindəki dəyişikliklər səbəbindən hazırda sürətlənir. Bu dəyişikliklərə okean dibindəki proseslər də təsir edir. Son zamanlar qlobal istiləşməyə səbəb olan qalıq yanacaqlarının yandırılması nəticəsində yaranan qütb buzlarının əriməsi də bu hadisəyə səbəb olan amillərdəndir.

*FİDAN*
*XQ*

## Sağlamlıq

# Zeytunun yarpağı da...

**Türkəçarədə şəkərə qarşı istifadə edilən zeytun yarpaqlarından, həqiqətən, diabet xəstələri üçün dərman hazırlana bilər. Elmi araşdırmalarla zeytun yarpağı ekstraktında olan pikual, tofaca və şemlalinin antioksidant xassələri sübut olunub.**



Eyni zamanda zeytun yarpağı ekstraktının qlükoza və qlikasiya olunmuş hemoqlobini, lipid parametrlərini və qaraciyər funksiyasını bərpa etməsi də təsdiqlənib.

Bu təcrübədən sonra alimlər zeytunun metforminlə kombinasiyasının qanda qlükoza səviyyəsini saldığını və qaraciyərin fəaliyyətini normaya yaxınlaşdırdığını sübut ediblər.

Misir, Malayziya və Rusiyadan olan alimlər, həmçinin metforminlə birgə II tip diabet xəstələrinə zeytun yarpağı ekstraktından ibarət preparatın əsas müalicə sxeminə salınmasını tövsiyə edirlər.

*Z.HÜSEYNLİ*
*XQ*

*✓ "Elxan" firmasının dairəvi möhürü və künc ştampı itdiyi üçün etibarsız sayılır.*

*✓ Bakı şəhəri, Xəzər rayonu (keçmiş Əzizbəyov rayonu) Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 2009-cu il 4 yanvar tarixində Novruzov Anar Akif oğluna verilmiş AO 1066748 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3917
SİFARİŞ 653
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00